Xalqın qəzeti!

# Xalq qəzeti

№ 199 (30893) 18 sentyabr 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan Amerika Birləşmiş Ştatları ilə dostluq və əməkdaşlığa böyük önəm verir

## *Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa təşəkkür edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa "Truth" sosial şəbəkə hesabında paylaşımına görə təşəkkür edib.**

Dövlətimizin başçısı bu barədə "X" sosial şəbəkə hesabında yazıb.

"Prezident Donald Tramp, təşəkkür edirəm, "Truth" sosial hesabınızda paylaşdığınız xoş sözlərinizə görə minnətdaram. Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəlilədilməsində və tarixi Vaşinqton sammitinə ev sahibliyi etməyinizdə oynadığınız mühüm rolu yüksək qiymətləndirirəm", – deyə Prezident İlham Əliyev qeyd edib.

Dövlətimizin başçısı vurğulayıb ki, Donald Tramp Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əbədi dostluğun və formalaşmaqda olan strateji tərəfdaşlığın memarıdır. "Dostluğumuza böyük önəm verirəm", – deyə Azərbaycan Prezidenti əlavə edib.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp sentyabrın 16-da növbəti dəfə "Truth" sosial media hesabında avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla keçirdiyi tarixi görüş barədə paylaşım edib. O bildirib ki, Azərbaycan və Ermənistan arasında müharibənin həllinə kömək etmək və eyni zamanda, bu iki böyük lider və insanla - Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanla dost olmaq onun üçün böyük şərəfdir.

## Akademik Üzeyir Hacıbəyli



Səhifə ⇨ 14

## Xəzərdən Aralıq dənizinə neft körpüsü




Səhifə ⇨ 13

# Azərbaycan – ərəb dünyası: münasibətlərin yeni üfüqləri



**2025-ci il 16 sentyabrda Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın Azərbaycana rəsmi səfəri ikitərəfli münasibətlərdə strateji dönüş nöqtəsi kimi dəyərləndirilə bilər. Prezident İlham Əliyevlə keçirilən görüş siyasi, iqtisadi və regional əməkdaşlığın gələcək konturlarını müəyyənləşdirərək tərəflərin strateji vizyonunu ortaya qoydu. Səfər Azərbaycan ilə ərəb dünyası arasında münasibətlərin yüksələn xətt üzrə inkişafını təsdiqləyir.**

Azərbaycan–BƏƏ münasibətlərinin son illərdəki sürətli inkişafını şərtləndirən həm iqtisadi, həm də siyasi mahiyyətli amillər mövcuddur. Əvvəlcə onu qeyd edək ki, enerji əməkdaşlığı iki ölkə əlaqələrinin təməl daşı kimi çıxış edir. Azərbaycanın bərpaolunan enerji sahəsində ortaya qoyduğu iddialı gündəlik BƏƏ-nin strateji maraqları ilə üst-üstə düşür. Əbu-Dabi dünyanın ən iri "yaşıl" enerji investoru kimi çıxış edərkən, Bakı Cənubi Qafqazda bu sahədə regional mərkəzə çevrilmək niyyətindədir. Məhz bu çərçivədə "Masdar" kimi böyük şirkətlərin Azərbaycandakı layihələrə daxil olması iqtisadi və siyasi əhəmiyyət də daşıyır; mövcud amillər BƏƏ-nin regiondakı mövcudluğunu iqtisadi mexanizmlərlə gücləndirməsini təmin edir. Digər mühüm istiqamət nəqliyyat-logistika xəritəsidir. Azərbaycan Orta Dəhlizin əsas oyunçusuna çevrilərək, Avropa ilə Asiya arasında tranzit körpüsü rolunu möhkəmləndirir. BƏƏ isə bu dəhliz vasitəsilə Yaxın Şərqdən Avrasiya məkanına çıxış imkanlarını genişləndirir.

*(ardı 3-cü səhifədə)*

## Suverenliyimiz – milli varlığımızın əbədiyyət pasportu



Səhifə ⇨ 11

## Sülh, sabitlik, inkişaf



Səhifə ⇨ 5

## Qonşuluq örnəyi, əməkdaşlıq timsalı



Səhifə ⇨ 6

## Cənubi Qafqazın regional identikliyi və inteqrasiyası




Səhifə ⇨ 6

## Sabahın Bakısı necə olacaq?



Səhifə ⇨ 12

## Saman çöpündən yapışan Ruben



Səhifə ⇨ 4

# Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2025-ci ildə Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri və ilk Baş naziri Fətəli xan İsgəndər xan oğlu Xoyskinin 150 illiyi tamam olur.

Fətəli xan Xoyski XX əsrin əvvəllərindən milli-mədəni intibahını yaşayan Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti naminə hərəkatda üzərinə götürdüyü çətin vəzifəni şərəflə yerinə yetirmiş fədakar ziyalılar nəslinin parlaq nümayəndəsidir. Geniş dünyagörüşlü, cəsarətli, vətənpərvər şəxsiyyət və böyük siyasi xadim kimi o, daim Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ön cərgələrində mövqe tutmuş, tarixi İstiqlal Bəyannaməsini imzalayanlardan biri olmuşdur.

Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumət kabinetləri Azərbaycan Xalq Cümhuriyyətinin ilk addımlarını atdığı vaxtdan etibarən demokratik dövlət idarəçiliyinin təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və hərbi quruculuq sahələrində mühüm nailiyyətlər qazanmış, Azərbaycanın müstəqilliyinin xarici dövlətlər tərəfindən tanınması və diplomatik münasibətlərinin yaradılması işinə layiqli töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın görkəmli siyasi və dövlət xadimi Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Fətəli xan Xoyskinin 150 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 sentyabr 2025-ci il**

# "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, eləcə də bu sahədə həyata keçirilən sistemli və kompleks tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə **qərara alıram:**

**1.** "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3** Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası:

3.1. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini həyata keçirsin;

3.2. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 sentyabr 2025-ci il**

**Qeyd: "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nın tam mətni ilə www.president.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.**

# Milli Məclisin Sədri Qadın Liderlər Forumunda

**Milli Məclisin Sədri Sahibə Qafarova Malayziyanın Kuala Lumpur şəhərində Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyasının 2-ci Qadın Siyasi Liderlər Forumunda iştirak edib.**




Milli Məclisin Sədri çıxışı zamanı Azərbaycan parlamentinin təcrübəsi və ölkəmizdə gender siyasəti istiqamətində əldə olunmuş nailiyyətlər barədə geniş məlumat verib. O bildirib ki, Azərbaycan qadınların hüquqlarının qorunmasına və onların qərarların qəbulunda fəal iştirakının təmin edilməsinə tam sadiqdir.

S.Qafarova Azərbaycanın 1918-ci ildə əksər Avropa ölkələrini də qabaqlayaraq qadınlara səsvermə hüququ verdiyini xatırladıb. Deyib ki, 2024-cü ilin sentyabrında keçirilən seçkilər nəticəsində isə qadınlar parlamentdəki 125 yerdən 26-sını qazanıblar, bu da əvvəlki dövrlə müqayisədə say artımını nümayiş etdirir.

Milli Məclisin Sədri, həmçinin Azərbaycanın gender məsələləri ilə bağlı beynəlxalq parlament təşkilatlarında fəaliyyəti və təşəbbüsləri haqqında da danışıb.

*



**Milli Məclisin Sədri Sahibə Qafarova Malayziyaya işgüzar səfəri çərçivəsində Kamboca Milli Assambleyasının sədri Xuon Sudari ilə görüşüb.**

Görüşdə Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyasının beynəlxalq parlament platforması kimi fəaliyyəti, bu təşkilat çərçivəsində əməkdaşlığın əhəmiyyəti qeyd olunub. O, həmçinin deputatların qarşılıqlı səfərlərindən, hər iki tərəfdən nümayəndələrin Azərbaycan və Kambocada təşkil edilən tədbirlərdə iştirakından məmnunluq ifadə olunub.

Kamboca Milli Assambleyasının sədri Xuon Sudari ölkəsinin Azərbaycanla siyasi, iqtisadi, ticari, investisiya və digər sahələrdə əlaqələri daha da inkişaf etdirməkdə maraqlı olduğunu bildirib. O, Milli Məclis Sədrinin AİPA-da iştirakından və onunla Assambleya çərçivəsində görüşməkdən məmnun olduğunu bildirib.

*XQ*

# Aşqabadda Xəzəryanı dövlətlərin əməkdaşlıq müzakirəsi

**Sentyabrın 15-17-də Aşqabad şəhərində Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupun 11-ci iclası keçirilib.**



İclasda Azərbaycan Respublikası (nümayəndə heyətinin rəhbəri Samir Şərifov), İran İslam Respublikası (nümayəndə heyətinin rəhbəri K.Qarib Abadi), Qazaxıstan Respublikası (nümayəndə heyətinin rəhbəri Z.Amanjolova), Rusiya Federasiyası (nümayəndə heyətinin rəhbəri N.Udoviçenko) və Türkmənistanın (nümayəndə heyətinin rəhbəri M.Atacanov) nümayəndə heyətləri iştirak edib.

İclasa Türkmənistan nümayəndə heyətinin rəhbəri M.Atacanov sədrlik edib.

Tərəflər Xəzər dənizində düz çıxış xətlərinin metodikasının müzakirəsini davam etdiriblər. İclas zamanı Xəzər dənizində əməkdaşlığın icmalı baş tutub, beştərəfli qarşılıqlı fəaliyyət və müxtəlif səviyyələrdə tədbirlərə hazırlıq məsələləri nəzərdən keçirilib.

Nümayəndə heyətləri görüşün yüksək səviyyədə təşkilinə görə Türkmənistana minnətdarlıqlarını bildiriblər.

YSİQ-nin növbəti iclası Azərbaycan Respublikasında diplomatik kanallarla razılaşdırılacaq tarixdə keçiriləcək.

*XQ*

# Prezident İlham Əliyev "Qarabağ" klubunu qələbə qazanması münasibətilə təbrik edib



Azərbaycan Prezidenti İlham Əliyev "Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqasının əsas mərhələsində ilk qələbəsini qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

"Qitənin ən nüfuzlu klub turnirində Çempionlar Liqasının əsas mərhələsində ilk qələbəsini qazanması münasibətilə Ağdamın "Qarabağ" futbol klubunu ürəkdən təbrik edirəm. Bu, Azərbaycan futbolunun, Azərbaycan idmanının tarixi zəfəridir.

"Qarabağ"ın Avropanın köklü klublarından biri olan "Benfika" ilə səfər matçında oyunun gedişində möhtəşəm geridönüş edərək parlaq qələbə çalması onun məğlubedilməz ruhunu, mübarizə əzmini göstərir.

Bu qələbə ilə doğma komandamız Azərbaycan xalqına böyük sevinc bəxş etmişdir. Hər bir azərbaycanlı Avropada xariqələr yaradan "Qarabağ"la qürur duyur. Komandamıza Çempionlar Liqasının növbəti oyunlarında uğurlar və yeni-yeni zəfərlər arzu edirəm".

# Türkiyədə istehlakçı hüquqları necə qorunur?

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin nümayəndə heyəti Türkiyənin Ankara şəhərinə işgüzar səfər edib. Səfər çərçivəsində nümayəndə heyəti Türkiyə Respublikasının Ticarət Nazirliyinin tabeliyində İstehlakçıların Müdafiəsi və Bazara Nəzarət Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən istehlakçı şurasının 29-cu iclasında fəxri qonaq qismində iştirak edib.**



İllik iclasda agentliyin istehlak bazarına nəzarət şöbəsinin müdiri Yusif Tapdıqlı çıxış edərək istehlakçı hüquqlarının müdafiəsi sahəsində Türkiyə təcrübəsinin öyrənilməsinin vacibliyini vurğulayıb. İstehlakçıların Hüquqlarının Müdafiəsi və Mühafizəsi üzrə Beynəlxalq Şəbəkənin Mentorluq Proqramı çərçivəsində həyata keçirilən əməkdaşlıq layihələri və müasir yanaşmaların tətbiqindən söz açılıb.

Azərbaycanda istehlakçı hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində agentliyin tənzimləyici fəaliyyəti, o cümlədən pozuntu halları ilə effektiv mübarizə metodları diqqətə çatdırılıb, istehlakçıların qanunvericiliklə təminat verilmiş hüquqlarını əhatə edən geniş maarifləndirmə tədbirlərindən bəhs olunub.

Qeyd edək ki, ənənəvi olaraq hər il keçirilən iclasın əsas məqsədi Türkiyədə istehlakçıların hüquqlarının qorunması ilə bağlı zəruri tədbirlərin icrası, qanunvericiliyin təkmilləşdirilməsinə dair rəylərin nəzərdən keçirilməsi, o cümlədən müvafiq sahədə atılan addımlar, həyata keçirilən layihə və təşəbbüslərin müzakirəsidir.

*XQ*

# Bakıda14 gəmi inşa olunacaq



**"Bakı Gəmiqayırma Zavodu" MMC daha 14 gəminin tikintisinə dair müqavilələr imzalayıb. Bu barədə İqtisadiyyat Nazirliyinin sənaye şöbəsinin müdir müavini Elxan Şiriyev Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən iclasında deyib. Bakı Gəmiqayırma Zavodunun ümumi investisiya həcminin 498 milyon ABŞ dolları təşkil etdiyini diqqətə çatdıran nazirlik rəsmisinin sözlərinə görə, müəssisədə indiyədək 12 gəmi istehsal olunub. Həmin gəmilərin ümumi sifariş dəyəri isə 628 milyon dollardır. Bununla yanaşı, ötən müddətdə istər Azərbaycana, istərsə də Xəzər dənizi hövzəsindəki ölkələrə məxsus 200-dən çox gəmi təmir edilib.**

E.Şiriyev bildirib ki, yeni müqavilələrdə nəzərdə tutulmuş gəmilərin tikintisi mərhələli şəkildə həyata keçiriləcək. Bunlardan 11-i "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, 1-i Azərbaycan Dövlət Neft Şirkəti, 1-i Bakı Beynəlxalq Dəniz Limanı, digəri isə Fövqəladə Hallar Nazirliyi tərəfindən sifariş edilib. Yeni müqavilələrin ümumi dəyəri 292 milyon dollar təşkil edib: "Əlavə olaraq, iki ədəd quru yük gəmisinin tikintisi ilə bağlı ASCO, eyni zamanda, Dövlət Sərhəd Xidməti ilə 1 ədəd patrul gəmisinin, Birləşmiş Ərəb Əmirliklərinin "Abu Dhabi Ports Company" şirkəti ilə 2 ədəd konteyner daşıma gəmisinin, Rusiyanın Birləşmiş Gəmiqayırma Korporasiyası ilə 5 ədəd tankerin və "Cristal" şirkəti ilə 2 ədəd quru yük gəmisinin tikintisi ilə bağlı danışıqlar davam edir".

Nazirlik rəsmisi onu da deyib ki, zavodda subpodratçılar da daxil olmaqla 1400 nəfər işlə təmin edilib. Yeni layihələr çərçivəsində isə daha 2 min 200 nəfərin işlə təmin edilməsi nəzərdə tutulur.

*XQ*



# Liderlər bir-birinə böyük dəyər verirlər

*İlham Əliyevlə Donald Tramp arasında formalaşmış siyasi dialoq regionda yeni güc balansının təşəkkül tapmasına xidmət edir*

**Azərbaycan Prezidenti İlham Əliyevin balanslaşdırılmış və hədəfyönlü diplomatiyası Bakını regionun tranzit dayağı, enerji mərkəzi və sülh arxitekturasının memarı statusuna yüksəldib. Xarici siyasət doktrinasının prioritetləri təkcə dövlət maraqlarının müdafiəsi ilə məhdudlaşmır, həm də qlobal güclərin regiondakı fəaliyyət trayektoriyasını formalaşdırır. Məhz bu fonda rəsmi Vaşinqton Bakı üçün təkcə strateji tərəfdaş deyil, həm də çağdaş rezonans nöqtəsidir. ABŞ-ın enerji təhlükəsizliyi, Orta Dəhliz kimi beynəlxalq nəqliyyat magistralına verdiyi siyasi dəstək, habelə postmüharibə diplomatiyasına gətirdiyi yeni dinamika Azərbaycan üçün çoxvektorlu xarici siyasətin mühüm sütununa çevrilib.**

Azərbaycan və ABŞ liderləri arasında səmimi münasibət iki ölkə arasında dialoqun həm protokol, həm də şəxsi diplomatiya müstəvisində inkişaf etdiyini göstərir. Bu, liderlərin qarşılıqlı etimad mühitini gücləndirərək strateji qərarların qəbulunda sürətlənmə və çeviklik yaradır. İlham Əliyevlə Donald Tramp arasında formalaşmış səmimi münasibət Vaşinqton formatında aparılan danışıqların məhsuldarlığını artırır, regionda yeni güc balansının təşəkkül tapmasına xidmət edir. Belə bir şəraitdə Bakı üçün ABŞ Cənubi Qafqazın təhlükəsizlik arxitekturasının dayağına çevrilir.

* * *

ABŞ Prezidenti Donald Tramp sentyabrın 16-da növbəti dəfə "Truth Social"dakı hesabında Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanla keçirdiyi tarixi görüşün fotosunu paylaşaraq bu sözləri əlavə edib: "Azərbaycan və Ermənistan arasında müharibənin həllinə kömək etmək, eyni zamanda, bu iki böyük lider və insanla – Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanla – dost olmaq mənim üçün böyük şərəfdir. Bu, mənim üçün, amma daha önəmlisi Amerika Birləşmiş Ştatları üçün əbədi dostluq olacaq!"

Prezident İlham Əliyev də öz növbəsində D.Trampa "TruthSocial" hesabında paylaşıma görə təşəkkür edib və bu barədə "X"-də yazıb: "Prezident Donald Tramp, təşəkkür edirəm, "TruthSocial" hesabınızda paylaşdığınız xoş sözlərinizə görə minnətdaram. Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəlilədilməsində və tarixi Vaşinqton sammitinə evsahibliyi etməyinizlə oynadığınız mühüm rolu yüksək qiymətləndirirəm. Donald Tramp Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əbədi dostluğun və formalaşmaqda olan strateji tərəfdaşlığın memarıdır. Dostluğumuza böyük önəm verirəm".

Dövlət başçımızın təşəkkür paylaşımı siyasi baxımdan bir neçə mühüm məqamı üzə çıxarır. Azərbaycan lideri açıq şəkildə qeyd edir ki, Donald Trampın şəxsi təşəbbüsləri nəticəsində Azərbaycan–Ermənistan sülh prosesi irəliləyib, Vaşinqton sammiti isə tarixə düşən diplomatik hadisə statusu qazanıb. Bu, Bakı tərəfindən ABŞ-ın vasitəçiliyinə verilən etimad mandatının açıq təzahürüdür. Dövlət başçısının Trampı "Azərbaycan–ABŞ strateji tərəfdaşlığının memarı" adlandırması reallığı əks etdirən siyasi tezisdir. Çünki Bayden-Blinken komandasından fərqli olaraq Tramp administrasiyası dövründə ABŞ-ın Cənubi Qafqaz siyasətində tarazlaşdırma elementləri daha qabarıq görünür. Vaşinqton, bir tərəfdən regionda Rusiya təsirini balanslaşdırır, digər tərəfdən Avropa İttifaqının ziddiyyətli mövqeyindən fərqli olaraq, daha konkret sülh gündəliyi irəli sürür.

Azərbaycanın Vaşinqton formatına etibar göstərməsi Bakının xarici siyasətində yeni hədəfləmə xəttinin formalaşdığını nümayiş etdirir. Bu mərhələdə Vaşinqtonla yaxınlaşmanın əsas hədəfləri aydındır. İlk növbədə, sülh müqaviləsinin hüquqi-siyasi arxitekturasının tamamlanması və ABŞ-ın diplomatik "təhlükəsizlik çətiri" altında prosesin uğurla yekunlaşdırılması hədəflənir. Bununla yanaşı, enerji diplomatiyasının qloballaşdırılması xüsusi əhəmiyyət kəsb edir – Xəzər qazının və "Yaşıl enerji dəhlizi"nin Avropa bazarına çıxışı üçün ABŞ-ın siyasi və texnoloji dəstəyi açar rolunu oynayır. Üçüncü vacib istiqamət isə yeni təhlükəsizlik paradiqmasının qurulmasıdır. Bu, Rusiya və İranın regiondakı təsir rıçaqlarını balanslaşdırmaq üçün ABŞ-ın hərbi-siyasi resurslarının strateji istifadəsini nəzərdə tutur və Cənubi Qafqazda dayanıqlı sabitliyə zəmin yaradır.

* * *

Prezident İlham Əliyevin Donald Trampa ünvanladığı təşəkkür bəyanatı bir növ "geosiyasi siqnal fişəngi"dir. Bu, Cənubi Qafqazda sülh arxitekturasının hansı güc mərkəzləri üzərində qurulacağını, hansı paytaxtların prosesdən kənarda qalacağını göstərir. Bakı aydın şəkildə bildirir ki, Cənubi Qafqazdakı status-kvonun memarı yalnız Azərbaycan ola bilər və bu memarlığın siyasi müttəfiqi kimi Vaşinqton ön plana çıxır.

Beləliklə, Azərbaycan–ABŞ münasibətləri strateji rezonans, qarşılıqlı maraqların kəsişmə nöqtəsi və yeni geosiyasi konsensusun nüvəsidir. İlham Əliyevin "dostluğumuza böyük önəm verirəm" həm də gələcək onilliyin siyasi kursunu müəyyən edən tezisdir. Bu, Vaşinqtonla əlaqələrin uzunmüddətli, institusional və çoxşaxəli xarakter alacağını, Azərbaycan diplomatiyasının Qərb vektorunda daha cəsarətli və proaktiv mövqelər ortaya qoyacağını ehtiva edir. Nəticədə, Bakı regionda oyun qaydalarının formalaşmasında əsas söz sahibi olmaqla yanaşı, Cənubi Qafqaz gündəliyini diktə edən aparıcı aktora çevrilir.

***Tacir SADIQOV***
***XQ***

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı,**
**politoloq**

ABŞ bu gün hələ də qlobal sistemdə supergüc statusunu qoruyur. Təbii ki, Vaşinqtonun bütün problemləri həll etmək imkanı və resursu məhdud ola bilər, lakin açıq görünür ki, Amerikanın iştirak etmədiyi beynəlxalq məsələlərin uğurla həll olunması çətindir.

Bu baxımdan, ABŞ-ın Azərbaycana verdiyi dəstək və iki ölkə arasında münasibətlərin normallaşması xüsusi əhəmiyyət kəsb edir. ABŞ siyasi sistemində prezidentlə şəxsi münasibətlərin önəmini nəzərə aldıqda, bəzən institusional mexanizmlərdən çox məhz liderlərarası dialoq həlledici rol oynayır. Bu gün dünyanın bütün aparıcı dövlətlərinin – Avropa, Asiya və Şimal yarımkürəsinin – liderləri Amerika Prezidenti ilə şəxsi əlaqələr qurmağa çalışır və əməkdaşlıq edirlər.

Azərbaycan Prezidenti də məhz bu yanaşmanı əsas götürüb və Vaşinqton formatında aparılan görüşlər bunun sübutudur. Üstəlik, görüşdən sonra Prezident Donald Trampın sosial şəbəkələrdə Azərbaycan və dövlət başçısı barədə səsləndirdiyi müsbət fikirlər münasibətlərin davamlı xarakter daşıdığını nümayiş etdirir. Bu, Azərbaycanın ABŞ tərəfindən yüksək səviyyədə dəstəklənməsinin və strateji əməkdaşlığın dərinləşməsinin göstəricisidir.

Hesab edirəm ki, bu əlaqələr qorunmalı və daha da inkişaf etdirilməlidir. 1997-ci ildə qurulan hərbi və təhlükəsizlik sahələrində qurulan əməkdaşlıq təcrübəsi əsasında Azərbaycan ABŞ-la tərəfdaşlığı gələcəkdə daha da gücləndirə bilər.

# Azərbaycan – ərəb dünyası: münasibətlərin yeni üfüqləri



*(əvvəli 1-ci səhifədə)*

Liderlərin şəxsi münasibətləri Azərbaycan–BƏƏ əməkdaşlığının sürət və dərinliyini müəyyən edən əsas amildir. İlham Əliyev və Şeyx Məhəmməd bin Zayed arasındakı qarşılıqlı etimad yalnız diplomatik protokolların icrasını deyil, strateji layihələrin reallaşma mexanizmini də sürətləndirir. Qarşılıqlı etimad iqtisadi və infrastruktur təşəbbüslərinin risklərini azaltmaqla yanaşı, qərar qəbuletmə prosesinə elastiklik gətirir və iki ölkə arasında strateji koordinasiyanın möhkəmlənməsinə şərait yaradır.

Siyasi analitik baxımdan şəxsi etimad dövlətlərin birbaşa qarşılıqlı maraqlarını və geosiyasi prioritetlərini sintez edən amil kimi çıxış edir. Enerji, logistika və infrastruktur layihələrinin icrası, adətən, uzun danışıqlar və institusional prosedurlar tələb edir. Lakin liderlər arasında şəxsi münasibətlər bu mexanizmləri sürətləndirir, strateji qərarların operativ qəbuluna imkan verir və regiondakı güc balansına təsir edən riskləri minimuma endirir.

Azərbaycan–BƏƏ münasibətlərini yalnız ikitərəfli çərçivədə qiymətləndirmək kifayət deyil. Əslində, bu əlaqələrin inkişafı bütün ərəb dünyası ilə münasibətlərə yeni impuls verir. Bakı ilə Əbu-Dabi arasında formalaşan yaxınlıq artıq körfəzin digər paytaxtları üçün də siqnal xarakteri daşıyır: Azərbaycan etibarlı tərəfdaş, sabit siyasi kursa malik və regional güc balansında söz sahibi ölkədir. Əgər BƏƏ kimi nüfuzlu və iqtisadi cəhətdən güclü bir dövlət Bakını strateji əməkdaş kimi seçirsə, bu, digər ərəb dövlətləri üçün də presedent yaradır.

Bəs, Azərbaycanın ərəb dünyası ilə münasibətlərində BƏƏ amili katalizator rolunu oynayacaqmı? Cavab aydındır: artıq oynamaqdadır. Əbu-Dabinin Bakı ilə sıx əməkdaşlığı yalnız enerji və logistika ilə məhdudlaşmır, o, həm də siyasi dəstək platforması formalaşdırır. Məsələn, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatında, ərəb dövlətləri ilə beynəlxalq tribunalarda bir çox məsələdə həmrəylik nümayiş etdirir. Qarabağ müharibəsi dövründə ərəb ölkələrinin bir qismi Azərbaycanın mövqeyini açıq şəkildə dəstəkləmişdisə, indi bu dəstəyin ardınca konkret iqtisadi və strateji əməkdaşlıq paketləri gəlir.

Ərəb dünyasının Azərbaycana marağının artmasının digər səbəbi də budur ki, Bakı özünü yalnız Cənubi Qafqaz regionunun lideri kimi deyil, həm də Avrasiyanın tranzit qovşağı, enerji təminatçısı və iqlim diplomatiyasının yeni aktoru kimi təqdim edir. COP29-un Bakıda keçirilməsi, BƏƏ-nin COP28 təcrübəsi ilə yanaşı götürüldükdə, iqlim məsələlərində Azərbaycan–ərəb dünyası əməkdaşlığının simvolik və praktik əhəmiyyəti artır.

Bəs, Azərbaycan–BƏƏ münasibətləri regional geosiyasətdə hansı yeni imkanlar açır? Azərbaycan–BƏƏ əməkdaşlığının təkcə ikitərəfli iqtisadi layihələrlə məhdudlaşmadığı, əksinə, daha geniş geosiyasi düzəni formalaşdırdığı aydın görünür. Bu münasibətlər regionda yeni strateji xəritənin konturlarını müəyyən edir. Əvvəla, Azərbaycan Cənubi Qafqazda enerji, nəqliyyat və diplomatik platformaların mərkəz oyunçusuna çevrilib. BƏƏ isə öz növbəsində Yaxın Şərqin iqtisadi gücü və körfəz regionunda sabitlik sütunu kimi çıxış edir. İki ölkənin maraqlarının kəsişməsi Orta Dəhliz, Zəngəzur dəhlizi və Xəzər hövzəsində yeni geoiqtisadi imkanlar açır.

Maraqlıdır ki, Bakı ilə Əbu-Dabinin yaxınlaşması yalnız iqtisadi sferada qalacaq, yoxsa siyasi alyans elementlərinə də yol açılacaq? Görünən odur ki, perspektiv yalnız iqtisadi çərçivə ilə məhdudlaşmayacaq. Azərbaycan BƏƏ vasitəsilə ərəb dünyasına daha güclü inteqrasiya edir, eyni zamanda, körfəz kapitalının Cənubi Qafqaz və Mərkəzi Asiyada artan roluna vasitəçilik edir. Eyni zamanda, BƏƏ də Azərbaycan vasitəsilə Qafqaz və Orta Asiya bazarlarına çıxış əldə edir. Qarşılıqlı maraqlar regiondakı güc balansına yeni ölçü gətirir.

Regional geosiyasətdə bu əməkdaşlığın daha bir təsiri Türkiyə amili ilə bağlıdır. Bakı–Əbu-Dabi yaxınlaşması Türkiyə–Azərbaycan–BƏƏ üçbucağını daha da gücləndirə bilər. Üçlük həm enerji, həm nəqliyyat, həm də təhlükəsizlik sahəsində regional sabitlik üçün yeni mexanizm formalaşdırmaq potensialına malikdir. Digər tərəfdən, Qərb üçün də bu əməkdaşlıq strateji maraq doğurur. Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyində əsas tərəfdaş rolunu oynayır, BƏƏ isə həm maliyyə, həm də enerji bazarlarında qlobal aktordur. Onların yaxınlaşması Avropa üçün yeni alternativlər yaradır. Mövcud amillər Bakıya həm Brüssel, həm də Vaşinqton qarşısında əlavə diplomatik alətlər verir.

Sonda onu da qeyd edək ki, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın 2025-ci il 16 sentyabr səfəri Azərbaycan–BƏƏ münasibətlərini yeni strateji mərhələyə çıxardı və bu əməkdaşlığın yalnız ikitərəfli deyil, həm də regional və qlobal miqyaslı təsirlər doğuracağı artıq aydındır. Biz Azərbaycanla ərəb dünyası arasında münasibətlərin yeni üfiqlərinin göründüyünü əminliklə söylyə bilərik. Enerji və yaşıl texnologiyalardan tutmuş logistika dəhlizlərinə, diplomatiyadan siyasi alyans elementlərinə qədər uzanan bu tərəfdaşlıq Cənubi Qafqazı və Yaxın Şərqi birləşdirən yeni strateji körpü formalaşdırır. Əlbəttə, bu proses risklərsiz deyil – regional rəqabət, enerji bazarındakı dəyişkənlik və qlobal güclərin maraqlarının toqquşması yeni çağırışlar yaradır. Lakin Azərbaycanın üstünlüyü ondadır ki, Bakı bu dinamikanı balanslaşdırılmış siyasətlə həm Körfəz, həm də Qərb üçün etibarlı tərəfdaşlıq platformasına çevirə bilir.



***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Avrokomissiyanın sədrinin suçu nədədir?

*O, dördüncü dəfə hücuma məruz qalıb*

**Avropa İttifaqının ali idarəetmə strukturlarında siyasi təlatüm müşahidə olunur. Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen həyatının ən çətin dövrlərindən birini yaşayır. Oktyabrın əvvəlində Avropa Parlamentində Komissiyaya qarşı etimadsızlıq müraciətləri üzrə səsvermə keçiriləcək. Bu, qurumun siyasi mövqeyini sarsıda bilər. Avropa Parlamentinin sədri Roberta Metsola deputatları prosedur barədə rəsmi şəkildə məlumatlandırıb.**



Avroparlamentdə sağçı "Patriotlar Avropa uğrunda" fraksiyası ilə solçu qüvvələrin eyni mövqedən çıxış etməsi Ursula Fon der Lyayenə qarşı etirazın ideoloji sərhədləri aşdığını göstərir. Hər iki cinah onun apardığı iqlim siyasətini qeyri-effektiv və iqtisadi cəhətdən yanlış hesab edir, miqrasiya ilə bağlı yanaşmasını isə "qeyri-müəyyən və idarəolunmaz" adlandırır. Lyayen şəffaflıq prinsipinə əməl etməməkdə və hətta siyasi senzura ilə məşğul olmaqda da ittiham olunur. Bu isə artıq institusional etimad məsələsinə çevrilir. Avropa İttifaqı daxilində demokratiya və hesabatlılıq prinsiplərinin müzakirə mövzusuna çevrildiyi bir vaxtda ittihamlar Lyayenin imicinə ciddi zərbə vurur.

Artıq solçu qrup prosesə başlamaq üçün tələb olunan 72 imzanı toplaya bilib. İmzalar qrupa daxil olan 46 deputatın, əsasən, ispan və italyanlardan ibarət Yaşıllar/EFA fraksiyasının, eləcə də Almaniyanın radikal solçu "Sahra Vaqenknecht Alyansı" kimi bitərəf partiyaların nümayəndələrinin dəstəyi ilə əldə olunub. Etimadsızlıq müraciəti Komissarlar Kollegiyasının istefasını hədəfləyir və Avropa Komissiyasının ticarət strategiyası ilə bağlı narahatlıqları ifadə edir. Bundan başqa, solçu fraksiya sonuncu Aİ–ABŞ ticarət sazişini "zərərli, asimmetrik, qeyri-bərabər" və "demokratik mandat olmadan imzalanmış" sənəd kimi qiymətləndirir. Həmçinin Aİ–Mercosur sazişi də solçular tərəfindən kəskin tənqidə məruz qalır.

Bugünlərdə sol qrupun həmsədri Manon Obri "Euronews"a açıqlamasında bildirib ki, Avropa Komissiyasında layihələri güc yolu ilə keçirmək meyli var: "ABŞ-la imzalanan ticarət sazişi faktiki olaraq Aİ-ni Donald Trampın vassalına çevirəcək, Avropa kənd təsərrüfatını məhv edəcək". Etimadsızlıq müraciətində, həmçinin "Avropa üzrə iqlim və sosial böhrana qarşı Komissiyanın heç bir tədbir görməməsi" də kəskin şəkildə qınanılır. Bütün bu səbəblərə görə müraciətə imza atan deputatlar belə nəticəyə gəliblər ki, Ursula Fon der Lyayen və onun komissarları istefa verməlidirlər.

*(ardı 5-ci səhifədə*

# Şermanın "Menendez yolu"

## *Amerikalı konqresmen Bakı, Ankara və Vaşinqtonun özünə qarşı*

**Deyəsən, ABŞ ermənipərəstlərinə senator Robert Menendezin acınacaqlı aqibəti dərs olmayıb. Dərs çıxarmayanlardan biri də ölkənin Nümayəndələr Palatasının üzvü Bred Şermandır. O, Amerika Erməni Milli Komitəsinin (Armenian National Committee of America - ANCA) "direktivlərindən" ilhamlanaraq iki "təşəbbüslə" çıxış edib.**

Beləliklə, Şerman Nümayəndələr Palatasına Türkiyəyə və Azərbaycana qarşı yönələn düzəlişlər təqdim edib. Düzəlişlərdən ikincisi birbaşa ölkəmizlə bağlıdır. Hələlik, birincidən başlayaq və deyək ki, konqresmenin ilk sərsəmləməsinə görə, Türkiyə "Ermənistanın blokadasını aradan qaldırana", Azərbaycan isə "bütün erməni hərbi əsirləri azad edənə" qədər ABŞ-ın Beynəlxalq İnkişaf Maliyyə Korporasiyasının dəstəyindən məhrum edilməlidir. Şermanın ikinci qanunvericilik "təklifindən" isə yazımızın növbəti bölümündə söz açacağıq.

* * *

Əvvəla, onu deyək ki, konqresmenin "təşəbbüslərinə" dair məlumatı ANCA-nın yayması qurumun məsələdə əlinin olduğunun birbaşa sübutudur. Nəzərə alaq ki, Şerman sözügedən qurumun Kapitoli təpəsində keçirilmiş və Qarabağda "soyqırımına" həsr olunmuş "Hesabatlılıq 2025" adlı konfransında çıxış edərkən məsələyə təfsilatı ilə izahat verib: "Düzəlişim onu nəzərdə tutur ki, Ermənistan üzərində blokada davam etdiyi müddətdə Türkiyəyə bir qəpik də verilməsin və əsirlər azad olunmayana qədər Azərbaycana da bir qəpik ayrılmasın".



Ardını biz deyək: Azərbaycan və Türkiyə qəpiyə ehtiyac duymur, Şerman isə ANCA-nın tulapayının həsrətində olacaq qədər miskin və rəzildir. Axı indiyədək onun belə "payları" az olmayıb. Konqresmen qurumla sıx əməkdaşlıq edib. Yoxsa, ona niyə "Ədalətin müdafiəçisi" ("Advocate for Justice") mükafatını təqdim edilsin ki? Hər halda, mükafat boş kağız parçasından, yaxud plaket lövhədən ibarət deyildi. Arxasında maliyyə dəyəri dayanırdı və onun təqdimatı 2016-cı ildə baş vermişdi. 2021-ci ildə isə ANCA-nın İdarə Heyəti üzvlərinin Şermanla görüşündə İkinci Qarabağ müharibəsi, Ermənistana və Qarabağa (keçmiş separatçı rejimə - red.) humanitar yardım, eləcə də Azərbaycana qarşı 907-ci düzəlişlə əlaqədar məsələlər müzakirəyə çıxarılmışdı.

Yeri gəlmişkən, Şerman ABŞ Konqresindəki Erməni Komitəsinin üzvü kimi də Azərbaycana və Türkiyəyə qarşı yarıtmaz təşəbbüslərin fəal iştirakçısıdır. Görünür, elə buna görə də o, 2022-ci ildə Ermənistan dövləti tərəfindən ordenlə mükafatlandırılıb. Sən demə, konqresmenin Vaşinqton-İrəvan münasibətlərinin gücləndirilməsi istiqamətində xüsusi xidmətləri olubmuş. Habelə, Şermanın əvvəllər "Mxitar Qoş" medalı ilə də təltif edildiyi və bu medalın Ermənistan dövlətinin yüksək dəyərə malik mükafatı olduğu məlumdur. O da məlumdur ki, qoca konqresmen məhz ANCA-nın "prioritetləri" üzərində qanunvericilik təşəbbüslərini dəstəkləmək üzrə, bir növ, ixtisaslaşıb. Güman edirik, hər şey aydındır. Elə isə yazımızın haqqında anonsunu verdiyimiz növbəti bölümünə keçid alaq.

* * *

Deməli, Şermanın ikinci "qanunvericilik təşəbbüsü" ABŞ Dövlət Departamenti tərəfindən saksiyalaşdırılma ilə bağlı qanuna düzəlişdir. Bu təşəbbüs daha böyük məkrli məqsəd güdür və Birləşmiş Ştatlar Prezidentinin "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin qüvvəsini dayandırmaq hüququnun aradan qaldırılması mahiyyətini daşıyır. Şermanın dediyinə görə, hazırda ABŞ Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsi bu məsələnin və ANCA-nın dəstəyi ilə konqresmen Con Kerri tərəfindən təqdim olunmuş bir neçə digər düzəlişin müzakirəsini aparmaqdadır.

Qeyd edək ki, Prezident İlham Əliyev avqustun 8-də ABŞ-a işgüzar səfəri zamanı Vaşinqtonda ölkəmizin media vasitələrinə müsahibəsində Prezident Donald Tramp tərəfindən 907-ci düzəlişin qüvvəsinin dayandırılması ilə bağlı bunları demişdi: "Azərbaycanın önəmini, onun geosiyasi əhəmiyyətini, Azərbaycanın Amerika Birləşmiş Ştatlarına həmişə dost ölkə olmasını cənab Tramp çox yaxşı bilir. Əlbəttə ki, şəxsi təmaslar bizim münasibətlərimizdə önəmli rol oynayacaq. Təbii ki, 907-ci düzəlişin ləğv olunması, hesab edirəm ki, tarixi hadisədir. Artıq strateji əməkdaşlıq formatına başlamağımız da hesab edirəm ki, tarixi hadisədir".

Dövlətimizin başçısı müsahibəsində, həmçinin, "Azadlığa dəstək aktı"na 907-ci düzəlişdən imtinanın özünün iştirakı ilə Prezident Tramp tərəfindən oval ofisdə gerçəkləşməsinin çox rəmzi məna daşıdığını da vurğulamışdı. "Prezident Tramp bunu başqa formada da edə bilərdi. O, bunu daha sonra da imzalaya bilərdi. Amma bunu hələ 1992-ci ilin oktyabrından bəri Konqres tərəfindən haqsız olaraq sanksiyaya məruz qalan Azərbaycanın Prezidentinin qarşısında etmək qərarına gəldi. O zaman təbii ki, Konqres üzvlərinin Azərbaycandan, Cənubi Qafqazda baş verənlərdən xəbəri yox idi. Onlar erməni lobbi qruplarının təsiri altına düşüb və qurban Azərbaycanı işğalçı kimi təqdim edirdilər. Beləliklə, bu düzəliş bizi həmin o illərdə çox ehtiyac duyduğumuz birbaşa Amerika yardımından məhrum etmişdir. O vaxt Azərbaycan qaçqınların sayı çox, iqtisadiyyatı isə bərbad vəziyyətdə olan kasıb ölkə idi. Nəticədə, biz sanksiyalar altında olan yeganə keçmiş Sovet İttifaqı respublikası idik", - deyən cənab İlham Əliyevin Ağ Evdə ABŞ-nin dövlət başçısına "33 il davam edən sanksiyaların sonu Prezident Trampın sayəsində mümkün oldu" şəklində iltifatı da hər kəsin yaxşı xatirindədir. İkincinin ölkəmizin liderinə "Xalqınız böyük xalqdır" şəklində qarşılıq verməsi də həmçinin.

Sözümüz ondadır ki, Şerman kimi parabeyinlər erməni lobbisinin köməyi ilə nəinki anti-Azərbaycan və anti-Türkiyə mövqe tuturlar, eyni zamanda, ABŞ-Azərbaycan və Vaşinqton-Ankara münasibətlərinin hazırkı müsbət axarına da zərbə vurmaq niyyəti güdürlər. Belə bir niyyətin isə hazırda Ermənistana heç bir xeyri yoxdur. Əksinə, ANCA və digər erməni təşkilatlarının Şerman və başqa pul hərisi konqresmenləri "hərəkətə gətirmələri" Bakı-İrəvan sülh gündəliyinə, habelə Ankara-İrəvan normallaşması zərbədir.

Sonda onu da bildirək ki, şermanların qaldırdıqları "təşəbbüslərin" heç bir təsiri yoxdur. İndiki durumda isə heç yoxdur. Onlar, sadəcə, özlərinin lazım olduqlarını göstərməyə köklənibləր. Şübhəsiz, mənasız canfəşanlıqları ANCA-dan gələn "gəlirlərin" sabitliyini qorumaq naminədir. Fəaliyyətində Azərbaycana və Türkiyəyə qarşı mübarizənin ön planda dayandığı təşkilatlar isə şermanlara "çəkdikləri əziyyətin" lazım olmadığını başa salıb, maliyyə ödənişlərindən imtina edə bilməzlər. İmtina etsələr, gərək ofislərini bağlayıb, özlərini buraxsınlar. Hərçənd, gedişat ona doğrudur. Ya da ANCA və ona bənzər sərsəm məqsədli avantürist təşkilatlar acgöz şermanları tamahkar menendezslər kimi qızışdırıb həbsxanalarda çürütməkdə israrlıdırlar.

***Ə.CAHANGİROĞLU,***
***XQ***

**Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov yerli mediaya müsahibə verib. O, müsahibədə ölkənin diplomatik uğurları, Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması, Zəngəzur dəhlizinin açılması ilə bağlı məsələlərə toxunub. Söhbətin maraq doğurduğunu nəzərə alaraq, sabiq nazirin müsahibəsinin qısa icmalını oxucularımıza təqdim edirik.**

# Ermənistan Azərbaycana hərbi təcavüzü Qarabağ pərdəsi arxasında etmişdi

## *Sabiq baş diplomat çətinliklərin hələ də qaldığını söyləyir*



Tofiq Zülfüqarovun sözlərinə görə, bu il Azərbaycan Prezidenti İlham Əliyev həm Vaşinqtonda ABŞ Prezidenti ilə görüşlərdə iştirak edib, həm də Pekində və Şanxay Əməkdaşlıq Təşkilatının sammitində yeni "qüvvə mərkəzləri" ilə ölkəmizin əlaqələrini möhkəmləndirib. Bu, Azərbaycanın beynəlxalq səhnədə fəal mövqeyini və diplomatik fəaliyyətinin effektivliyini göstərir.

Sabiq nazir qeyd edib ki, artıq Ermənistan–Azərbaycan münasibətlərində əhəmiyyətli irəliləyişlər müşahidə olunur, Qarabağ münaqişəsi tarixə qovuşub: "Ermənistanın Azərbaycana qarşı təcavüzü uzun müddət "Qarabağ münaqişəsi" pərdəsi altında davam etdirilirdi. ATƏT-in Minsk qrupu və ona bağlı bütün institutlar, o cümlədən sülhməramlı əməliyyatların hazırlanması ilə məşğul olan Yüksək Səviyyəli Planlaşdırma Qrupu artıq fəaliyyətini dayandırıb və onların illərlə gördüyü işin nəticəsi faktiki olaraq sıfır olub. Minsk qrupunun ləğv edilməsi Azərbaycan və Ermənistanın rəsmi müraciəti əsasında münaqişəyə son qoyub. Lakin erməni–azərbaycanlı münasibətlərində tam sülh hələlik əldə olunmayıb. Çünki münaqişə çoxsəviyyəli olub və hər iki tərəf fərqli mövqelərini əsas motiv kimi irəli sürüb. Ermənistan uzun illər Qarabağ məsələsini ön plana çəksə də, indi reallığa qayıtmalı və sülh prosesini yalnız Ermənistan–Azərbaycan kontekstində müzakirə etməlidir. Bu istiqamətdə artıq şox mühüm irəliləyişlər var".

Zəngəzur dəhlizi (TRIPP) barədə danışan T.Zülfüqarov bunları bildirib: "Uzun müddət həll olunmamış Zəngəzur dəhlizi məsələsi artıq gündəmin əsas mövzusudur. Bu dəhliz Azərbaycanın iki hissəsi arasında təhlükəsiz və fasiləsiz əlaqənin təmin olunması üçün əsas komponentdir. Ölkənin əsas hissəsinin Naxçıvanla birləşməsini əngəlləyən qərarlar keçmişdə qəbul olunmuş, uzun müddət isə görməzlikdən gəlinmişdi. Hazırda bu məsələ dünya səviyyəsində – Ağ Evdə səsləndirilib və bu, Azərbaycan diplomatiyasının böyük uğuru hesab olunur".

Sərhədlərin delimitasiya və demarkasiyası üzrə prosesin də fəallaşdığına diqqəti çəkən sabiq nazirin sözlərinə görə, Nikol Paşinyan əmindir ki, Zəngəzur dəhlizinin açılması Azərbaycan vətəndaşlarının və yüklərinin maneəsiz və təhlükəsiz keçidi üçün yaradılacaq şəraitdən Ermənistan da faydalanacaq. "Qarşıda bizi post-münaqişə dövrü baxımından çətin bir il gözləyir. Vaşinqton görüşündən sonra Ermənistan bu kommunikasiya xəttinin işləməsi üçün müəyyən şərtləri yerinə yetirməlidir" – deyə Zülfüqarov vurğulayıb.

Eks-nazir müsahibəsində bildirilib ki, Azərbaycan bu prosesdə birbaşa iştirak etməsə də, nəticələr onun tərəfindən təsdiqlənməli və dəstəklənməlidir. Bu zaman Bakı yalnız öz prinsiplərinə uyğun variantlarla razılaşacaq: "Zəngəzur dəhlizi, yəni, "Tramp yolu" (TRIPP-red.) yalnız Azərbaycandan Naxçıvana gedən yol deyil. Gələcəkdə bu yol Orta Dəhlizin bir hissəsi ola bilər – həm Mərkəzi Asiyadan Avropaya, həm də Çindən Avropaya. Bu dəhliz, həmçinin Şimal–Cənub marşrutu üçün də faydalı olacaq".

Tofiq Zülfüqarov sonda onu da bildirib ki, Azərbaycan regionda əsas xarici siyasət xəttinə sadiq qalır: "Bu xətt ölkəyə imkan verir ki, beynəlxalq güc mərkəzlərinə həm bərabər yaxınlığı, həm də bərabər uzaqlığı təmin etsin. Azərbaycan özünü qarşıdurma içində olan tərəflər üçün etibarlı və rahat tərəfdaş kimi təqdim etməyə nail olub. Azərbaycan belə mürəkkəb geosiyasi vəziyyətlərdə, həm regional, həm də beynəlxalq gündəmin əsas məsələlərində uğurlu və balanslı mövqe nümayiş etdirir. Bu mövqe qarşıdurmaların getdiyi ərazilərdə də ölkəmizi etibarlı tərəfdaş kimi önə çıxarır".

***Hazırladı:***
***Musa BAĞIRLI***
***XQ***

**Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələrinə əsasən və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi sentyabrın 16-da davam etdirilib. R.Vardanyan məhkəməyə müraciət edərək bir neçə vəsatətinin olduğunu bildirib. Yazımız bu barədədir.**

# Saman çöpündən yapışan Ruben

## *Yaxud öz ayağından asılan keçinin "vəsatət dramı"*



Deməli, Vardanyan "ittiham edildiyi cinayət işi üzrə bəzi şəxslərin – Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın, ATƏT-in Minsk qrupunun üzvlərinin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı nümayəndələrinin dindirilməsini xahiş edib. Rubenin ikinci istəyi budur ki, hərbi qulluqçu olmadığından, təqsirləndirildiyi cinayət işinə hərbi məhkəmədə baxılmasın. Növbəti vəsatətində Vardanyan cinayət işi üzrə özü və müdafiəçisi tərəfindən əvvəlki məhkəmə proseslərində verilmiş vəsatətlərə dair qərarlarla tanış olmaq istədiklərini və həmin qərarlardan çıxarışların onlara təqdim olunmasını xahiş edib. Nəhayət, o, Azərbaycanın dövlət sərhədini qanunsuz keçməklə bağlı özünə qarşı irəli sürülmüş ittihamla razı olmadığını bildirib, "vaxtilə Qarabağda olmuş Rusiyanın sülhməramlı kontingentinin komandanı olmuş şəxslərin məhkəmədə dindirilməsini" istəyib.

Əlbəttə, Vardanyanın qaldırdığı bütün vəsatətlərə, belə demək mümkünsə, hüquq dilində cavab verildi və məqsədimiz heç də mövcud prizmada hansısa fikir bildirmək deyil. Məqsədimiz Rubenin etdiyinin vəsatət qaldırmaq yox, həyasızlıq olduğunu vurğulamaqdır. Təsəvvür edin, biri cinayət törədir, eyni əməli başqalarının da törətdiyini yadına salır, yaxud bunu düşünür və həmin başqalarının da cəzalandırılmasını istəyir, amma sırf özünə görə cavab verməli olduğunun fərqinə varmır. Yəni, Ruben daha bir populyar misaldakı kimi, hər keçinin öz ayağından asıldığını ağlına gətirmir. Halbuki, bunu nəzərə almalı və bilməlidir ki, özü yıxılanın ağlaması kənardan çox gülünc görünür. Əlbəttə, o, təkcə yıxılmayıb, eyni zamanda, obrazlı desək, başını-gözünü dağıdıb.

Vardanyanın məhkəmədən baş nazir Nikol Paşinyanın, ATƏT-in Minsk qrupunun üzvlərinin, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı nümayəndələrinin dindirilməsini nə üçün istəməsi anlaşılan deyil. Hər halda, N.Paşinyan onu Rusiyadan Ermənistana çağırmamışdı. O da məlumdur ki, Rubeni Qarabağa göndərənlər, böyük ölçüdə, ötən əsrin 90-cı illərindəki "ssenarinin" təkrarlanacağına ümid bəsləmişdilər. Söhbət Ermənistanda hakimiyyətə qəsb ssenarisindən gedir.

Belə ki, 1998-ci ildə Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanı istefaya məcbur edən məhz "Qarabağ klanı" olmuşdu. İkinci Qarabağ müharibəsinin nəticələri bu klanı demorilizə etdi. Ona yeni nəfəs lazım idi ki, bu "missiyanı" Vardanyan yerinə yetirməli idi. Yəni, Rubenin Qarabağda nüfuz qazanması və Ermənistanda hakimiyyətin zəifləməsindən yararlanaraq cəngavər obrazında İrəvana daxil olması, iqtidara yiyələnməsi hesablanmışdı. Lakin heç nə yolunda getmədi. Əvvəla, Azərbaycan qətiyyətli davrandı, nəticədə Vardanyan Qarabağ ermənilərinə yeni problemlər gətirən şəxsə çevrildi. İkincisi isə baş nazir Paşinyan hakimiyyəti möhkəm oldu, təzyiqlər qarşısında əyilmədi. Rubenin Nikolu açıq şəkildə təhqir etməsi isə özünə qaldı. Böyük ehtimalla, o zaman birinci ikincini Qarabağ adlı bataqlıqda qalmasına səbəb olduğu üçün lənətləyirdi. Çox güman, Rusiyadan bölgəyə göndəriləndə Vardanyana tamam başqa vədlər verilmişdi. Ermənistanda hakimiyyətə gəlmək vədi də həmçinin.

Deməli, kimlərinsə "Qarabağ klanı" üzərindən tarixi təkrarlamaq cəhdləri iflasa uğradı. Bütün iflaslar fonunda Ruben indi vaxtilə Rusiyadan, sanki, paraşütlə atıldığı torpağın həm beynəlxalq hüquqla, həm də mənəvi baxımdan Azərbaycana məxsusluğunu düşünmədən hərəkətlər etməsinin nəticəsi ilə üz-üzədir. Şübhəsiz, Vardanyan barəsində çıxarılacaq hökm ədalətli olacaq. Bunu demək üçün əsas onunla bağlı məhkəmə prosesinin qanunvericiliyə tam uyğunluğu və şəffaflığıdır.

Keçək Vardanyanın ATƏT-in Minsk qrupunun üzvlərinin dindirilməsinə dair vəsatətinə. Görəsən, adamın sözügedən təsisatın rəsmən ləğvindən xəbəri varmı? Hər halda, olmamış olmaz. Üstəlik, Vardanyan Qarabağda olanda da Minsk qrupu de-fakto heç bir fəaliyyət göstərmirdi. Amma bir anlıq təsəvvürə gətirək ki, qurumun həmsədrləri məhkəməyə çağrılıblar. Axı onların hansı fikirləri Rubeni təmizə çıxara bilər? Heç nəzəri baxımdan da bunu düşünmək mümkün deyil. Yoxsa, Vardanyan demək istəyir ki, Minsk qrupunun üzvlərini Azərbaycan ərazisinə qeyri-qanuni daxil olduqlarına görə mühakimə etmək lazımdır? Əgər bunu nəzərdə tutursa, adamı, müəyyən mənada, başa düşmək mümkündür.

Amma yenə də deyək ki, hər keçi öz ayağından asılmalıdır. Vaxtilə Ermənistanın Azərbaycana qarşı işğalına münaqişə libası geyindirənlər bu gün Minsk qrupunun ləğvini həyata keçirirlərsə, deməli, həm də ilahi ədalət öz yerini tutur. Vardanyan tam əmin olsun ki, o, eyni zamanda Qarabağda ədalətin zəfər çalmasına maneə yaratdığı, daha dəqiq desək, maneə yaratmaq istəyənlərin cəbhəsində yer aldığı üçün məhkəmə önündədir. Rubenin bilavasitə müttəhimlər kürsüsündə əyləşməsinin daha bir səbəbi isə Roma papasından daha artıq katolikliyə can atmasıdır. Adətən, belələrinə birdəfəlik istifadə materialı da deyilir.

Vardanyan Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı nümayəndələrinin məhkəmə dindirilməsini nəyə görə istəyir, bu da heç anlaşılmır. Görəsən, qurumun ölkəmizdəki təmsilçiləri gəlib deyəcəklər ki, Ruben yaxşı oğlandır? Vardanyanın hərbi qulluqçu olmadığından, təqsirləndirildiyi cinayət işinə hərbi məhkəmədə baxılmaması istəyinə gəlincə, bu da həyasızlığın növbəti fazasıdır. Bunu ədalət mühakiməsində təqdim olunmuş dəlil və sübutları nəzərə almadan deyirik. Onu da deyirik ki, Ruben irəli sürdüyü vəsatətlərlə tam manipulyativ yol tutur. Adamın cinayət işi üzrə özü və müdafiəçisi tərəfindən əvvəlki məhkəmə proseslərində verilmiş vəsatətlərə dair qərarlarla tanış olmaq istəməsi və həmin qərarlardan çıxarışların onlara təqdim olunmasını xahiş etməsi də aşkar manipulyasiyadır.

Aydındır ki, məhkəmə bütün məsələlərə həssas yanaşır, ən xırda prosedurlar yerinə yetirilir. Vardanyanın Azərbaycanın dövlət sərhədini qanunsuz keçməklə bağlı özünə qarşı irəli sürülmüş ittihamla razı olmadığını bildirib, Qarabağdakı Rusiyanın sülhməramlı kontingentinin komandanı olmuş şəxslərin məhkəmədə dindirilməsini istəməsinə dair vəsatətinə gəldikdə isə sual yaranır: Bu, Rubenin nəyinə lazımdır? Bəlkə o, demək istəyir ki, Azərbaycan ərazisinə keçərkən Rusiya sülhməramlılarından icazə alıb? Bəlkə Qarabağa silah-sursat daşınmasının onun yox, sülhməramlı kontingentin təşəbbüsü olduğunu vurğulamaq niyyətindədir?

Sonda bir daha deyək ki, R.Vardanyanın vəsatətlərinin mənasızlığı hüquq dilində sübuta yetirildi və bu barədə qeydlər cəmiyyətə açıqlandı. El arasında isə belə bir misal da var ki, cəhənnəmə gedən özü ilə yoldaş aparar. Vardanyan təxminən eyni durumdadır. Amma bir daha onu bildirək ki, Rubenlə əlaqədar məhkəmə prosesi ədalətli şəkildə keçirilir və barəsindəki qərarın ədalətli olacağı şübhəsizdir. Qərarın özündə nəyi ehtiva edəcəyini proznozlaşdırmaq niyyətindən uzağıq. İndilik görünən mənzərə, eyni zamanda, dəryada boğulan birinin saman çöpündən yapışmasına bənzəyir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Sülh, sabitlik, inkişaf

## *Paşinyanın son mesajları erməni cəmiyyətinə bunları vəd edir*

**Ermənistan Baş naziri Nikol Paşinyan son aylar etdiyi çıxışlarında sülh və əməkdaşlıq, bunun verəcəyi faydalar mövzusuna daha çox toxunur. Onun ritorikasında əvvəlki gərgin, qarşıdurmaya xidmət edən ifadələrin azalması müşahidə olunur. Paşinyan həm parlamentdə, həm də beynəlxalq tədbirlərdə dialoq və əməkdaşlıqdan danışaraq yeni siyasi xətt formalaşdırmaq istədiyini göstərir. Bu, xüsusilə regionda yaranmış yeni geosiyasi reallıqlar fonunda diqqət çəkir. 2025-ci il avqustun 8-də Vaşinqtonda iki ölkə arasında sülh sazişinin paraflanması və yekun sazişin imzalanmasının gündəmdə olduğu bir vaxtda belə çıxışlar təsadüfi sayıla bilməz. Paşinyanın yumşaq bəyanatları həm ictimai rəyi hazırlamaq, həm də beynəlxalq dairələrin etimadını qazanmaq məqsədi güdür. Bununla belə, cəmiyyətin müxtəlif təbəqələrində bu mövqeyə münasibət fərqli olaraq qalır. Bir tərəfdən sülh istəyi təqdir olunur, digər tərəfdən isə bu xəttin nə qədər davamlı olacağı barədə suallar açıq qalır.**

Paşinyan Azərbaycanla sülhün daha da institusionallaşdırılması istiqamətində işləməyə sadiqliyini sentyabrın 17-də bir daha təsdiqləyib. Bu barədə Nikol "X" sosial şəbəkəsindəki səhifəsində ABŞ Prezidenti Donald Trampın Vaşinqtonda keçirilən üçtərəfli görüşlə bağlı paylaşımını şərh edərkən bildirib. "Azərbaycanla bu



tarixi sazişin bağlanmasında vasitəçiliyinə görə Donald Trampa bir daha təşəkkürümü bildirirəm. Əvvəllər heç kim buna nail olmamışdı. Sülhün daha da institusionallaşdırılması və TRIPP-in (Zəngəzur dəhlizinin Ermənistan ərazisindən keçən 42 kilometrlik hissəsi–S.H) həyata keçirilməsi işinə sadiq qaldığımı təsdiqləyirəm", – deyə N.Paşinyan yazıb.

Qeyd edək ki, Azərbaycanla sülh prosesi ətrafında müzakirələr uzun müddətdir Ermənistanda cəmiyyətin, siyasi dairələrin və müxtəlif təsir qruplarının diqqət mərkəzindədir. Son illərdə, xüsusilə 2020-ci ildəki İkinci Qarabağ müharibəsindən və 2023-cü ilin birgünlük antiterror əməliyyatından sonra regionda yaranmış yeni reallıqlar fonunda bu müzakirələr daha kəskin xarakter alıb. N.Paşinyan hökuməti açıq şəkildə bildirir ki, Ermənistan yalnız sülh və normal qonşuluq münasibətləri vasitəsilə dövlətçiliyini qoruyub inkişaf etdirə bilər. O, dəfələrlə çıxışlarında regionda nəqliyyat kommunikasiyalarının açılması, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi və Ermənistanın izolyasiyadan çıxmasının vacibliyini vurğulayıb. Bu, sülh tərəfdarlarının əsas arqumentlərindən biridir.

Lakin ölkədə bu yanaşmaya qarşı çıxan ciddi qüvvələr də mövcuddur. Ənənəvi revanşist düşərgə, xüsusilə Erməni İnqilabi Federasiyası – "Daşnaksütyun" başda olmaqla müxalifət partiyaları, Serj Sarkisyan və Robert Koçaryanın tərəfdarları, həmçinin Erməni Apostol Kilsəsinə yaxın dairələr Paşinyanın xəttini ölkənin milli maraqlarına zidd hesab edirlər. Onlar iddia edirlər ki, sülh sazişinin imzalanması Ermənistanı daha zəif, daha kövrək vəziyyətə salacaq və Azərbaycan qarşısında birtərəfli güzəştlərə gətirib çıxaracaq. Həmin qüvvələr ictimaiyyət arasında qorxu, etimadsızlıq və müqavimət ovqatını gücləndirməyə çalışırlar.

Digər tərəfdən, Ermənistan cəmiyyətində sülhün əhəmiyyətini anlayan və dəstəkləyən kəsim də az deyil. Bu qrup əsasən gənc nəslin nümayəndələrindən, müasir fikirli biznes dairələrindən və inteqrasiya tərəfdarı yaşlı insanlardan ibarətdir. Onlar hesab edirlər ki, uzunmüddətli münaqişə ölkəni tükəndirib, iqtisadi inkişaf imkanlarını məhdudlaşdırıb və kütləvi miqrasiyaya səbəb olub. Ona görə də Azərbaycanla münasibətlərin normallaşdırılması Ermənistana yeni imkanlar aça, investisiya mühitini yaxşılaşdıra, regiondakı nəqliyyat və enerji layihələrində iştirakına şərait yarada bilər.

Ermənistanın xarici tərəfdaşlarının mövqeyi də daxildə balans yaranmasında mühüm rol oynayır. Avropa İttifaqı və ABŞ açıq şəkildə sülh sazişinin imzalanmasını dəstəkləyir və bu prosesi Cənubi Qafqazda sabitliyin açarı hesab edirlər. Rusiya isə əksinə, prosesin onun maraqları çərçivəsində getməsini istəyir. İrəvanın Qərbə yönələn siyasəti Moskva ilə münasibətlərdə gərginlik yaradıb. Bu qarşıdurma Ermənistan daxilində də müxtəlif təmayüllərin güclənməsinə səbəb olur.

Bu prosesdə xaricdəki erməni diasporunun mövqeyi də diqqəti cəlb edir. Xüsusilə ABŞ, Fransa, Rusiya və Yaxın Şərqdə yaşayan ermənilər ölkənin həm iqtisadi, həm də ideoloji dayaqlarından biri kimi çıxış ediblər. Azərbaycanla sülh prosesinə münasibətdə isə diaspor daxilində vahid mövqe yoxdur. Əksinə, bu məsələ ətrafında ciddi parçalanma və fikir ayrılığı müşahidə olunur. Ənənəvi olaraq diasporun aparıcı təşkilatları, xüsusilə də ABŞ və Fransadakı erməni lobbisi Ermənistan rəhbərliyinin sülh addımlarını tənqid edir. Onlar iddia edirlər ki, Azərbaycanla saziş bağlamaq "tarixi torpaqlardan imtina" və "erməni kimliyinə zərbə" deməkdir. Bu təşkilatlar həm ictimai rəyin formalaşmasına, həm də Qərb parlamentlərində anti-Azərbaycan qətnamələrinin qəbuluna çalışırlar. Beləliklə, diasporun bu qanadı Paşinyanın xəttini zəifləşməyə yönəlmiş təzyiq aləti kimi çıxış edir. Lakin eyni zamanda, daha praqmatik düşünən diaspor nümayəndələri də var. Onlar hesab edirlər ki, Ermənistanın davamlı müharibə vəziyyətində qalması nə dövlətə, nə də diasporun özünə fayda gətirir. Əksinə, sülh imkanı Ermənistanı iqtisadi cəhətdən gücləndirə və ölkə ilə diaspor arasında yeni əməkdaşlıq layihələrinin başlanmasına şərait yarada bilər. Bu qrup daha çox gənc nəsli, eləcə də biznes dairələrini əhatə edir. Diasporun parçalanmış mövqeyi Ermənistanın daxili siyasətinə də birbaşa təsir edir. Sülh tərəfdarı hökumət beynəlxalq aləmdə dəstək axtararkən, mühafizəkar diaspor təşkilatları köhnə şüarlarla çıxış edir. Bu isə həm İrəvanın manevr imkanlarını daraldır, həm də diasporun öz nüfuzuna mənfi təsir göstərir. Beləliklə, xaricdəki erməni diasporu Ermənistan üçün həm resurs, həm də problem mənbəyidir. Onun bir hissəsi sülh yolunu strateji zərurət kimi qəbul etsə də, digərləri hələ də revanşist ritorikadan əl çəkmir. Bu yanaşma gələcəkdə Ermənistanın sülh sazişi ətrafında atacağı addımlara birbaşa təsir göstərəcək.

Bütün bunlara baxmayaraq, ekspertlər hesab edirlər ki, sülhün Ermənistana gətirəcəyi faydalar inkarolunmazdır. İlk növbədə, dövlət sərhədlərinin tanınması və sabitlik xarici investorların ölkəyə marağını artıra bilər. İkinci mühüm məqam isə Ermənistanın regional layihələrə qoşulmaqla uzun illərdir itirdiyi iqtisadi dividendləri qazanmaq imkanıdır. Bundan əlavə, qonşu ölkələrlə normal münasibətlərin qurulması erməni gənclərinin ölkədən kütləvi şəkildə köçməsinin qarşısını qismən ala bilər. Bu isə dövlətin gələcəyi üçün həyati əhəmiyyət kəsb edən amildir.

* * *

Belə mürəkkəb geosiyasi konfiqurasiya fonunda Ermənistan Baş nazirinin "X"dəki sonuncu paylaşımı onun Azərbaycanla sülh prosesinə münasibətdə ardıcıllığını bir daha nümayiş etdirdi. Paşinyanın Prezident Donald Trampın vasitəçiliyinə təşəkkür etməsi, əslində, Ermənistan diplomatiyasının Qərbə yönələn xəttini möhkəmləndirmək niyyətindən xəbər verir. O, sülhün institusionallaşdırılması anlayışını qabartmaqla imzalanmış sazişin yalnız kağız üzərində qalmayacağını, dövlət strukturlarının və hüquqi mexanizmlərin dəstəyi ilə uzunmüddətli formata çevriləcəyini vurğulayır. Bu, həm beynəlxalq tərəfdaşlara, həm də Ermənistan cəmiyyətinə ünvanlanan siyasi mesajdır.

Paşinyanın TRIPP (Zəngəzur dəhlizi) layihəsini xüsusi qeyd etməsi də diqqətəlayiqdir. Çünki dəhlizin Ermənistan ərazisindən keçən hissəsinin reallaşdırılması təkcə regional nəqliyyat məsələsi deyil, həm də ölkənin iqtisadi inteqrasiyasına açılan qapıdır. İllərlə izolyasiya şəraitində yaşayan Ermənistan üçün bu dəhliz real inkişaf şansı yaradır. Hökumət rəhbəri bununla göstərməyə çalışır ki, sülh yalnız siyasi sabitlik deyil, həm də konkret iqtisadi dividendlər deməkdir. Bununla belə əminliklə qeyd etmək olar ki, Paşinyanın açıqlaması daxildə birmənalı qarşılanmayacaq. Müxalif dairələr, xüsusilə revanşist qüvvələr Zəngəzur mövzusunu "milli təhlükəsizlik" məsələsi kimi təqdim edərək etirazlarını göstərirlər. Lakin Paşinyan öz paylaşımında keçmiş davakar ritorikaya qayıtmaq niyyətində olmadığını açıq göstərir. Onun Trampa təşəkkürü həm də Qərbin dəstəyinə arxalanaraq daxili təzyiqlərə qarşı dayanıqlılıq nümayiş etdirmək cəhdi kimi qiymətləndirilə bilər. Nəticə etibarilə Paşinyanın bəyanatı onun sülh prosesində yeni mərhələyə hazır olduğunu göstərir. Nikol daha təkcə diplomatik sənəd imzalamaqdan deyil, bu sənədi hüquqi-siyasi sistemin bir parçasına çevirməkdən danışır. Bu isə bölgədə sabitliyin davamlı olması üçün vacib addımdır. Ermənistan üçün seçim aydındır: ya institusional sülh, ya da qeyri-müəyyənlik və böhran. Paşinyan açıq şəkildə birincini seçdiyini bəyan edir.

**Səxavət HƏMİD**
**XQ**

*Replika*

**O, əlindən gəldiyi qədər Azərbaycana pislik eləməyə çalışdı. Və bu zaman nəinki toxunulmaz və bitərəf diplomat missiyasını, dinini, məsləkini güdaza verməkdən qətiyyən çəkinmədi. Sanki, onun vəzifəsi ölkəsinin Ermənistandakı elçisi kimi fəaliyyət göstərmək deyil, bütün vasitələrdən yararlanaraq İran və Azərbaycan arasında münasibətlərə xələl gətirmək, hər vəchlə iki qonşu ölkə və xalq arasında yaxınlaşma meyillərinin qarşısını almaq idi. Bu barədə qəzetimiz dəfələrlə yazıb. Amma bu, sonuncu olacaq. Çünki İran İslam Respublikasının Ermənistandakı səfiri Mehdi Sobhani diplomatik missiyasını başa vurub Tehrana qayıdır.**



# Sobhani İrana Zəngəzur dəhlizindən keçib getməli idi

## *Yaxud erməni ordenli "fövqəladə səlahiyyətli"yə vida sözü əvəzi*

Həm də yaxasında ordenlə qayıdır. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Sobhani ilə vida görüşündə səfirin şərəfinə bu sözləri deyib: "Ağır dövrə baxmayaraq, iki ölkə nəinki çətinliklərin öhdəsindən gələ bilib, həm də münasibətlərdə nəzərəçarpacaq nəticələrə nail olub". Ardınca Mirzoyan "dost Ermənistan–İran əlaqələrinin möhkəmləndirilməsinə mühüm şəxsi töhfəsinə görə" Ermənistan prezidentinin fərmanı ilə təltif olunduğu "Dostluq" ordenini Sobhaninin yaxasından asıb.

Əslində, Ermənistan baş diplomatının hərəkətlərində və sözlərində bizim üçün təəccüblü və qınaq doğuran heç nə yoxdur. Amma... Bir Mehdi Sobhaninin Azərbaycanla bağlı açıqlamalarında, müsahibələrində "Zorla heç nə həll olunmaz. Zəngəzur dəhlizi olmayacaq!"; "Beynəlxalq səviyyədə tanınmış sərhədlərin dəyişdirilməsinə heç vaxt imkan verməyəcəyik"; "Biz istənilən geosiyasi dəyişikliyin və beynəlxalq səviyyədə tanınmış sərhədlərin dəyişməsinin qəti əleyhinəyik!"; "Biz Zəngəzur dəhlizi sözünü işlətmək istəmirik!"; "Biz dəhliz məntiqi olan hər şeyin əleyhinəyik. "Əgər bu, Ermənistan Respublikasının ərazi bütövlüyü və suverenliyi əsasında baş verərsə, kommunikasiyaların açılmasına razıyıq" kimi təxribatçı bəyanatlarını unutmamışıq. Onun başına və diplomatik ranqına uyuşmayan bu qəbildən olan siyasi avantüraları, yəqin, rəsmi Tehranda da birmənalı qarşılanmadığına görə İrəvandakı səlahiyyət müddətinə vaxtından əvvəl xitam verildi. Əlbəttə, bu, bizim ehtimalımızdır. Axı, diplomatik nümayəndə üçün xarici ölkədə 2 il 2 aylıq səfir fəaliyyəti elə də böyük müddət deyil. Səfirlərin rotasiya qaydasında 3, 4 ildən bir, bəzən daha gec dəyişdirilməsi beynəlxalq münasibətlərdə, bir növ, protokol qaydası hesab olunur. Ehtimalımızı bu qaydanı nəzərə alaraq irəli sürdük.

Bu fakt oxucularımız üçün də maraqlı olar. Mehdi Sobhani Ermənistana səfir təyin olunmazdan əvvəl Suriyada diplomatik nümayəndə kimi fəaliyyət göstərib. Yəni, onun vətəndaş müharibəsi gedən bu ərəb ölkəsindəki "fəaliyyətini" nəzərə alsaq, aydın olar ki, Sobhani Cənubi Qafqaza xüsusi bir missiya ilə – Ermənistanla Azərbaycan arasında sülhün qarşısını almaqdan ötrü əlindən gələni etmək üçün göndərilib. Bu da diqqəti çəkən məqamdır ki, Sobhani İrəvanda diplomatik fəaliyyətə 2023-cü ilin iyul ayında, Azərbaycanla İran arasında münasibətlərin böhran dövründə, Tehrandakı səfirliyimizə qarşı qanlı terror aktı törədildən 6 ay sonra başlayıb. Sobhani İrəvanda səfir kimi ilk iş günündə Azərbaycana qarşı qərəzli açıqlamalar ərz etməklə özünü haylara sevdirməyi bacarıb. Onun açıqlamalarının leytmotivi Zəngəzur dəhlizi, İrəvanda gördüyü adamlar isə müxtəlif düşərgələrdən olan erməni siyasətçiləri və Qarabağ separatçılarının təmsilçiləri idi.

Bədnam səfir ermənilərin, guya, Azərbaycanın Qarabağ bölgəsindən zorla köçürülməsi, hətta "xalqın öz müqəddəratını təyinetmə hüququ" ilə bağlı təxribat xarakterli açıqlamaları ilə də tez-tez "gündəmə gəlirdi". Və "səfirin" ən böyük qələti: o, İsrailin İrana endirdiyi hava zərbələrindən sonra kəşfiyyat məlumatlarından Azərbaycan ərazisindən İrana hücum üçün istifadə edildiyi ehtimalını irəli sürmüşdü. Fəqət bir neçə gün sonra Tehranda Azərbaycanın İsrailin hərəkətlərində iştirakına dair heç bir sübutun olmadığını deməyə məcbur edildi.

Bunu əminliklə yaza bilərik ki, Mehdi Sobhaninin İrəvan missiyasının sonu çox rəmzidir. Bəli, Ermənistanda səfir kimi yanaqlarını şişirdib Azərbaycana qarşı çirkab püskürən bir fiqurun həmin postda saxlanılması münasibətlərin istiləşdiyi indiki məqamda Tehran üçün də arzuolunmazdır. Üstəlik, Bakı ilə İrəvan arasında Vaşinqtonda əldə olunan tarixi razılaşmalar Cənubi Qafqazda sülhə düşmən münasibət üçün heç də əlverişli atmosfer yaratmayıb.

Rəsmi Tehran bir qədər səbirli davranmış olsaydı, Ermənistandakı manfur səfiri çamadanını qoltuğuna vurub, İrəvandan İrana Zəngəzur dəhlizindən keçməklə qayıdacaqdı. Məhz bu sonluq Mehdi Sobhaninin saxta diplomat missiyasının məntiqi nöqtəsi sayıla bilərdi...

**İ.HƏSƏNQALA**
**XQ**

# Avrokomissiyanın sədrinin suçu nədədir?

*(əvvəli 3-cü səhifədə)*

Yeri gəlmişkən, iyul ayında Rumıniyalı sağçı, Avropa Parlamentinin deputatı Georg Piperea da Fon der Lyayenə qarşı etimadsızlıq təşəbbüsü irəli sürmüşdü. O, iddia edirdi ki, Komissiya rəhbəri "Pfizer" (Almaniya şirkəti) ilə peyvənd müqaviləsini qeyri-rəsmi kanallar vasitəsilə bağlamaqla hüququn aliliyinə əsaslanan şəffaflıq prinsiplərini pozub. Rumıniyalı siyasətçi Türkiyənin "Anadolu" agentliyinə müsahibəsində belə demişdi: "Dəyəri təxminən 35 milyard avro olan bir düzəlişi yalnız SMS yazışmaları ilə müzakirə etmək tamamilə qeyri-adi haldır". Qeyd edək ki, Avropaya skeptik mövqeyi ilə tanınan Piperea "Rumıniya Birliyi Alyansı" (AUR) partiyasının lideri Corc Simionun tərəfdaşı idi. Üç il öncəyə nəzər yetirsək görərik ki, 2022-ci ildə "New York Times"ın jurnalisti Matina Stevis-Gridneff Lyayen ilə "Pfizer"-in baş direktoru arasındakı "Covid-19" peyvəndi ilə bağlı mətn mesajlarını açıqlamağı tələb etmişdi. Komissiya bu tələbi rədd etsə də, Aİ-nin ali məhkəməsi may ayında bu qərara qarşı çıxaraq, 2021-ci ildəki mesajların açıqlanmasını istəyib. Lakin Komissiya bildirilib ki, "Covid-19" ilə bağlı heç bir yazışma tapılmayıb, çünki mətn mesajları "qısa müddətlikdir". Məhkəmə və bir sıra ekspertlər bu cavabı məntiqsiz hesab etdi və sənədlərin niyə tapılmadığının izahını istədilər. Fransız akademik Emmanuel Dupuy (Lill Katolik Universiteti) bildirir ki, Fon der Lyayen "heç kimin özündən üstün olmadığını" düşünərək hərəkət edir və bunun nəticəsində "cəsarətli qərarlar" verir, bunlara "Pfizer" ilə peyvənd danışıqları da daxildir.

Məlumat üçün qeyd edək ki, indiyə qədər Aİ tarixində etimadsızlıq səsverməsi cəmi üç dəfə tətbiq olunub. Parlamentin qaydalarına əsasən, təqdim olunan hər etimadsızlıq müraciəti əvvəlcə hüquqi xidmətlər tərəfindən yoxlanılmalıdır. Müvafiq departamentin imzaları təsdiqləməsindən sonra parlamentin sədri Roberta Metsola dərhal deputatları məlumatlandırmalı və istefa tələbi üzrə plenar müzakirə elan edildikdən ən azı 24 saat sonra keçirilməlidir. Avropa Komissiyasının istefasına səbəb ola biləcək səsvermə isə həmin müzakirədən ən azı 48 saat sonra baş tutmalıdır. Çünki etimadsızlıq müraciətlərindən biri ifrat sağçı "Patriotlar Avropa uğrunda" qrupunun təqdim etdiyi müraciətdən bir neçə saat sonra irəli sürülüb. Buna görə də ehtimal olunur ki, parlament hər iki müraciəti oktyabrın əvvəlində müzakirəyə çıxaracaq və səsvermə keçirəcək. Bu, palatanın tarixində ilk dəfədir ki, komissiyanı devirmək üçün iki təşəbbüs eyni həftə ərzində nəzərdən keçiriləcək.

Bütün baş verənlərin fonunda mümkün bir ehtimalı gözdən qaçırmaq düzgün olmaz. Ursula Fon der Lyayenin Almaniyanın Lüneburq şəhərində anadan olması və karyerasını öz ölkəsində qurmasını nəzərə alsaq, ona qarşı təzyiqlərin artması təəccüblü görünməməlidir. Alman mənşəli Lyayen Fransa siyasətində bəzən "yad" kimi qəbul edilir. Bu, xüsusilə millətçilik və milli kimlik məsələlərinin ön plana çıxdığı məqamlarda daha çox hiss olunur. İndi ola bilsin ki, radikal sağçı qüvvələr Lyayenin etnik mənşəyini ona qarşı arqument kimi istifadə edərək Avrokomissiyada xaos mühiti yaratmağa çalışırlar.

**Ekspert rəyi**



**Züriyyə QARAYEVA, politoloq**

Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayenə qarşı etimadsızlıq səsverməsinin gündəmə gətirilməsi Brüsseldə siyasi balansların dəyişməsindən xəbər verir. Lyayenin alman əsilli olması və onun fəaliyyətində Almaniyanın prioritetlərinin əks olunması müəyyən hallarda Fransa siyasi elitasında narazılıq yaradıb. Xüsusilə Avropa İttifaqında fransızların təsir imkanlarının artması, "makronizm" adlandırılan siyasi yanaşmanın dominantlıq etməsi fonunda Lyayenin mövqeyi getdikcə zəifləyir. Bu vəziyyət, əslində, Aİ daxilində Almaniya ilə Fransa arasında tarixi rəqabətin yeni mini-forması kimi də qiymətləndirilə bilər. Əgər etimadsızlıq səsverməsi reallaşarsa, bu, təkcə Lyayenin karyerasına təsir etməklə bitməyəcək, həm də Avropa Komissiyası daxilində fransız təsirinin daha da güclənməsi ilə nəticələnə bilər. Digər tərəfdən, hazırkı mərhələdə münasibətlərdə yumşalma müşahidə olunsa da, proses institusional maraqların və milli nüfuz savaşlarının diktə etdiyi gedişatla üz-üzədir. Beləliklə, Ursula Fon der Lyayen ətrafında yaranmış vəziyyət Aİ daxilində Almaniya–Fransa güc balansının növbəti sınağı kimi çıxış edir.

**Nəzrin ELDARQIZI**
**XQ**

# Cənubi Qafqazın regional identikliyi və inteqrasiyası

**I MƏQALƏ**

## Cənubi Qafqaz və müasir geosiyasi reallıqlar

Cənubi Qafqazın region kimi geosiyasi aspektdə təhlilinə analitiklər və ekspertlər çox müraciət edirlər. Bu, iki cəhətdən səbəbsiz deyildir. Birincisi, Azərbaycanın II Qarabağ müharibəsində əldə etdiyi Zəfər bütövlükdə regionda geosiyasi dinamikanı və ümumi mənzərəni dəyişmişdir. İkincisi, hazırda bu regionla bağlı geosiyasi proseslər böyük geosiyasi güclər səviyyəsində intensiv olaraq baş verir.

Məsələyə Cənubi Qafqaz dövlətlərinin yeritdiyi siyasət prizmasında yanaşmaq vurğulanan kontekstdə son dərəcə əhəmiyyətlidir. Çünki regionun aparıcı dövləti olan Azərbaycanın proseslərə təsiri çox ciddidir və rəsmi Bakının iştirakı olmadan burada hər hansı təsirli dəyişiklik etmək mümkün deyildir. Ancaq söhbət probleme ciddi yanaşmadan gedirsə, məsələnin nəzəri tərəfinin araşdırılması son dərəcə aktualdır.

Analitik və ekspert yanaşmasından fərqli olaraq əsrlərdir ki, ziddiyyətlər burulğanına salınmış və Avrasiya üçün böyük əhəmiyyət daşıyan bir regionun davamlı (qalıcı) olaraq necə konstruktiv (faydalı, səmərəli, təhlükəsiz, sabit) geosiyasi dəyişiklik müstəvisinə keçə biləcəyinin nəzəri və geosiyasi şərtlərinin nəzəri aydınlaşdırılması zəruridir.

Biz bu nəzəri problemin təhlilinə "Xalq" qəzetində dərc edilmiş və əməkdaşlıq platformasında "Əliyev üçbucağı" adlanan mövzuya həsr edilmiş məqalələr silsiləsində yer almış yanaşma prizmasında baxacağıq. Çünki Prezident İlham Əliyevin üçtərəfli əməkdaşlıq platforması çox ciddi şəkildə regional inteqrasiyaya və identikliyə təsir edir. Hətta deyə bilərik ki, Azərbaycan Prezidentinin təşəbbüs etdiyi və həyata keçirdiyi əməkdaşlıq platformasına alternativ yoxdur. Bəs həmin əməkdaşlıq, inteqrasiya və identiklik modelinin özəllikləri nədən ibarətdir? Onlar Cənubi Qafqazın davamlı konstruktiv və təhlükəsiz geosiyasi "sahədə mövcudluğunu" nə dərəcədə təmin edə bilərlər? Öncə, bir sıra geosiyasi terminlərə nəzər salaq.

## Müasir geosiyasətdə "region" anlayışı

Geosiyasi təlimlərdə "köhnə regionalizm" və "yeni regionalizm" anlayışlarından istifadə olunur. "Köhnə regionalizm"də beynəlxalq münasibətlər sisteminin subyekti kimi ancaq dövlətlər hesab olunurdu. Buna uyğun olaraq konkret regionda differensiasiya və inteqrasiya prosesləri təhlil edilirdi.

"Yeni regionalizm" inteqrasiya fenomeni kimi dünya düzəninin çoxqütblülüyünü ifadə edir. Çox müxtəlif sferalarda inteqrasiyanı, iqtisadi qarşılıqlı asılılığı əks etdirir ki, son nəticədə regional identikliyə gətirib çıxara bilər. Deməli, "yeni regionalizm" özündə regional identikliyə nail olmaq potensialını daşıyır. Tədqiqatçılar regional identikliyi inteqrasiyanın ən yüksək səviyyəsi kimi xarakterizə edirlər. Və həmin kontekstdə Avropa İttifaqını (Aİ) nümunə kimi göstərirlər. Lakin Aİ ilə bağlı son illər baş verən bir sıra hadisələr Avropada regional identikliyin ziddiyyətlərini ortaya qoymaqdadır. Məsələnin bu tərəfi üzərində dayanmaq Cənubi Qafqazda regional identikliyin ən yüksək inteqrasiya nümunəsi kimi mahiyyətini dərk etməyə imkan verəcək.

## Avropa identikliyinin ziddiyyətləri

Avropada regional identiklik prosesi XVII əsrdən başlamışdır, lakin hələ də başa çatmamışdır. XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində avropalıların identikliyi yüksək səviyyəyə qalxmışdı. Ancaq meydana çıxan maliyyə və miqrasiya böhranları bir çox aspektlərdə Aİ üzvlərinin həlalik ortaq dəyərlərə malik olmadığını göstərdi. Maliyyə böhranında aydın oldu ki, bir sıra inkişaf etmiş Avropa dövləti iqtisadiyyatda proteksionist mövqe tutur və digərlərinə yardım etmək fikrində deyildir. İtaliyanın qarşılaşdığı böhranda bu, özünü göstərdi. Bununla yanaşı, avropalılar miqrantlara münasibətlərdə tutduqları mövqeləri ilə fərqli dəyərlərə üstünlük verdiklərini də nümayiş etdirdilər.

Bunlardan başqa, bir sıra Avropa dövləti digər Avropa dövlətlərinə qarşı inteqrasiya olunmaq mövqeyindən deyil, əksinə uzaqlaşmaq mövqeyindən çıxış etdiyini göstərdi. Buna görədir ki, Brexit meydana gəldi və bu prosesin davam etməsi gözlənilir. Son aylar avropalılar ortaq müdafiə mövqeyi seçməkdə çətinlik çəkirlər. Onlar "Ağ Kitab"ı qəbul etsələr də, ona praktikada əməl etməkdə ortaq mövqeyə gələ bilməmişlər. Son debatlarda hətta bir-birini ittiham edirlər.

Belə alınır ki, XXI əsrin üçüncü onilliyində Aİ-ni regional inteqrasiya nümunəsi kimi göstərmək doğru deyildir. Dünyanın müxtəlif regionlarında identiklik məsələsinin fərqli reallaşması bir zərurətə çevrilmişdir. Bu prizmada Azərbaycanın liderliyi ilə Cənubi Qafqazda regional identikliyə nail olunması olduqca maraqlı və aktual məsələ təsiri bağışlayır.

Bu məqamda Cənubi Qafqazın region kimi geosiyasi xarakteristikası və ya ümumi obrazı aydınlaşdırılmalıdır.

## Cənubi Qafqazın "Hettne obrazı"

Burada "Hettne obrazı" məcazdır və "yeni regionalizm"in banilərindən biri olan isveçli alim B.Hettnenin regionlarla bağlı kriteriyalarına işarədir. Həmin kriteriyalar prizmasında Cənubi Qafqaz hansı növ regiona aiddir? B.Hettneyə görə, regionallıq regionun birləşmə səviyyəsini və regional quruculuq dərəcəsini müəyyən edir. Bu baxımdan regionallığın beş mərhələsini ayırmaq olar.

1. Regional məkan
2. Regional kompleks
3. Regional icma
4. Regional birlik
5. Regional dövlət

Bu bölgüyə uyğun regional təşkilatlanmanın üç mərhələsi ayrılır.

1. "Regionallığa qədərki" mərhələ
2. Regional inteqrasiyanın regional qarşılıqlı əlaqələr mərhələsi
3. Regional təşkilatlanmanın final mərhələsi




Birinci mərhələdə region regional kooperasiyanın xüsusi alətlərinə malik deyildir, yəni inteqrasiyanın necə baş verməsinin praktiki üsulları aydın olmur. İkinci mərhələdə region dövlətləri arasında bazar və cəmiyyətlərin tələbatlarına uyğun mədəni, iqtisadi, siyasi və hərbi əməkdaşlıq prosesləri üstünlük təşkil edir. Nəhayət, üçüncü mərhələdə region özünün regional identikliyinə, legitimliyinə və dəqiq müəyyən edilmiş qərarlar qəbuletmə mexanizminə sahibdir. Həmin keyfiyyətdə region beynəlxalq münasibətlərin aktiv iştirakçısıdır.

Cənubi Qafqazı vurğulanan mərhələlərdən hansına aid etmək olar? Bunun üçün regiona II Qarabağ müharibəsinə qədərki və ondan sonrakı mərhələlər prizmasında baxmaq lazımdır.

## 1993-cü ilin ikinci yarısına qədər Cənubi Qafqaz

B.Hettne kriteriyalarına görə, XVII əsrin ikinci yarısından XXI əsrin 20-ci illərinə qədər Cənubi Qafqaz "regionallığa qədər" mərhələdə olmuşdur. Doğrudur, burada Rusiya imperiyası və sonra SSRİ sabitlik və ölkələrarası əlaqələr yaratmışlar. Lakin bu proses təbii, bərabərhüquqlu və regionun maraqlarına əsaslanmamışdır. Buna görə də tam olaraq Cənubi Qafqazı Hettne mənasında region hesab etmək çox çətindir (xatırladaq ki, B.Hettne, digər İsveç alimi F.Soderbaumla birgə "yeni regionalizm" təliminin yaradıcısıdır).

Digər tərəfdən, göstərilən müddətdə Cənubi Qafqazda daim ixtilaflar, hərbi toqquşmalar, qonşu dövlətin ərazisinə, mədəniyyətinə, coğrafiyasına, demoqrafik yapısına təcavüzlər baş vermişdir. Çünki bu region daxili deyil, xarici ölkənin nəzarəti altında qalmışdır və o da özünə uyğun düzən qurmağa çalışmışdır. Bu prosesə etiraz dalğası XX əsrin ikinci onilliyində geniş vüsət alsa da, region İmperiyadan qurtulub sovetlərin təsiri altına düşərək "asılı region" olmuş və ya "regionallığa qədərki" mərhələni keçə bilməmişdir.

Sovetlərdə də Cənubi Qafqazın gerçək mənada "region" olmadığını sübut edən faktlar Qərbi Azərbaycana geosiyasi faktor və qərbi azərbaycanlılara demoqrafik gerçəklik kimi olan münasibətdə özünü göstərir. Belə ki, 1918-1920-ci illər, 1922-1936-cı illər, 1948-1953-cü illər, 1989-1992-ci illərdə azərbaycanlıların aborigen olduqları ərazilərdən zülmlə deportasiya edilmələri Cənubi Qafqazın 70 il davam edən sovet dönəmində təhlükəsizlik və əməkdaşlıq məkanı olmadığını göstərir.

Bu zaman nə beynəlxalq təşkilatlar (öncə Millətlər Liqası, sonra isə BMT-nin sənədlərində bir dəfə də olsun "Qərbi Azərbaycan" ifadəsinə rast gəlinmir). Hətta "Ermənistandan qovulan azərbaycanlılar" ifadəsi yoxdur. Sovetlərin qəbul etdikləri uyğun sənədlərdə də nə "Qərbi Azərbaycan" geosiyasi, coğrafi, demoqrafik vahid kimi göstərilir, nə də qərbi azərbaycanlıların deportasiyası məsələsi əksini tapır. BMT-nin məlum 4 qətnaməsində də terminoloji aydınlıq və birmənalı təqdimat yoxdur.

Bu o deməkdir ki, 1918-1991-ci illərə qədər beynəlxalq aləm və SSRİ Cənubi Qafqazın tarixi, real, gerçəkçi geosiyasi və siyasi-coğrafi kimliyini etiraf etməmişlər. Belə olan halda hansı mənada B.Hettne kriteriyalarını Cənubi Qafqaza aid etmək olar? Mümkün deyildir. Ona görə də 1993-cü ilə qədərki müddətdə Cənubi Qafqaz real "regionalizmə qədər" mərhələdə olmuşdur.

## 1993-cü ildən sonra: ikinci mərhələyə keçid cəhdləri

Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlişi ilə Cənubi Qafqazda regionalizmin bir neçə əlaməti formalaşmağa başladı. Onun üç əlaməti vardır.

Birincisi, Azərbaycanın "Əsrin müqaviləsi"ni imzalamaqla və yeni enerji siyasəti yeritməklə son yüzillərdə ilk dəfə regionun hər bir dövləti üçün faydalı ola bilən əməkdaşlıq platforması yaratmasından ibarətdir. Ancaq bu təşəbbüsün qarşısını Ermənistanın təcavüzkar siyasəti alırdı və onu tam reallaşmağa qoymurdu. Buna baxmayaraq, müasir mərhələdə ilk dəfə olaraq Azərbaycan Gürcüstanı strateji tərəfdaş statusunda regional əməkdaşlıq prosesinə daxil edə bildi.

İkincisi, Azərbaycan-Gürcüstan münasibətləri son 300 ildə ilk dəfə olaraq tam regional kontekstə qarşılıqlı faydalı əməkdaşlıq müstəvisinə keçdi. Təcrübə göstərdi ki, bu nümunə bütövlükdə regionda regionalizmin baza modeli ola bilər.

Üçüncüsü, Azərbaycan "Qafqaz Evi" ideyasını Cənubi Qafqaz kontekstində daha da aktuallaşdırmaq üçün addımlar atdı. Bu ideyanın bütövlükdə regiona yeni münasibətlər sistemi gətirəcəyinə rəsmi Bakı əmin idi.

Lakin 2020-ci ilin payızının 44 günü göstərdi ki, Ermənistanın real olaraq regionalizm modelinə üstünlük verməsi üçün bir neçə məcburiyyət zəruri imiş. Azərbaycan ordusu Ermənistan ordusunu darmadağın edərək ərazi bütövlüyünü tam bərpa etdikdən sonra regionalizmin üçüncü mərhələsi haqda real düşünmək imkanı yarandı.

Bununla aydın olur ki, 1993-cü ildən 2020-ci ilə qədər əsasən Azərbaycanın təşəbbüsü ilə müəyyən mədəni, iqtisadi, siyasi və hərbi əməkdaşlığa cəhdlər olmuş, ancaq erməni təcavüzkarlığı onların qarşısını almışdır. Bu da həmin müddətdə regionalizmin ikinci mərhələsinin tam baş tutmadığını və buna görə də əlavə ciddi prosesə ehtiyacın olduğunu deyə bilərik.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***



# Qonşuluq örnəyi, əməkdaşlıq timsalı

## *Azərbaycan–Gürcüstan münasibətləri ortaq maraqları uğurla gerçəkləşdirir*

**Azərbaycan və Gürcüstan arasında münasibətlər uzun illərdir ki, dostluq, qarşılıqlı hörmət və strateji tərəfdaşlıq prinsipləri əsasında inkişaf edir. Bu əlaqələr təkcə iki ölkə arasında deyil, həmçinin Cənubi Qafqaz regionunda sabitliyin təmin olunması, regional, enerji təhlükəsizliyi və beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması kimi mühüm sahələrdə də vacib rol oynayır. Bu baxımdan Azərbaycan–Gürcüstan münasibətləri regionun iqtisadi, siyasi və strateji mənzərəsini formalaşdırmaqda həlledici əhəmiyyətə malikdir. Eyni zamanda, iki ölkə arasında siyasi dialoq və koordinasiya daha da dərinləşərək strateji müttəfiqliyə çevrilib.**

Bu barədə Gürcüstan Xarici işlər naziri Maka Boçorişvili ölkənin "Birinci Kanal"ına müsahibəsində deyib. Qeyd edib ki, qonşu ölkələrlə münasibətlərin möhkəmləndirilməsi Gürcüstanın xarici siyasətində əsas prioritetlərdəndir. Nazir Azərbaycanın Gürcüstan üçün strateji tərəfdaş olduğunu xüsusi vurğulayaraq, iki ölkə arasında əməkdaşlığın ticarətdən energetikaya, nəqliyyatdan mədəniyyətə qədər geniş spektrdə inkişaf etdiyini bildirib. Onun sözlərinə görə, bu münasibətlər qarşılıqlı etimad, sənmimi qonşuluq və faydalı əməkdaşlıq prinsiplərinə əsaslanır. Bu münasibətlər uzunmüddətli regional əməkdaşlıq üçün möhkəm zəmin yaradır.

Nazir bildirib ki, Azərbaycan və Gürcüstan arasında həyata keçirilən böyük regional layihələr – Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz xətti və Bakı–Tbilisi–Qars dəmir yolu kimi mühüm infrastrukturlar – iki ölkə arasında strateji əməkdaşlığın bariz nümunələridir. (Yeri gəlmişkən, bu gün Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsinin 23 ili tamam olur – red.). Bu layihələr regionun enerji xəritəsini dəyişərək, Cənubi Qafqazı dünya enerji təchizatında əsas tranzit habına çevirib, bölgədə iqtisadi inteqrasiyanın və qarşılıqlı asılılığın güclənməsinə səbəb olub, eləcə də təhlükəsizliyə və inkişafın davamlılığına təkan verib.

Hazırda Azərbaycan Gürcüstanın xarici investorları arasında öncül mövqedədir və iki ölkə arasında ticarət dövriyyəsi ildən-ilə artır. Bu, regional əməkdaşlığın genişlənməsinin, həmçinin iqtisadi əlaqələrin daha da möhkəmlənməsinin göstəricisidir. Nazir M.Boçorişvili müsahibəsində onu da qeyd edib ki, 2020-ci ildə baş vermiş 44 günlük müharibə və onun yaratdığı yeni geosiyasi reallıqlara baxmayaraq, Azərbaycan və Gürcüstan strateji əməkdaşlığı qoruyub saxlayır, beynəlxalq platformalarda bir-birini dəstəkləməkdə davam edirlər. Bu, iki ölkə arasında qarşılıqlı inamın və dəstək səviyyəsinin yüksək olduğunu göstərir.

Maka Boçorişvili regionda dialoq və sülhün təşviqinə Gürcüstanın verdiyi töhfələrdən də danışıb. O, bu əsnada Tbilisidə Azərbaycan, Ermənistan və Gürcüstan xarici işlər nazirlərinin üçtərəfli görüşlərini xüsusi olaraq vurğulayıb. Həmin görüşlər regionda dialoqun və sülh prosesinin gücləndirilməsi baxımından mühüm addımdır kimi gələcəkdə Cənubi Qafqazda davamlı sülhün bərqərar olmasına xidmət edir.

Nazir bildirib ki, Gürcüstan Ermənistan və Azərbaycan arasında istənilən səviyyədə dialoqun aparılması üçün vasitəçilik etməyə hər zaman hazırdır və bundan sonra da bu missiyanı davam etdirəcək. Onun fikrincə, Gürcüstan ənənəvi olaraq həm Azərbaycan, həm də Ermənistanla yaxşı və dostluq münasibətlərinə malikdir və bu münasibətlər sülh və əməkdaşlıq üçün əlverişli zəmin yaradır: "Biz hamımız istəyirik ki, Cənubi Qafqaz sülh içində yaşasın. Bölgəmizin böyük potensialı var və bu potensialdan tam istifadə etmək istəyirik. Bunun üçün bölgədə davamlı sülh və sabitlik təmin olunmalıdır. Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması böyük uğur olacaq və bölgəyə fayda gətirəcək".

Bəli, bu gün Azərbaycanın və Gürcüstanın strateji tərəfdaşlığı, regional əməkdaşlıq və dialoq təşəbbüsləri bölgənin inkişafı və sabitliyi üçün böyük əhəmiyyət kəsb edir. İki ölkə bu istiqamətdə əməkdaşlığı uğurla davam etdirir. Onu da qeyd edək ki, iki ölkə arasında iqtisadi əlaqələr 2025-ci ilin ilk yeddi ayında əhəmiyyətli dərəcədə artıb. Bu dövrdə ticarət dövriyyəsi 464,8 milyon ABŞ dollarına çatıb ki, bu da əvvəlki illə müqayisədə 28,4 faiz artım deməkdir. Bu göstərici ilə Gürcüstan Azərbaycanın ən çox ticarət tərəfdaşı olduğu ölkələr sırasında 10-cu yerdə qərarlaşıb.

Azərbaycanın Gürcüstandakı iqtisadi iştirakçılığı yalnız ticarətlə məhdudlaşmır. Ölkəmiz Gürcüstanda enerji, nəqliyyat, bankçılıq və tikinti sahələrinə böyük həcmdə sərmayələr yatırır. Azərbaycan şirkətləri Gürcüstanda fəaliyyət göstərməklə yerli iqtisadiyyatın inkişafına, məşğulluğun artmasına və infrastruktur layihələrinin həyata keçirilməsinə töhfə verirlər.

2025-ci ilin birinci rübündə Gürcüstandan Azərbaycana qoyulan birbaşa xarici investisiyaların həcmi 10,167 milyon ABŞ dolları təşkil edib. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 984 min dollar və ya 10,7 faiz artım deməkdir. Eyni dövrdə Azərbaycandan Gürcüstan iqtisadiyyatına qoyulan sərmayə 30,424 milyon dollar olub. Bu göstərici 2024-cü ilin eyni dövrü ilə müqayisədə 5 dəfə çoxdur və 24,356 milyon dollarlıq artımı əks etdirir. Bu rəqəmlər Azərbaycanın Gürcüstan iqtisadiyyatına birbaşa xarici investisiyalar baxımından xüsusi önəm verdiyini göstərir. Azərbaycanın ümumi birbaşa xarici investisiyalarında Gürcüstana düşən pay 9,7 faiz təşkil edib və ölkə bu göstəriciyə görə Azərbaycanın ən çox sərmayə yatırdığı ikinci ölkədir. Ən çox sərmayə yatıran qurum Azərbaycan Dövlət Neft Şirkətidir (SOCAR). SOCAR bu ölkədə yanacaqdoldurma məntəqələri şəbəkəsini qurmaqla yanaşı, qazpaylayıcı sistemlərə və enerji infrastrukturuna sərmayə yatırıb. Bu layihələr Gürcüstanın enerji təminatında mühüm rol oynayır.

M.Boçorişvili "Birinci Kanal"a müsahibəsində humanitar və mədəni sahədə əməkdaşlığa da toxunub. Bildirib ki, bu sahədə əməkdaşlıq iki ölkə arasında dostluq münasibətlərini daha da möhkəmləndirir. Xüsusilə Gürcüstanda yaşayan 250 mindən çox azərbaycanlı icması iki ölkə arasında körpü rolunu oynayır. Soydaşlarımızın yaşadığı bölgələrdə Azərbaycan dilində məktəblər, mədəniyyət evləri, muzeylər və dini icmalar fəaliyyət göstərir. Həmçinin iki ölkənin universitetləri arasında tələbə və müəllim mübadiləsi proqramları qarşılıqlı anlaşmanı artırır. Eyni münasibət Azərbaycanda yaşayan gürcü icmasına göstərilir. Onların hüquqları həm təhsil, həm də digər sahələrdə qorunur. Beləliklə, Gürcüstanda yaşayan azərbaycanlı icması və Azərbaycanda yaşayan gürcü icması dostluğun real təzahürüdür. Hər iki ölkə multikulturalizm prinsiplərinə sadiq qalaraq etnik azlıqlara hörmətlə yanaşır və onların hüquqlarını təmin edir.

Bir sözlə, Azərbaycan və Gürcüstan arasındakı münasibətlər qarşılıqlı etimad və ortaq maraqlara əsaslanan, regional sabitliyin və inkişafın təminatçısı olan strateji tərəfdaşlıqdır. Maka Boçorişvilinin vurğuladığı kimi, bu əməkdaşlıq təkcə iki ölkənin deyil, bütün Cənubi Qafqaz regionunun sülh və rifahına mühüm töhfə verir. İki ölkənin birgə səyləri nəticəsində regionda davamlı dialoq və əməkdaşlıq mühiti yaradılaraq, qarşılıqlı maraqlara xidmət edən birgə layihələr həyata keçirilir. Bu da Azərbaycan–Gürcüstan münasibətlərinin gələcəkdə daha da inkişaf edəcəyinə və bölgədə sülhün bərqərar olmasına zəmin yaradır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

*Qüdrət Piriyev – 75*

**Xeyli müddət idi ki, “Xalq qəzeti”ndə və “Respublika”da çətin proses yaşanırdı. Hər iki mətbu orqan birləşməli, kollektivlərin əməkdaşları yarıbayarı ixtisar olunmalı, yeni ştatların, şöbələrin əməkdaşları müəyyənləşdirilməli, digər təbliğati-təşkilati struktur işləri həyata keçirilməli idi. İstəsək də, istəməsək də, bu proseslər heç də asan başa gəlməyəcəkdi. Məlum idi ki, heç də hamını razı salmaq mümkün olmayacaqdı...**

# Portret

*(oçerk)*



Günlərin birində mətbu nəşrimizdə 1988-ci ildən işləyən, həyatını, yaradıcılığını kollektivə bağlayan, 1-ci müavinliyədək yüksələn mötəbər qələm sahibi Qüdrət Əliövsət oğlu Piriyev ədəb-ərkanına uyğun qapımı döydü, icazə alıb üzbəüz əyləşdi. Dedi ki, vaxtdır, mən də proseslərdən xəbərdaram. 75 yaşım tamam olacaq... Onun çöhrəsində səmimiyyət görünürdü. Bir daha “getməyin vaxtı çatıb” sözlərini təkrar edərək qucaqlaşıb ayrıldı.

Sözün doğrusu, Qüdrət müəllimin gördüyü işin məsuliyyəti və həcmi o qədər böyük idi ki, onunla üzülüşmək redaksiyanın rəhbəri kimi, şəxsən mənim ürəyimcə deyildi. Onun bir qəzetçi kimi zəngin təcrübəsinə, səriştəsinə, ən çətin məqamlarda peşəkarlığına, ağsaqqal sözünə ehtiyacımız vardı. Onun getməsini heç istəmirdik.

Əslində, jurnalistin əsas peşə keyfiyyətlərindən biri özünəməxsus yazı üslubuna yiyələnməsidir. Bunun üçünsə o, ayrı-ayrı ustadların yaradıcılığını diqqətlə izləməli, onlardan bəhrələnməli, klassik jurnalistika məktəbinə dərindən bələd olmalıdır. Bu mənada Qüdrət Piriyevin bəxti gətirmişdi. O, Azərbaycan Dövlət Universitetində təhsil aldığı (1973–1978-ci illər) klassik və çağdaş jurnalistikanın nəzəri problemlərinə dərindən yiyələnməklə yanaşı, həmin dövrdə Azərbaycan və rus dillərində nəşr olunan qəzetləri hər gün mütaliə etmişdir. Ali məktəbi bitirdikdən sonra işlədiyi redaksiyalarda Nəsir İmanquliyev, Tofiq Rüstəmov, Cəmil Əlibəyov, Şamil Şahməmmədov, Əşrəf Hacıyev, Rəfail Nağıyev və Şakir Yaqubov kimi ustad qələm sahiblərindən çox şeyi əxz etmiş, sözə zərgər dəqiqliyi ilə yanaşmağı öyrənmişdir.

Qüdrət Piriyev elə ünvanlarda çalışıb ki, məsuliyyəti olmayan şəxs uzun müddət oralarda davam gətirə bilməzdi. Yəqin ki, vaxtilə onun özünün də incidiyi, narazı qaldığı kəslər olub. Hər halda, düz əyrini kəsib. Hər üç orqanda tutduğu müxbir, baş müxbir, şöbə müdiri, redaksiya müdiri və nəhayət, 1-ci müavin vəzifələrində məsuliyyət onun daimi yol yoldaşı olub. Mövzu seçimində həssaslığı gözləmək, silsilə oçerklər, reportajlar, səfər təəssüratları...

Qələmə aldığı mövzularda ədalətli olmaq, haqqı nahaqqın ayağına verməmək imanlı insan kimi tanınan Qüdrətin daim gözlədiyi prinsiplərdəndir. Qüdrət Piriyev müasir jurnalistikamızın ən ağrılı yeri olan redaktəni respublikamızda yüksək səviyyədə aparmağı bacaran nadir jurnalistlərdəndir. Ən qəliz materiallar belə onun redaktəsindən sonra yeni məzmun alır, oxunaqlı olur.

Medianın milliliyə, doğruluğa, halallığa bağlı cinahında fəaliyyət göstərib püxtələşdiyindən müstəqil Azərbaycanın yeni azad jurnalistikasına qoşulmaq Qüdrət müəllim üçün çox da çətin olmadı. Jurnalistikada ilk addımlarını atdığı vaxtlarda belə yazılarında sistemin tərifindən çox neqativ halların aşkarlanmasına səy göstərirdi. Şübhəsiz, sovet rejiminin qılıncının dalı da – qabağı da kəsdiyi ötən əsrin 70-80-ci illərində bunu açıq şəkildə etmək asan deyildi. Bunun üçün jurnalistdən mövzunu seçmək və onu oxucuya təqdim etmək istedadı və bacarığı tələb olunurdu. Qüdrət də bundan məharətlə istifadə edir, gənclərimizi sovet rejiminin hər cür tələblərinə qarşı ayıq-sayıq olmağa çağırırdı. Fikrimin təsdiqi kimi konkret fakta müraciət edək.

1978-ci ilin sonlarında Qüdrət “Azərbaycan gəncləri” qəzetində əmək müqaviləsi ilə işləyirdi. Ştatda olmadığına görə, təbii ki, maaş almır, qonorarla kifayətlənirdi. O vaxtlar SSRİ-nin bir neçə yerində Ümumittifaq komsomolçu-gənclər tikintiləri gedirdi. Onlardan da biri Smolensk vilayətinin Desnaqorsk şəhərində tikilən nəhəng atom-elektrik stansiyası idi. Ölkənin müxtəlif yerlərindən, o cümlədən respublikamızdan da orada komsomol göndərişi ilə çox sayda gənc işləyirdi.

Qüdrət Smolenskə getmək və oradan material hazırlamaq üçün redaktordan, çətinliklə olsa da, razılıq alır. Əslində, redaksiyanın məqsədi bəlli idi: Ümumittifaq zərbəçi komsomol tikintisindən, xüsusən həmyerlilərimizin oradakı fəaliyyətindən gənclər qəzeti üçün materiallar yazmaq. Qüdrət bir-birindən oxunaqlı silsilə materiallar (5 məqalə) hazırlayır. Müəllif bu materiallarda həmyerlilərimizin fəaliyyəti ilə yanaşı, bəzi vacib məqamlara da toxunur. O, azərbaycanlı gənclərin rus qızlar ilə kütləvi surətdə izdivaca şirnikləndirilməsinə və bunun xalqımız üçün gələcəkdə arzuolunmaz demoqrafik vəziyyət yaradacağına məqalədə eyham vurur.

Problem aktual və düşündürücü olduğuna görə yazılar ciddi rezonans doğurur. Bu məqalələrə xüsusi rəng qatan, onların təsirini qat-qat artıran başqa nüans da vardı. Qüdrət Smolenskdən qayıdarkən, yolüstü vilayətin Qjatsk (Qaqarin) şəhərində dayanır. Orada dünyanın ilk kosmonavtı Yuri Qaqarinin anası Anna Timofeyevnanın evinə gedib, kosmonavtın yaxınları – anası, bacısı və qardaşı ilə görüşür. O vaxtlar Azərbaycan oxucusu üçün unikal olan bir yazı meydana gəlir – “Kosmonavtlar anası”. “Smolensk görüşləri” rubrikası ilə verilən yazılar məhz həmin məqalə ilə açılır.

Burada onu da vurğulamaya bilmərəm ki, qəzetin həftəlik fəaliyyətinə yekun vuran “letuçka”da redaktor Şamil Fərzəliyev bildirir ki, bu silsilə materiallar barədə xeyli oxucu zəngi olub. Mənim üçün demək xoşdur ki, Azərbaycan KP MK-nın ideoloji işlər üzrə katibi şəxsən zəng eləyib təbrik etdi. Bunu da əlavə etdi ki, onun təbrikini müəllifə də çatdırım.

Redaktor “Belə bir ezamiyyətə nəyə görə biz – təcrübəli işçilər yox, ali məktəbi dünən bitirmiş cavan oğlan getməlidir?” deyənlərə üzünü tutub kəskin şəkildə əlavə edir: “Hər birinizin 10-15 illik stajı var. İndiyədək saysız-hesabsız yazılarınız olub. Hansı biri haqqında Azərbaycan KP MK-dan yox, hətta komsomol MK-sından katib demirəm, adi sıravi bir işçi zəng eləyibsə, deyin. Vakansiya olmadığına görə, Qüdrət ştatdankənar müxbirdir. Mövzunu özü təklif eləyib və qonorarı hesabına gedib-gəlib. Tapşırıq verirəm: “Hər yazısına ikiqat artıq qonorar yazılsın! Həm də Yuri Qaqarinin anası ilə görüşmək, heç planda yox idi. Yaxşı ki, görüşüb...”

Zahirən sakit, təmkinli görünən bu insanın daxilində tükənməz enerji var. Səksəninci illərin ortalarında Qüdrət Piriyevin adı Azərbaycanın say-seçmə yazarları arasında çəkilirdi. Təsadüfi deyil ki, respublikanın baş qəzeti “Kommunist” 1988-ci ilin aprel ayında onu işə dəvət edir. Bu qəzetdə dərc edilən yazılarında onun qaldırdığı problemlər aktuallığına və mahiyyətinə görə ciddi reaksiya doğururdu.

Qüdrətin Azərbaycanda milli azadlıq hərəkatı ilə bağlı həmkarı Elman Qədirovla birgə 1988-ci ilin payızında meydan hadisələrindən hazırladığı gündəlik reportajları, Xəzər ətrafına – Azərbaycanın, Rusiyanın, Qazaxıstanın və Türkmənistanın sahil şəhərlərinə səfərdən ərsəyə gələn “Xəzər ekoloji böhranın məngənəsində” rubrikası altında dərc etdirdiyi sanballı elmi-publisistik məqalələri, Milli Məclisin iclaslarından müntəzəm şəkildə verdiyi obyektiv və cəsarətli yazıları... geniş oxucu marağına səbəb olurdu.

Məsaim Abdullayev xatirələrində yazır ki, 1989-cu ildə Bakı Ali Partiya Məktəbindəki kurslarda mühazirə zamanı “Kommunist” qəzetinin redaktoru, görkəmli yazıçı Cəmil Əlibəyov redaksiya kollektivi barədə danışanda tələbə yoldaşım Qüdrət Piriyevin xidmətlərini vurğulayarkən qəlbim fəxarət hissi ilə doldu. Cəmil müəllim dedi ki, rəhbərlik etdiyi qəzetdə Qüdrət Piriyev kimi parlaq istedad sahibinin işləməsindən qürur duyur.

Qüdrət Piriyevin səfər təəssüratları, reportajları maraqlı alınır. Onun şirin təhkiyəsi, maraqlı epizodları seçib qabartması, oxucunu dramatik situasiyalarla üzləşdirmək məharəti bu silsilədən olan yazıları cəlbedici edir. Onun 26 il bundan əvvəl Həcc ziyarətindən sonra “Tanrı dərgahına açılan qapı”, 3 il bundan əvvəl Türkiyə səfəri ilə bağlı qələmə aldığı “Qəlbim Egeydə qaldı” rubrikaları altında verdiyi silsilə məqalələri, İran, İraq... səfərlərindən qələmə aldığı yazılar bu gün də aktuallığı ilə seçilir.

Oçerk janrı Q.Piriyevin yaradıcılığında daha qabarıq nəzərə çarpır. Oçerk yaza bilənlərin hər biri həm oxucu auditoriyasında, həm də jurnalist camiəsində həmişə hörmətlə qarşılanıb.

Bu yerdə Qüdrətin tələbə yoldaşı Məsaim Abdullayevin “Oçerkist” sərlövhəli məqaləsindən bəzi fikirləri yada salmağa ehtiyac duyulur: “Jurnalistikanın “şah janrı” sayılan, bəzi tənqidçilərin “sənədli hekayə” adlandırdıqları oçerk janrında kamil nümunələr ortaya qoymaq hər kəsə nəsib olmur... Qüdrət Piriyevin bu qabiliyyətini zərrə qədər də şişirtmirəm... Tam məsuliyyətlə demək olar ki, o, bu sahədə “as”lardan biridir. Heç vaxt bir-birinə bənzəməyən bu publisistika nümunələri təhkiyəsinin ifadəliliyi, obrazların psixoloji dərinliyi, dilinin oxunaqlılığı və digər üstün cəhətləri ilə fərqlənib”.

Bir halda ki, söhbət Qüdrətin tələbə yoldaşlarından düşdü, onlardan daha iki nümunəni diqqətə çatdıraq. Filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli Qüdrət Piriyevin 60 yaşında “Jurnalistika onun ürək döyüntüləridir” sərlövhəli məqaləsində yazmışdır: “Hacı Qüdrət bütün varlığı ilə jurnalistikaya bağlı qələm sahibidir, həyatını könüldən sevib-seçdiyi bu peşədən ayrı təsəvvür etmir. Jurnalistika onun həyat tərzi, düşüncəsi, ürək döyüntüləridir... Qüdrətin zahiri sakitliyinin arxasında bir üsyankar ruh dayanır. Bu üsyan, hər şeydən əvvəl, diletantlığa, peşə prinsiplərinin pozulmasına, kiminsə haqqının tapdalanmasına, ədalətsizliyə qarşıdır. Onun fikrincə, jurnalistika mənəviyyatdan başlayır və peşə ləyaqəti olmadan bu sahədə uzun yol getmək mümkün deyildir. Təbii ki, çoxları belə düşünür, amma heç də hamı Qüdrət Piriyev kimi bu kredoya sadiq qala bilmir. Məhz bu keyfiyyətlərinə görə dostları, iş yoldaşları da Hacı Qüdrəti sözü ilə əməli bir olan adam kimi tanıyırlar. Əslində, jurnalistikada belə adamlar gündüz çıraqla axtarılasıdır”.

Aqil Dadaşov və Bəyalı Rzayev isə diqqəti tələbə yoldaşlarının xarakterinin başqa tərəflərinə yönəldirlər: “Dostları həmişə Qüdrəti Haqqın tərəfini saxlayan, insana sevgi, böyüyə hörmət, kiçiyə şəfqət hissi bəsləyən iman sahibi kimi tanımışlar. Bu iman, fikrimizcə, ona elə doğulduğu gündən Ulu Tanrı tərəfindən bağışlanıb. Allaha can-dildən bağlılıq Qüdrətə yol açdı ki, Həcc, Kərbəla və Məşhəd ziyarətlərində olsun. Allah bəyəndiyi bəndələri gözü-könlü tox yaradır, dünya malına hərislikdən qoruyur, – deyirlər. İstəmir ki, sevimli bəndələri nəfsinin, tamahının qurbanına çevrilsinlər...” (“Allah adamı”, “525-ci qəzet”, 2 noyabr 2010-cu il).

Hələ AZƏRTAC-da işləyərkən onu işini sevən, çox məsuliyyətli jurnalist kimi tanıyırdım. Qüdrət müəllimin “Azərbaycan gəncləri”ndə, “Bakı-Baku”da topladığı zəngin təcrübə ona “Xalq qəzeti”ndə peşəkar jurnalistikanın bütün dəyərlərini öyrətmişdi. Bilirdim ki, niyə bu qədər tələbkar, sərt təbiətli olduğuna əmin olmaq üçün gərək keçdiyi yola bələd olasan. Onda suala açıq-aydın cavab almaq olar. Qüdrət müəllim yoldaşlıqda səhvləri asanlıqla bağışlayan, amma iş prosesində keçəcəyi olmayan şəxslərdəndir. Gərək nəzərdən qaçırmayasan ki, hələ xətir istəmək kobud səhvlərin bağışlanması demək deyil. Bəlkə, buna görədir ki, indiyədək xarakterindəki sərtliyi heç də hamı asanlıqla həzm edə bilməyib. Bəziləri də indiyədək incikliyi əsassız olaraq yadında saxlayır.

Mətbuat Şurasında 20 ilə yaxın bir yerdə işlədiyimiz Rəhim Hüseynzadə Qüdrət müəllimin xarakterindəki bu cizgiləri görən kimi Salyan rayonunda çıxan “Qələbə” qəzetinin keçmiş baş redaktoru, Əməkdar jurnalist Mahmud Ağalarovu xatırladı: “Ömrünün sonunadək rayon qəzetinin baş redaktoru olmuşdu. Axşam qonaqlıqda oturardıq, səhəri nöqtəyə, vergülə görə bizi o ki var danlayar, cəzalandırardı”.

Qüdrət Piriyevin xidmətləri dövlət tərəfindən də lazımınca qiymətləndirilib. 2005-ci ildə Azərbaycan mətbuatının 130 illik yubileyi qeyd olunanda özünün də xəbəri olmadan “Əməkdar mədəniyyət işçisi” fəxri adına layiq görülüb. Bu il isə 3-cü dərəcəli “Əmək” ordeni ilə təltif olunub.

* * *

İxtisardan bir müddət əvvəl Qüdrət müəllimlə aramızda bir söhbət olmuşdu. Demişdim ki, eşitmişəm 75-dən sonra pensiyaya getməyə hazırlaşırsınız. Mənə söz verin ki, getməyəcəksiniz. Nə qədər ki, mən burada baş redaktoram siz də öz işinizdə qalıb işləyəcəksiniz... Söz verdi.

... Bu yaxınlarda redaksiyaya gəlmişdi. Hal-əhvaldan sonra öz gileyimi dilə gətirdim: Heç 75-i də gözləmədiniz.

– Belə alındı, – dedi. – Elə bilirsiniz 38 il işlədiyim bir kollektivdən ayrılmaq mənim üçün asan idi? Məcbur oldum. Mən getməsəydim, 30 nəfəri ixtisar etmək sizin üçün asan olmayacaqdı. Onu nəzərə aldım...

Elə bilirəm ki, bu qeydlərim 75 yaşlı həmkarımın portretini yaratmaq üçün kifayət edər. Kollektivimiz Qüdrət müəllimin yubileyini səmimi-qəlbdən təbrik edir, ona yeni-yeni uğurlar arzulayır.

***Əflatun AMAŞOV,***
***baş redaktor,***
***Əməkdar jurnalist***

# Türk dünyasının ortaq düşüncəli söz ustadları

**180 il bundan əvvəl qazax poeziyasının dan ulduzu parladı – İbrahim Kunanbayev dünyaya gəldi. Şair, mütəfəkkir, maarifçi, yazılı qazax ədəbiyyatının banisi Abay! Anasının əzizləmə mənasında verdiyi bu addan ilk dəfə “Yay” şeirində istifadə etdi. Beləliklə, qazax xalqının yaddaşına daim Abay kimi (“nəzakətli”, “mehriban” deməkdir) həkk olundu.**





200-ə qədər şeir, 3 poema və “Qara söz” adlanan 45 müstəqil nəsr nümunəsindən ibarət olan kitabı qazax ədəbiyyatına gətirilən yenilikləri əks etdirir. Dərin ictimai-siyasi və fəlsəfi məzmun, yeni janrlar, yeni deyim tərzləri Abay yaradıcılığı ilə klassik qazax ədəbiyyatını zənginləşdirdi.

XVIII əsrdən etibarən qazax ədəbiyyatında akın poeziyası yaranmağa başlamışdır. Akınlar şeir deyən, eyni zamanda şeir yazan sənətkarlardırlar. Bu poeziya XIX əsrdə qazax yazılı ədəbiyyatının yaranmasına böyük təsir göstərmişdir. Aşıq yaradıcılığı da Azərbaycan yazılı ədəbiyyatının zənginləşməsində, xəlqiləşməsində öz sözünü deyib. Bu baxımdan, Abayın akın ruhlu şeirləri ilə Azərbaycan aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Aşıq Ələsgərin yaradıcılığı arasında müqayisələr aparanda bir çox oxşarlıqların şahidi oluruq.

Qədim zamanlardan bəri mütəfəkkirlər, sənətkarlar söz haqqında müxtəlif fikirlər söyləmişlər. Bu nöqteyi-nəzərdən eyni əsrdə yaşamış, oxşar sənət missiyası daşımış Abay və Aşıq Ələsgər də öz yaradıcılığında sözə yüksək münasibət bildirmişlər. Həm Abay, həm də Aşıq Ələsgər sözün qiymətini bilmiş, mənalı sözün qəlbləri açdığını vurğulamışlar. Abay mənalı sözlərin “qəlbi isitdiyini”, “könülə rəhbər olduğunu” ifadə etmişdir. Aşıq Ələsgər də sözün mərifətdən xəbər verdiyini, doğru sözün xalqa çatdırılmasının vacibliyini göstərmişdir.

**Abay:**
***Dilə asan gələr, qəlbə də ılıq,***
***Mənalı sözləri söyləsən əgər.***
**Aşıq Ələsgər:**
***Mənim sözüm doğru yoldan çıxanı,***
***İnşallah, qaytarar, düz insan eylər.***

Abayın “Əlifbey” və Aşıq Ələsgərin “Əlif, lam...” şeirləri məzmununa, maraqlı ifadə tərzinə görə diqqəti cəlb edir. Hər iki sənətkar ərəb əlifbasının hərflərini sadalayaraq onlara uyğun sözlərlə dərin fikirlərini ifadə etmişlər.

**Abay:**
***“Əlif” kimi ay üzünə heyrət etdim,***
***“Bey”–bəlayi dərdinə nisbət etdim.***
***“Te”, dilimdən töküldü türlü şeirlər,***
***“Se”, mədhü-səna ilə xitabət etdim.***

**Aşıq Ələsgər:**
***İbtidaki “əlif”—Allah,***
***“Bey” birliyə dəlalətdi,***
***“Tey”—təkdi, vahidi-yekta,***
***Arif bu elmə bələddi.***

Gözəlliyə, gözələ münasibətdə də bu iki sənətkarın yaradıcılığında oxşar deyim tərzi diqqəti cəlb edir. Abay gözəli füsunkar, ecazkar formada təqdim edir. Bu gözəl bəzək-düzəksiz, boyasızdır. Gümüş kimi geniş alnı, qulac hörükləri onu gözəlliyin zirvəsinə qaldırır:

***Gümüş kimi parlaq, genişdir alnı,***
***İri, qara gözlərində nur yanar.***
***İncə kaman kimi çəkilmiş qaşı,***
***Yenicə doğulan hilaldır bu yar.***

Aşıq Ələsgərin də gözəli “ay qabaqlı, ayna alınlı, gül yanaqlı”dır:

***Ay nazənin, ay qabağın altından***
***Nə göyçək çəkilib qara qaşların?***
Yaxud:
***Nazik barmaqlıdı, şümşad əllidi,***
***Ayna qabaqlıdı, siyah tellidi.***

Göründüyü kimi, sənətkarların nəzərində geniş alın, ay kimi parlaq alın gözəllik simvolu olaraq dəyərləndirilir. Mərdliyə rəğbəti, namərdliyə nifrəti, dürüst insana verilən yüksək dəyəri hər iki sənətkarın yaradıcılığında görürük. Abay mərd dostunun olmamasını özünə dərd hesab edir,namərdləri bir ər, igid kimi qəbul etmir. Aşıq Ələsgər də namərdlərin dünyada heç bir iz qoymayacağını, yaxşı ad qazanmayacağını söyləyir.

Beləliklə, istər qazax yazılı ədəbiyyatının banilərindən olan Abayın, istərsə də Azərbaycan aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Aşıq Ələsgərin yaradıcılığına hakim olan bir ruh var – böyük türk xalqının ruhu! Bu da şeirlərə təbiilik, səmimilik qataraq könülləri oxşayır, onların dəyərini qat-qat artırır.

***Cavahir MƏMMƏDOVA,***
***Bakı şəhəri Novruzov qardaşları adına***
***36 saylı tam orta məktəbin***
***Azərbaycan dili və ədəbiyyatı müəllimi***

# Kiçik Mərdəkan qəsri bərpa edilir

**Dünya əhəmiyyətli memarlıq abidəsi olan Kiçik Mərdəkan qəsrində Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sifarişi ilə bərpa işlərinə başlanılıb. Məqsəd abidənin tarixi görkəminin qorunması, uzunömürlülüyünün təmin edilməsi və ziyarətçilərin rahatlığı üçün müvafiq infrastrukturun yaradılmasıdır.**



Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva bərpa işləri ilə yerində tanış olub, görülən işlərlə bağlı tapşırıq və tövsiyələrini verib.

Bərpa zamanı qəsrin təbii təsirlərdən zədələnmiş daşları çıxarılaraq orijinala uyğun yeniləri ilə əvəz olunur. Hörgülərarası birləşmələr xüsusi məhlulla möhkəmləndirilir, müdaxilələr nəticəsində üzərinə yazılar həkk edilmiş hissələr təmizlənir. İlkin səth bərpa edilir, aşınma və nəm təsirlərinə qarşı qoruyucu qat yaradılır. Bərpa işlərinin 2026-cı ilin yanvar ayında başa çatdırılması planlaşdırılır.

Qeyd edək ki, Bakı şəhərinin Mərdəkan qəsəbəsində yerləşən Kiçik Mərdəkan qəsri XIII əsrə aid müdafiə tikilisidir və Abşeron yarımadasının sahilboyu qalalar silsiləsində önəmli abidədir.

***Mehparə ƏLİYEVA***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 258**

**Bakı şəhəri, 10 sentyabr 2025-ci il**

**"Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Tibbi sığorta haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 120-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Tibbi sığorta haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 120-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 195 (Cild I); 2024, № 2, maddə 210, № 9, maddə 1090; 2025, № 2, maddə 180) ilə təsdiq edilmiş "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"nin 8.1-ci bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsində göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsində göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin şəhadətnamənin təqdim edilməsinə bərabər tutulur.".

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 196 (Cild I); 2024, № 1, maddə 111, № 2, maddə 210; 2025, № 2, maddə 210) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydaları haqqında Nümunəvi Əsasnamə"yə aşağıdakı məzmunda 4.6-4-cü bənd əlavə edilsin:

"4.6-4. Nəqliyyat vasitəsinin texniki baxışdan keçməsi barədə elektron talonda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Nəqliyyat vasitəsinin texniki baxışdan keçməsi barədə elektron talonda göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin talonun təqdim edilməsinə bərabər tutulur.".

**3** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 197 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 328, № 9, maddə 1090; 2025, № 2, maddə 180, № 3, maddə 282, № 5, maddə 507) ilə təsdiq edilmiş "Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.15-8-ci bənd əlavə edilsin:

"3.15-8. Sürücülük vəsiqəsində göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Sürücülük vəsiqəsində göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin vəsiqənin təqdim edilməsinə bərabər tutulur.".

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 384 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 303, № 9, maddə 1090; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 14 iyul tarixli 209 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"na aşağıdakı məzmunda 6.1-2-ci bənd əlavə edilsin:

"6.1-2. Kommersiya qurumları və publik hüquqi şəxslərin dövlət qeydiyyatına alınmasını və dövlət reyestrinə daxil edilməsini, eləcə də təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınmasını və dövlət reyestrinə daxil edilməsini təsdiq edən sənədlərdə (dövlət qeydiyyatı haqqında şəhadətnamədə, dövlət reyestrindən çıxarışda, nizamnamə və ya nizamnaməyə dəyişiklikdə) göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Bu sənədlərdə göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin sənədlərin təqdim edilməsinə bərabər tutulur.".

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 1, maddə 58 (Cild I) ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"na aşağıdakı məzmunda 1.1-1-ci bənd əlavə edilsin:

"1.1-1. Arayışda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Arayışda göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi arayışın təqdim edilməsinə bərabər tutulur.".

**6** "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 372 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. həmin Qərarla təsdiq edilmiş "Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"na aşağıdakı məzmunda 4.11-ci bənd əlavə edilsin:

"4.11. Diplomda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Diplomda göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi diplomun təqdim edilməsinə bərabər tutulur.";

6.2. həmin Qərarla təsdiq edilmiş "Əsas (baza ali) tibb təhsili və rezidentura təhsili haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"na aşağıdakı məzmunda 4.14-cü bənd əlavə edilsin:

"4.14. Diplomda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Diplomda göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi diplomun təqdim edilməsinə bərabər tutulur.";

6.3. həmin Qərarla təsdiq edilmiş "Orta ixtisas təhsili pilləsində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"na aşağıdakı məzmunda 4.11-ci bənd əlavə edilsin:

"4.11. Diplomda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Diplomda göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi diplomun təqdim edilməsinə bərabər tutulur.";

6.4. həmin Qərarla təsdiq edilmiş "Peşə təhsili pilləsində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"na aşağıdakı məzmunda 4.11-ci bənd əlavə edilsin:

"4.11. Diplom və sertifikatda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Bu sənədlərdə göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin sənədlərin təqdim edilməsinə bərabər tutulur.";

6.5. həmin Qərarla təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydası"na aşağıdakı məzmunda 5.16-cı bənd əlavə edilsin:

"5.16. Ümumi orta təhsil haqqında attestatda və tam orta təhsil haqqında attestatda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Bu sənədlərdə göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin sənədlərin təqdim edilməsinə bərabər tutulur.".

**7** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 noyabr tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1031 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə sığorta ödənişinin təyin edilməsi üçün sənədlərin Siyahısı"na aşağıdakı məzmunda 1.4-cü bənd əlavə edilsin:

"1.4. Annuitet müqaviləsində göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Annuitet müqaviləsində göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin müqavilənin təqdim edilməsinə bərabər tutulur.".

**8** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1233 (Cild I); 2024, № 1, maddə 111, № 2, maddə 197) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"na aşağıdakı məzmunda 2.6-cı bənd əlavə edilsin:

"2.6. Çıxarışda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Çıxarışda göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi çıxarışın təqdim edilməsinə bərabər tutulur.".

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 320, № 12 (II kitab), maddə 1431; 2025, № 3, maddə 304; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 iyul tarixli 192 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"na aşağıdakı məzmunda 3.9-cu bənd əlavə edilsin:

"3.9. Sosial yardımın təyin edilməsi və təyin olunmasından imtina edilməsi barədə qərarlarda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Bu qərarlarda göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin qərarların təqdim edilməsinə bərabər tutulur.".

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 619 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2564 (Cild I); 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Fərdi məşğulluq proqramının yerinə yetirilməsi Qaydası və hesabatın forması"na aşağıdakı məzmunda 2.8-ci bənd əlavə edilsin:

"2.8. Fərdi məşğulluq proqramında göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Fərdi məşğulluq proqramında göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi fərdi məşğulluq proqramının təqdim edilməsinə bərabər tutulur.".

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 iyul tarixli 327 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1349 (Cild I); 2024, № 3, maddə 314; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "İşaxtaran və işsiz şəxslərin qeydiyyata alınması Qaydası"na aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

"6. Yekun müddəa

Şəxsin işsiz və ya işaxtaran kimi qeydiyyata alınması, qeydiyyatdan müvəqqəti çıxarılması, qeydiyyatının ləğv edilməsi barədə qərarlarda və fərdi məşğulluq vərəqində göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Bu sənədlərdə göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin sənədlərin təqdim edilməsinə bərabər tutulur.".

**12.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 63 (Cild I); 2024, № 3, maddə 358, № 9, maddə 1106; 2025, № 4 (II kitab), maddə 421) ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nə aşağıdakı məzmunda 1.2-1-ci bənd əlavə edilsin:

"1.2-1. Göndərişdə göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Göndərişdə göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi göndərişin təqdim edilməsinə bərabər tutulur.".

**13** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 20 mart tarixli 101 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 362 (Cild I) ilə təsdiq edilmiş "İcbari tibbi sığorta şəhadətnaməsi"nin Nümunəvi forması"nın Qeyd hissəsinə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"İcbari tibbi sığorta şəhadətnaməsi Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. İcbari tibbi sığorta şəhadətnaməsində göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi icbari tibbi sığorta şəhadətnaməsinin təqdim edilməsinə bərabər tutulur.".

**14.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 iyun tarixli 182 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (IV kitab), maddə 687 (Cild I) ilə təsdiq edilmiş "Könüllü tibbi sığorta şəhadətnaməsinin forması və onun tətbiqi Qaydaları"na aşağıdakı məzmunda 2.5-ci bənd əlavə edilsin:

"2.5. Könüllü tibbi sığorta şəhadətnaməsi Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Könüllü tibbi sığorta şəhadətnaməsində göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi könüllü tibbi sığorta şəhadətnaməsinin təqdim edilməsinə bərabər tutulur.".

**15.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 368 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 929; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası"na aşağıdakı məzmunda 5.3-1-ci bənd əlavə edilsin:

"5.3-1. Sosial ödənişlərin təyin edilməsi və təyin olunmasından imtina edilməsi barədə qərarlarda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Bu qərarlarda göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin qərarların təqdim edilməsinə bərabər tutulur.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 261**

**Bakı şəhəri, 11 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 114-VIIQD nömrəli Qanununun və Azərbaycan Respublikası Prezidentinin "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" 2025-ci il 17 fevral tarixli 333 nömrəli və "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun tətbiqi və "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 25 iyul tarixli 735 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2025-ci il 17 fevral tarixli 334 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 114-VIIQD nömrəli Qanununun və Azərbaycan Respublikası Prezidentinin "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" 2025-ci il 17 fevral tarixli 333 nömrəli və "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun tətbiqi və "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 25 iyul tarixli 735 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2025-ci il 17 fevral tarixli 334 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 aprel tarixli 83 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 4, maddə 373 (Cild I); 2024, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Dərman vasitələrinin elmi tədqiqatlarının, klinikaya qədər tədqiqatlarının və klinik sınaqlarının aparılması Qaydaları"nın 2.14-cü bəndinə "qəyyumluq və himayə orqanının" sözlərindən sonra "(himayədar ailəyə verilmiş yetkinlik yaşına çatmamış şəxslərə, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək – valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş yetkinlik yaşına çatmamış şəxslərə münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaların)" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 aprel tarixli 89 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 398 (Cild I); 2024, № 7, maddə 931) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – "Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası"nın 3.8-ci bəndində "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyaya" sözləri "uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaya" sözləri ilə əvəz edilsin.

**3** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 725 (Cild I); 2024, № 2, maddə 204, № 3, maddə 314) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.2-ci yarımbəndə "qəyyumluq və himayə orqanının" sözlərindən sonra "(himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək – valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaların)" sözləri əlavə edilsin;

3.2. 4.1-ci bənddə "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1457 (Cild I); 2024, № 1, maddə 110, № 7, maddə 931, № 9, maddə 1100) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.3.1.3-cü, 2.3.2-ci yarımbəndlərdə və 2.3.7-ci yarımbənddə (hər iki halda) "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin;

4.2. 2.3.9-cu yarımbənddə "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin.

**5.** "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 308 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1641 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

5.1. adında və 1-ci hissəsində "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin;

5.2. preambulasında "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin.

**6** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 mart tarixli 102 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 536 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrinə qəbul Qaydası"nın 1.13-cü bəndində "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın" sözləri "uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın" sözləri ilə əvəz edilsin.

**7** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 aprel tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 780 (Cild I); 2024, № 1, maddə 115; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 iyul tarixli 195 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Xüsusi peşə təhsili müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 4.10-cu bəndində "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyanın" sözləri "uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın" sözləri ilə əvəz edilsin.

**8** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 157 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 503 (Cild I); 2024, № 3, maddə 330) ilə təsdiq edilmiş "Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları"nın 6.1.5-ci yarımbəndində "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 yanvar tarixli 8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 129 (Cild I) ilə təsdiq edilmiş "Fövqəladə hallarda, pandemiya və bu kimi xüsusi vəziyyətlərdə uşaqların təhsilə, sosial və digər xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.4-cü bənddə "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri birinci halda "uşaq" sözü ilə, ikinci halda "Uşaq" sözü ilə əvəz edilsin;

9.2. 1.5-ci bənddə "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin;

9.3. 1.6-cı bənddə "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 263** **Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

**“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin yenidən təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 fevral tarixli 342 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və “Azərbaycan Respublikası Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” 1994-cü il 28 noyabr tarixli 407 nömrəli Qərarı”nın ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin yenidən təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 fevral tarixli 342 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 20 noyabr tarixli 251 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası tərəfindən Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin müəssisələri və təşkilatları ilə istehsalat kooperasiyasının və ixtisaslaşmanın qorunub saxlanması və inkişafına dair sahə və sahələrarası sazişləri bağlayan və icrasını təmin edən nazirlik, komitə, şirkət, konsern, birlik və təşkilatların Siyahısı”nın on dördüncü abzasından “və “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti” sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 24 yanvar tarixli 9 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş “Bakı Metropolitenində baş vermiş qəza ilə əlaqədar respublika nəqliyyat sahələrində sərnişin və yüklərin daşınmasında təhlükəsizliyin təmin edilməsi üçün tədbirlər planı”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 15-ci hissənin “İcraçılar” sütunundan “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti,” sözləri çıxarılsın;

2.2. 21-ci hissənin “İcraçılar” sütununda “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyəti” sözləri “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 iyul tarixli 202 nömrəli, 15 iyul tarixli 210, 212 nömrəli və 1 avqust tarixli 228 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı”nın 110-cu hissəsi ləğv edilsin.

**4.** “Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Nizamnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 28 noyabr tarixli 407 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 264** **Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

**“Avtomobil yolları” Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması, qorunması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 13 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında və “Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində “Avtomobil yolları” Məqsədli Büdcə Fondunun yaradılması haqqında” 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2302 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən və “Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində “Avtomobil yolları” Məqsədli Büdcə Fondunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 429 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Avtomobil yolları” Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması, qorunması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 13 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 57 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-1-ci hissə aşağıdakı redaksiyada verilsin:

“1-1. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.”;

1.2. həmin Qərarla təsdiq edilmiş “Avtomobil yolları” Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması, qorunması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları”nın 2-ci hissəsi üzrə:

1.2.1.2.1-ci bənddə “dövlət büdcəsinin” sözləri “mədaxil” sözü ilə əvəz edilsin;

1.2.2.2.1.2 – 2.1.6-cı yarımbəndlər ləğv edilsin;

1.2.3.2.1.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.1.9-cu yarımbənd əlavə edilsin:

“2.1.9. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin fəaliyyət istiqamətlərinə uyğun olaraq göstərdiyi ödənişli xidmətlərdən əldə etdiyi gəlirlər, ianələr, qrantlar və qanunla qadağan edilməyən digər mənbələr.”.

2. Bu Qərar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 13 nömrəli Qərarı ilə təsdiq edilmiş “Avtomobil yolları” Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması, qorunması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları”nın 2.1.2 – 2.1.4-cü və 2.1.6-cı yarımbəndlərinə münasibətdə 2025-ci il yanvarın 1-dən, həmin Qaydaların 2.1.5-ci yarımbəndinə münasibətdə 2023-cü il oktyabrın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 265** **Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 286 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 286 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 975 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 29 iyul tarixli 226 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin 3.1.5-ci yarımbəndində “və yataq dəstləri ilə təmin etmək” sözləri “və yumşaq inventarlarla təmin olunmasını Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi normalara uyğun həyata keçirmək;” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 266** **Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun adının dəyişdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasında balıqçılığın və akvakulturanın inkişafı ilə bağlı əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 dekabr tarixli 253 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq və Balıqçılıq Elmi-Tədqiqat İnstitutu adlandırılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1117 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 460, № 5 (II kitab), maddə 628, № 7, maddə 927) ilə təsdiq edilmiş “Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı”nın “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi üzrə” bölməsinin 7-ci hissəsinə “Heyvandarlıq” sözündən sonra “və Balıqçılıq” sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 584 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2531 (Cild I); 2024, № 5 (II kitab), maddə 602; 2025, № 6, maddələr 597, 602) ilə təsdiq edilmiş “Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı”nın 4.6-cı bəndinə “Heyvandarlıq” sözündən sonra “və Balıqçılıq” sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 549 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2745 (Cild I); 2025, № 2, maddə 195) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nın 1.5-ci bəndinə “Heyvandarlıq” sözündən sonra “və Balıqçılıq” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 267** **Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 may tarixli 184 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 159-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 may tarixli 184 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 655 (Cild I); 2024, № 4, maddə 441) ilə təsdiq edilmiş “Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası”nın 2.3-cü bəndindən “obyektləri barədə ekoloji ekspertiza” sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 269** **Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

**“Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası”nın** təsdiq edilməsi haqqında” **Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Sənaye parklarının bərpa olunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisi ilə təchizatına dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 may tarixli 389 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Q**ərarın**da (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 571; 2025, № 3, maddə 303) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci bəndə “Komitəsi” söz**ün**dən sonra “, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri **əlavə edilsin**.

2. H**əmin Qərarla təsdiq edilmiş “Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası”** üzrə:

2.1. 2.5-ci bənd **aşağıdakı** redaksiyada verilsin:

“2.5. Nazirlik tərəfindən hər il iyun ayının 1-dək enerji balansının layihəsi tərtib edilir. Nazirlik həmin layihəni Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə razılaşdıraraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir. Enerji balansının layihəsind**ə** **dəyişiklik edilməsi** zərurəti yarandığı təqdirdə Nazirlik bu barədə təklifləri və enerji balansı**nın** yenilənmiş layihəsini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə razılaşdırmaqla noyabr ayının 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.”;

2.2. 2.7-ci bənddə “və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi” sözləri “, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

2.3. 3.9-cu bəndə “Komitəsinin” sözündən sonra “, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin” sözləri əlavə edilsin;

2.4. Qaydaya əlavə — “Azərbaycan Respublikasının enerji balansı”nın strukturu (əvvəlki iki ilin faktiki, cari ilin gözlənilən, növbəti ilin illik, rüblük və sonrakı üç il üzrə illik)” üzrə:

2.4.1. 4.13 - 4.43-cü sətirlər müvafiq olaraq 4.16 - 4.46-cı sətirlər hesab olunsun və aşağıdakı məzmunda 4.13 - 4.15-ci sətirlər əlavə edilsin:

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **4.13.** | **İdxal** | **milyon kVt·st** | | | | | | |
| 4.13.1. | paralel işin təmin edilməsi məqsədilə | milyon kVt·st | | | | | | |
| 4.13.2. | kommersiya məqsədilə | milyon kVt·st | | | | | | |
| **4.14.** | **İxrac** | **milyon kVt·st** | | | | | | |
| 4.14.1. | paralel işin təmin edilməsi məqsədilə | milyon kVt·st | | | | | | |
| 4.14.2. | kommersiya məqsədilə | milyon kVt·st | | | | | | |
| **4.15.** | **İdxal-ixracın saldosu** | **milyon kVt·st** | | | | | | |

2.4.2. aşağıdakı məzmunda 4.19.3-c**ü** alt sətir əlavə edilsin:

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 4.19.3. | Sənaye parklarının idarəedici təşkilatı | milyon kVt·st | | | | | | |
| 4.19.3.1. | bərpa olunan enerji mənbələrindən istehsal edilmiş | milyon kVt·st | | | | | | |
| | ondan mənbələr üzrə: | | | | | | | |
| 4.19.3.2. | digər mənbələrdən istehsal edilmiş | milyon kVt·st | | | | | | |
| | ondan mənbələr üzrə: | | | | | | | |

2.4.3. **aşağıdakı məzmunda 4.**29.2.1.1-ci alt sətir əlavə edilsin:

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 4.29.2.1.1. | sənaye parklarının idarəedici təşkilatı | milyon kVt·st | | | | | | |
| 4.29.2.1.1.1. | bərpa olunan enerji mənbələrindən istehsal edilmiş | milyon kVt·st | | | | | | |
| | ondan mənbələr üzrə: | | | | | | | |
| 4.29.2.1.1.2. | digər mənbələrdən istehsal edilmiş | milyon kVt·st | | | | | | |
| | ondan mənbələr üzrə: | | | | | | | |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 268**

**Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik və bəzi qərarlarının ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 16 oktyabr tarixli 560 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 78; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasının dövlət sərhədində profilaktik zolaq və baytar-sanitar rejiminə dair Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1-ci bəndin ikinci abzasında "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin;

1.2. 3.6-cı bənddən " və yemlərin" sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 17 oktyabr tarixli 212 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 633 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında geodeziya-istinad məntəqələrinin istifadəsi və mühafizəsi qaydalarına dair Əsasnamə"-nin 5-ci hissəsinin ikinci abzasına "yem" sözündən sonra "məhsullarından" sözü əlavə edilsin.

**3.** "İşçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə yeyinti sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində əmək müqaviləsi bağlanılarkən işçilərin sağlamlığı haqqında tibbi arayış tələb olunan peşələrin (vəzifələrin) iş yerlərinin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan respublikası Nazirlər Kabinetinin 2000-ci il 3 yanvar tarixli 1 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 72 (Cild I); 2024, № 1, maddə 113) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında və 1-ci hissəsində "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "İşçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə yeyinti sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində əmək müqaviləsi bağlanılarkən işçilərin sağlamlığı haqqında tibbi arayış tələb olunan peşələrin (vəzifələrin), iş yerlərinin SİYAHISI" üzrə:

3.2.1. adında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

3.2.2. 22-ci hissədə "Yeyinti" sözü "Qida" sözü ilə, "ərzaq" sözü (ikinci halda) "qida" sözü ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 58 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 246 (Cild I); 2024, № 9, maddələr 1067, 1106; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Yaşı 18-dən az olan işçilərin əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. "IX.MİKROBİOLOGİYA İSTEHSALATI" bölməsi üzrə:

4.1.1. "Qeyri-ərzaq bitki xammalının hidrolizi üsulu ilə şəkərlərin istehsalı:" hissəsinin adında "Qeyri-ərzaq" sözləri "Qeyri-qida" sözləri ilə əvəz edilsin;

4.1.2. "Vitaminli, antibiotikli və amin turşulu yemlərin istehsalı:" hissəsinin adında "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin;

4.2. "XXV.YEYİNTİ SƏNAYESİ" bölməsi üzrə:

4.2.1. adında "YEYİNTİ" sözü "QİDA" sözü ilə, "Yeyinti məhsulları istehsalının ümumi peşələri:" hissəsinin adında "Yeyinti" sözü "Qida" sözü ilə, "Qurudulmuş meyvə və tərəvəzin yeyinti konsentratlarının, qəhvə məhsullarının və ədviyyatların istehsalı:" hissəsinin adında, "Ət və süd sənayesi" "Ət məhsullarının istehsalı:" hissəsinin dördüncü abzasında, "Yağ, pendir və süd istehsalı:" hissəsinin səkkizinci abzasında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

4.2.2. "Ət və süd sənayesi" "Ət məhsullarının istehsalı:" hissəsinin üçüncü abzasına və "Quş emalı:" hissəsinin on beşinci abzasına "yem" sözündən sonra "məhsulları" sözü əlavə edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 dekabr tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2002, № 12, maddə 751; 2019, №12, maddə 2101) ilə təsdiq edilmiş "İstehsal mənşəyinə görə adlar verilən şərabların istehsalı və şərabçılıq məhsullarına adların verilməsi qaydaları barədə ƏSASNAMƏ"nin altıncı və iyirmi üçüncü abzaslarında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 iyul tarixli 92 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 583 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 579, № 9, maddələr 1067,1106; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalat, peşə və vəzifələrin adı" sütununda aşağıdakı dəyişikliklər edilsin:

6.1. "XXVII. Yeyinti sənayesi" bölməsinin 4-cü bəndində "yemlərin" sözü "yem məhsullarının"sözləri ilə, 57-ci bəndində "Yemlərin" sözü "Yem məhsullarının"-sözləri ilə, "yemləri" sözü "yem məhsullarını" sözləri ilə əvəz edilsin;

6.2. "XXX. Nəqliyyat" bölməsinin 17-ci və 176-cı bəndlərində "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin;

6.3. "XXXII. Kənd təsərrüfatı" bölməsinin 3-cü bəndində "Yemlərin" sözü "Yem məhsullarının"sözləri ilə, "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin;

6.4. mətn üzrə "Yeyinti" sözü "Qida" sözü ilə, "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 963 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 579, № 9, maddələr 1067, 1106) ilə təsdiq edilmiş "İşçilərə həftə ərzində 36 saatdan çox olmayan, qısaldılmış iş vaxtı müəyyən edilən əmək şəraiti fiziki, kimyəvi, bioloji və habelə insanın sağlamlığı üçün zərərli olan digər ağır istehsalat amilləri mövcud olan əmək şəraitli istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalatların, peşə və vəzifələrin adı" sütununda mətn üzrə "YEYİNTİ" sözü "QİDA" sözü ilə, "Yeyinti" sözü "Qida" sözü ilə, "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 noyabr tarixli 206 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1066 (Cild I); 2024, № 2, maddə 208) ilə təsdiq edilmiş "Nərə cinsli balıq ehtiyatlarının istifadəsi və dövriyyəsinin tənzimlənməsi Qaydaları"nın 4.3-cü bəndinin birinci abzasında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 14 dekabr tarixli 227 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1227 (Cild I) ilə təsdiq edilmiş "Telekommunikasiya şəbəkələrini, vasitə və qurğularını mühafizə Qaydaları"nın 4.1.5-ci yarımbəndinə "yem" sözündən sonra "məhsullarının" sözü əlavə edilsin.

**10.** "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 mart tarixli 65 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 293 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

10.1. həmin Qərarla təsdiq edilmiş "Epizootiya monitorinqinin aparılması Qaydası"nın 2.4.1-ci yarımbəndinin yeddinci abzasında "yemlə" sözü "yem məhsulları ilə" sözləri ilə əvəz edilsin;

10.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət baytarlıq nəzarəti vacib olan obyektlərin mülkiyyətçilərinin vəsaiti hesabına qanunla müəyyən edilmiş tədbirlərin maliyyələşdirilməsinin Qaydası və Şərtləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

10.2.1. II hissəsinin ikinci abzasında "preparatları, yem və yem əlavələrinin" sözləri "preparatlarının" sözü ilə əvəz edilsin;

10.2.2. II hissəsinin üçüncü abzasından ", heyvandarlıq müəssisələrinin, bazarların dövlət baytarlıq nəzarətində olan məhsulların və xammalın istehsalı, tədarükü, saxlanması, emalı və satışı yerlərinin, həmçinin heyvanlar üçün yem və bioloji preparatlar istehsalı obyektlərinin qeydiyyatı " sözləri çıxarılsın.

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 56 (Cild I); 2024, № 2, maddələr 209, 213, № 5 (II kitab), maddə 579, № 9, maddə 1106; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 28 iyul tarixli 223 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin SİYAHISI" nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 22-ci bölmənin 22.5-ci bəndinin beşinci abzasında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

11.2. 27-ci bölmə üzrə:

11.2.1. adında "Yeyinti" sözü "Qida" sözü ilə əvəz edilsin;

11.2.2. 27.2-ci bəndin "a) fəhlələr:" abzasının üçüncü sətrində "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

**12.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 yanvar tarixli 19 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 63 (Cild I) ilə təsdiq edilmiş "Heyvanların saxlanması, yetişdirilməsi və istifadə olunması Qaydaları"nın 2.6-cı bəndində "yemlərlə" sözü "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun yem məhsulları ilə" sözləri ilə əvəz edilsin.

**13.** "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 aprel tarixli 66 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 392 (Cild I); 2024, № 1, maddə 105, № 5 (II kitab), maddə 606) aşağıdakı dəyişikliklər edilsin:

13.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında baytarlıq preparatlarının aprobasiyası, ekspertizası, sınaqdan keçirilməsi, dövlət qeydiyyatına alınması və dövlət reyestrinin aparılması, istehsalı, idxalı, saxlanması, daşınması, satışı və istifadəsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

13.1.1. 2.1-ci bənddən "yem və yem əlavələri,", "yem məqsədilə işlədilən kənd təsərrüfatı və sənaye tullantıları," sözləri çıxarılsın;

13.1.2. aşağıdakı məzmunda 3.19-cu bənd əlavə edilsin:

"3.19. Elmi tədqiqatlar nəticəsində hazırlanmış və təkmilləşdirilmiş yem məhsullarının və yem əlavələrinin baytarlıq normativlərinə uyğunluğunu müəyyən etmək üçün onlar bu Qaydaya uyğun olaraq aprobasiyadan keçirilməlidirlər.";

13.1.3. 5.2-ci bənddən "və 6" sözləri çıxarılsın;

13.1.4. 5.6-cı bənddən "yem məqsədilə işlədilən kənd təsərrüfatı və sənaye tullantıları,"sözləri çıxarılsın;

13.2. həmin Qaydalara 6 nömrəli əlavə — "Qeyri-məhsuldar heyvanlar üçün yemlərin qeydiyyata alınması məqsədilə təqdim olunan sənədlərə Tələblər" ləğv edilsin.

**14.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 22 may tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 550 (Cild I) ilə təsdiq edilmiş "Dövlət nümunəvi baytarlıq uçot və hesabat sənədləri blanklarının Forması"nda aşağıdakı dəyişikliklər edilsin:

14.1. "Yem, yem əlavələrinin və digər nümunələrin mikotoksikoloji müayinə jurnalı" Forma № 18-vet-in adına "Yem" sözündən sonra "məhsullarının" sözü, mətninə (birinci halda) "yem" sözündən sonra "məhsullarının" sözü əlavə edilsin, "Yemin" sözü "Yem məhsullarının" sözləri ilə əvəz edilsin;

14.2. "Dövlət sərhədinin buraxılış məntəqələrində idxal və ixrac edilən heyvan mənşəli məhsulların və xammalın, yem və yem əlavələrinin baxışının uçotu jurnalı" Forma № 29-vet-in adına (birinci halda )"yem" sözündən sonra "məhsullarının" sözü əlavə edilsin;

14.3. "Heyvan mənşəli yarımfabrikat, yem unu, kolbasa və kulinar məmulatlarının bakterioloji müayinələrinin qeydiyyat jurnalı" Forma № 37-vet-in mətnində "ərzağın" sözü "qida məhsulunun" sözləri ilə, "ərzaqda" sözü "qida məhsulunda" sözləri ilə əvəz edilsin.

**15.** "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 oktyabr tarixli 156 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 10, maddə 1016 (Cild I); 2024, № 1, maddə 116) aşağıdakı dəyişikliklər edilsin:

15.1. 1-ci hissədən "Heyvan, heyvan mənşəli məhsullar və xammal istehsalı, tədarükü, saxlanması, emalı və satışına, habelə yem və yem əlavələrinin dövriyyəsinə dövlət baytarlıq nəzarətinin həyata keçirilməsi Qaydaları"," sözləri çıxarılsın;

15.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət baytarlıq nəzarətində olan yüklərin baytarlıq normalarının tələblərinə uyğunluğunun yoxlanılması və onlara baxış keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

15.2.1. 5-ci hissənin adında "Preparatları, Yem və Yem Əlavələrinin" sözləri "Preparatlarının" sözü ilə əvəz edilsin;

15.2.2. 5.1-ci və 5.3-cü bəndlərdən ", yem və yem əlavələri" sözləri çıxarılsın;

15.2.3. 5.2-ci və 5.4-cü bəndlərdən " , yem və yem əlavələrinin" sözləri çıxarılsın.

**16.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 26 oktyabr tarixli 169 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 858 (Cild I) ilə təsdiq edilmiş "Əhalinin sağlamlığının qorunmasında və digər sahələrdə istifadə edilən arıçılıq məhsulları xammalı və onların əsasında hazırlanmış apifitoməhsulların istehsalı, dövriyyəsi və tətbiqi QAYDASI"nda aşağıdakı dəyişikliklər edilsin:

16.1. 3.2-ci bənddə "Yeyinti məhsulları" sözləri "Qida təhlükəsizliyi" sözləri ilə əvəz edilsin;

16.2. 4.1-ci bənddə "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

**17.** "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta tariflərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 5 noyabr tarixli 200 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1034 (Cild I) cədvəlində "İqtisadi fəaliyyət növü" sütunu üzrə 5-ci risk dərəcəsinin beşinci abzasında "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

**18.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 262 (Cild I) ilə təsdiq edilmiş "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nın "31. Aqrar elmlər" bölməsində "Yem" sözü "Yem məhsulları" sözləri ilə, "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

**19.** "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 13 noyabr tarixli 259 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1198 (Cild I); 2024, № 4, maddə 437, № 6 (II kitab), maddə 736, № 9, maddə 1106) aşağıdakı dəyişikliklər edilsin:

19.1. həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə - "Ölkə daxilində genetik modifikasiya olunmuş bitkilərin mövcudluğu və yayılma zonasının aşkarlanması Qaydası"na aşağıdakı məzmunda 2.11-ci bənd əlavə edilsin:

"2.11. Bu Qayda ilə müəyyən edilən tələblər "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 13.1-ci maddəsi ilə müəyyən edilmiş genetik modifikasiya olunmuş orqanizmlərə və yem məhsullarına şamil edilmir.";

19.2. həmin Qərarla təsdiq edilmiş 12 nömrəli əlavə - "Genetik modifikasiya olunmuş bitkilərin, eləcə də müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədi ilə Azərbaycan Respublikasına idxalı Qaydası"na aşağıdakı məzmunda 17-ci bənd əlavə edilsin:

"17. Bu Qayda ilə müəyyən edilən tələblər "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 13.1-ci maddəsi ilə müəyyən edilmiş genetik modifikasiya olunmuş orqanizmlərə və yem məhsullarına şamil edilmir.".

**20.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 11 dekabr tarixli 291 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1355 (Cild I) ilə təsdiq edilmiş "Ölkə daxilində aşkarlanan genetik modifikasiya olunmuş bitkilərdən yarana biləcək təhlükənin təyin edilməsi Qaydası"na aşağıdakı məzmunda 2.9-cu bənd əlavə edilsin:

"2.9. Bu Qayda ilə müəyyən edilən tələblər "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 13.1-ci maddəsi ilə müəyyən edilmiş genetik modifikasiya olunmuş orqanizmlərə və yem məhsullarına şamil edilmir.".

**21.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 232 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1030 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddə 612, № 9, maddələr 1090, 1106, № 12 (II kitab), maddə 1460) ilə təsdiq edilmiş "Gömrük ekspertizasının aparılması QAYDALARI"nın 3.3.6-cı yarımbəndində "qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatının, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışın" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildirişi, Qida Təhlükəsizliyi Reyestrindən çıxarışı, sağlamlıq sertifikatını, qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən sənədlərin" sözləri ilə əvəz edilsin.

**22.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 3 oktyabr tarixli 286 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013 , № 10 , maddə 1207 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddə 612, № 12 (II kitab), maddə 1460) ilə təsdiq edilmiş "Təminatdan istifadə etməklə gömrük borcunun ödənilməsinin təmin edilməsi Qaydaları"nın 8.3-cü bəndində "qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatı, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışla" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildirişi, Qida Təhlükəsizliyi Reyestrindən çıxarışı, sağlamlıq sertifikatını, qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən sənədlərlə" sözləri ilə əvəz edilsin.

**23.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 18 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 203 (Cild I); 2024, № 1, maddə 74, № 2, maddə 209, № 9, maddə 1106; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Tikinti layihəsinin texnologiya bölməsinin hazırlanması tələb olunan hallar"ın 1.34.1-ci yarımbəndinə "yem" sözündən sonra "məhsulları" sözü əlavə edilsin və 1.34.3-cü yarımbəndində "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

**24.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 17 iyun tarixli 231 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1207 (Cild I) ilə təsdiq edilmiş "Baytarlıq, fitosanitar və sanitariya nəzarətinə aid malların Vahid Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

24.1. 1.33-cü bənddə "yeyinti" sözü "qida" sözü ilə, 1.76-cı bənddə "Yeyinti" sözü "Qida" sözü ilə əvəz edilsin;

24.2. 1.75-ci bənddə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

24.3. 3.1-3.97-ci, 3.101-ci, 3.102-ci, 3.106-cı, 3.109-cu, 3.112-ci, 3.114-cü, 3.120-ci, 3.122-ci və 3.123-cü bəndlər ləğv edilsin.

**25.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

25.1."QRUP 19" üzrə 1901 mal mövqeyinə aid sətrin ikinci sütununda, 1904, 1904 10, 1904 20 yarımmövqelərinə aid sətirlərin ikinci sütunlarında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

25.2. "QRUP 21" üzrə 2105 00 yarımmövqeyinə aid sətrin ikinci sütununda "yeyinti" sözü "qida üçün yararlı" sözləri ilə əvəz edilsin;

25.3. "QRUP 23"ün adında "YEYİNTİ" sözü "QİDA" sözü ilə əvəz edilsin;

25.4. "QRUP 73" üzrə 7310 21 110 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

25.5. "QRUP 82" üzrə 8208 30 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

25.6. "QRUP 84" üzrə 8418 50 110 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda və 8438 mal mövqeyinə aid sətrin ikinci sütununda "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin, 8476 mal mövqeyinə aid sətrin ikinci sütununda "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

25.7. "QRUP 85" üzrə "Qeydlər"in 4-cü hissəsinin a bəndində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

**26.** "İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi üçün zərərli, ağır və yeraltı əmək şəraitli istehsalatların Siyahısı"nın və "İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi Qaydaları"-nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 dekabr tarixli 550 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2498 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

26.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi üçün zərərli, ağır və yeraltı əmək şəraitli istehsalatların SİYAHISI"nın cədvəl hissəsində VII bölmənin adında "Yeyinti" sözü "Qida" sözü ilə əvəz edilsin;

26.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi QAYDALARI"nın 2.4-cü, 2.5-ci bəndlərində, 2.6-cı bəndinin birinci abzasının birinci cümləsində və ikinci abzasında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

**27.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 aprel tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 786 (Cild I) ilə təsdiq edilmiş "Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri, Cənubi Qafqaz Boru Kəməri və Cənubi Qafqaz Boru Kəməri Genişləndirilmiş boru kəmərlərinin məsləhətləşmə və mühafizə zonalarının müəyyən edilməsi Qaydaları"nın 3.3.4-cü yarımbəndində "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

**28.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 iyul tarixli 307 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7, maddə 1640 (Cild I); 2024, № 1, maddə 84) ilə təsdiq edilmiş "Ticarət və ictimai iaşə sahəsində qida məhsullarının təbii itki Normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

28.1. 35-ci hissə üzrə:

28.1.1. adında "yemin" sözü "yem məhsullarının" sözləri ilə, cədvəlində "Yem" sözü "Yem məhsulları" sözləri ilə, "yem" sözü "yem məhsulları" sözləri ilə əvəz edilsin;

28.1.2. "Qeydlər"in 4-cü hissəsində "Yemlər" sözü "Yem məhsulları" sözləri ilə əvəz edilsin;

28.2. 39-cu hissənin adında "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə, cədvəlində "Yem" sözü "Yem məhsulları" sözləri ilə, "yem" sözü "yem məhsulları" sözləri ilə əvəz edilsin;

*(ardı 11-ci səhifədə)*

# Suverenliyimiz – milli varlığımızın əbədiyyət pasportu

## Müstəqil Azərbaycan dünyaya Günəş kimi doğur

**20 sentyabr suverenlik gününü – bu böyük tarixi hadisəni bütün mənalarda istiqlalını qazanmış, sərhədlərini bərpa etmiş, böyümüş, güclənmiş, əzmini və səriştəsini artırmış, Bakıdan Vaşinqtona qədər uzanan siyasi nüfuz dalğasında milli müqəddəratını özü təyin etmiş bir ölkənin vətəndaşları kimi qarşılayırıq.**

Son otuz ildə keçdiyimiz yolun çətinliklərindən çox bəhs etmişik. Artıq zaman deyil, proseslər, situasiyalar fərqli şəkil alıb. Suverenlik faktının müstəsna tarixi fenomen olduğunu günbəgün daha dərinliyi ilə hiss etməkdəyik. Bu mənada, nəzər nöqtələri, diskurslar, yanaşmalar dəyişib və dəyişməkdədir. Yəqin ki, tədricən şüuraltı axın daha dərinlərə işlədikcə, çağın obrazını daha əhatəli, epik panoram genişliyi ilə idrak edəcəyik. Amma bu günün içindən belə aydın görünən, getdikcə bütün yönləri ilə sərgilənən həqiqətlər var ki, onlarla bağlı qənaət birmənalı olaraq sabitdir. Məsələn, böyük qələbəmizi bizə qazandıran dəyərlər, təməllər, siyasi sistemin möhkəm sütun üzərində pərvəriş tapması və s. Bunlar hamısı ümummilli lider Heydər Əliyevin dühasında qurulan, dövlət müstəqilliyinin möhkəm təməllərini yaradan əməllər sırasında ehtiva olunmuşdur. O əməllər ki, sonradan ölkə başçısı, Prezident İlham Əliyevin siyasətində sabahlı bir gələcək kontekstindən mündəricə qazandı. İlham Əliyev müstəqil dövlətçiliyi, suverenlik anlayışını bütün istiqamətlər üzrə inkişaf etdirərək yeni mərhələyə çıxardı. Əlbəttə ki, tarixi taleyimizdə həlledici səhifə açan epoxal hadisənin adı Qarabağda qazanılan Zəfər oldu. Amma bura qədər də İlham Əliyev yeni epoxanın, yeni əsrin meydana çıxardığı, böyük siyasi-ideoloji məktəb keçmiş, Azərbaycan dövlətinin dayaqlarını əsaslı şəkildə inkişaf etdirərək möhkəmləndirən və yeni üfüqlər açan qüvvətli lider kimi özünü çoxdan təsdiq etmişdir. Azərbaycan neft siyasətini ardıcıl və yüksək səviyyədə inkişaf etdirməsi, dünya ölkələri ilə inteqrasiya proseslərinin daha da genişləndirilməsi, bir çox hallarda isə yeni əlaqələrin yaranmasına yol açması, müxtəlif layihələr əsasında ölkədəki rifaha çalışması, quruculuq işlərinin möhkəmlənməsi və geniş şəkil alması prosesində xidmətləri və s.



Bəli, suverenliyin əsası 1991-ci ildə qoyulsa da, onu möhkəmləndirmək, qorumaq və bərpa etmək məhz sonrakı illərdə dövlət başçısı Heydər Əliyevin, daha sonra isə İlham Əliyevin əsas vəzifəsi oldu. Ölkədə siyasi sabitlik təmin olundu, dövlət institutları gücləndirildi, idarəetmə sistemi müasirləşdirildi. Orduya böyük sərmayə qoyuldu, ən müasir texnika və silahlarla təmin edildi. Peşəkar zabit və əsgər hazırlığına xüsusi diqqət ayrıldı. Bu siyasət nəticəsində Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrildi. Azərbaycanı dünyada etibarlı enerji tərəfdaşı kimi tanıtdı. Bakı–Tbilisi–Ceyhan, TANAP, TAP, Cənub Qaz Dəhlizi kimi layihələr ölkəyə iqtisadi güc və siyasi müstəqillik qazandırdı. Neft gəlirləri ağıllı şəkildə idarə olunaraq qeyri-neft sektorunun inkişafına yönəldildi. Xarici siyasətdə müstəqillik meyarları əsas götürüldü. Azərbaycan heç bir hərbi-siyasi bloka qoşulmadı, balanslı siyasət yürütdü. Qoşulmama Hərəkatına sədrlik etdi, Türk Dövlətləri Təşkilatında və digər beynəlxalq platformalarda ölkənin mövqeyini gücləndirdi. Bütün bunlar onunla sonuclandı ki, 2020-ci ildə Vətən müharibəsi nəticəsində işğal altındakı torpaqların böyük hissəsi azad edildi. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal antiterror tədbirləri ilə Qarabağda qalan separatçı silahlı qruplar tərk-silah edildi. Bununla da Azərbaycanın tam dövlət suverenliyi bərpa olundu. Beləliklə, Prezident İlham Əliyevin atdığı mühüm strateji addımlar Azərbaycanı həm siyasi, həm iqtisadi, həm də hərbi baxımdan güclü dövlətə çevirdi və suverenliyimizi yalnız kağız üzərində deyil, real həyatda tam təmin etdi.

Hakimiyyətdə olduğu bütün illəri İlham Əliyevin ata vəsiyyətini yerinə yetirməsi üçün keçdiyi hazırlıq mərhələsi də adlandıra bilərik. O vəsiyyət ki, özündə müstəqillik andı, xalq amili, milli mənafe, ölkə maraqlarını meyara çevirmək kimi ən ali dəyərləri ehtiva edir. İlham Əliyev bunu yalnız siyasi arenada deyil, milli mədəniyyətə münasibətdə də gerçəkləşdirmişdir. Zənnimcə, bu yöndə sərgilədiyi həssaslığı da ümummilli lider Heydər Əliyev dühasına, şəxsiyyətinə, onun mədəniyyətə, ədəbiyyata baxış tərzinə aid milli dəyərlər sistemi hesab etmək olar. Prezidentin elə son illər imzaladığı sərəncamlara diqqət etsək, görmək çətin olmaz – "Multikulturalizm ili", "İslam həmrəyliyi ili", "Azərbaycan Xalq Cümhuriyyəti ili", "Nəsimi ili", "Nizami ili" – bunlar Heydər Əliyev yolunun yeni tarixi formatda davamının əyani sübutudur. Bu sərəncamların hər biri xalqın dövləti şüurunun güclənməsində, vahid bir ideya ətrafında köklənməsində, insanların milli və tarixi dəyərlər üzərində səfərbər edilməsində, öz tarixi kimliyindən uzaq düşməməsində böyük rol oynayır. Eləcə də mental dəyərlərimizi, kimliyimizi dünyaya bəyan edir, daha sistemli və davamlı təlqinlərə imkan yaradır. Bu mənada, son otuz il həm də inamımızın və iradəmizin yaşıdıdır.

Müharibədəki zəfərimiz, daha sonra 2023-cü ilin 19 sentyabrında antiterror əməliyyatlarında qazanılmış qələbə ilk növbədə, bütövlük amalına sadiqliklə, bütün təzahürlərində bu amala sadiq qalmaqla qazanıldı. Diqqət eləsək görərik ki, Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün zaman kəsimlərində Azərbaycan idealını tam vurğusu ilə qoruyub yaşada biləcəyi qutsal anlayışa çevirdi. İlham Əliyev də energetik passionarlıqla həm tarixi-kulturoloji, həm də hərbi-siyasi kontekstdə həmin idealı ta-



rixin ən dramatik və xaotik dalğalarından zədəsiz çıxarmağa müvəffəq oldu. Ən yeni Azərbaycanın modeli, onun modern fəlsəfəsinin idrakı addım-addım gedilən bu yolların üfüqündə idi. Qafqazın nüvəsindən qalib dövlət kimi doğulan Azərbaycan indi Ali Baş Komandanın əzmi ilə özünü yenidən yaratmaqla, qurmaqla, dünyanın qlobal siyasət meydanında fundamental strateji mövqeyi ilə görünməklə yeniliklərə imza atmaqdadır. Bu fərqli rakurslarla həm də yeni siyasi və milli-mənəvi arxitekturanın əsası qoyulacağı mütləqdir.

*ELNARƏ AKİMOVA,*
*Milli Məclisin deputatı,*
*filologiya elmləri doktoru*

*(əvvəli 10-cu səhifədə)*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 268**

**Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

28.3. 43-cü hissənin adında "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

**29.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 436 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2151 (Cild I); 2024, № 1, maddə 116) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin baytarlıq nəzarəti sahəsində icrası məcburi olan qərarlarının formasının, onların tərtib edilməsi və verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

29.1. 2.1.5-ci yarımbənddən ", yem və yem əlavələrinin" sözləri çıxarılsın.

29.2. həmin Qaydaya 5 nömrəli əlavə — "Qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyatdan keçməyən, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan, saxta, keyfiyyətsiz baytarlıq preparatlarının, yem və yem əlavələrinin qanunla müəyyən edilmiş qaydada götürülməsi və məhv edilməsi haqqında Qərar"da aşağıdakı dəyişikliklər edilsin:

29.2.1. adından ", yem və yem əlavələrinin" sözləri çıxarılsın;

29.2.2. mətnindən ", yem və yem əlavələrinin"sözləri və ", yem və yem əlavələri" sözləri çıxarılsın.

**30.** "Bir pəncərə" prinsipinə əməl edilməklə, ölkəyə idxal olunan qida məhsullarının təhlükəsizlik baxımından yoxlanılması zamanı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı fəaliyyətin tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 noyabr tarixli 485 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2435 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

30.1. adına və 1-ci hissəsinə "qida" sözündən sonra "və yem" sözləri, "məhsullarının" sözündən sonra ", habelə qida məhsulları ilə təmasda olan material və məmulatlarının" sözləri əlavə edilsin;

30.2. 2-ci hissədə "qida təhlükəsizliyi qeydiyyatına aldığı subyektlərə və yeyinti məhsullarına verdiyi qida təhlükəsizliyi sertifikatları" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildirişin, Qida Təhlükəsizliyi Reyestrindən çıxarışın, ixrac edilən qida və yem məhsullarına verilən sağlamlıq sertifikatları" sözləri ilə, "sertifikatlarının (şəhadətnamələrin), habelə sənədlərin" sözləri "sahəsində sənədlərin, habelə onların" sözləri ilə əvəz edilsin;

30.3. həmin Qərarla təsdiq edilmiş "Bir pəncərə" prinsipinə əməl edilməklə, ölkəyə idxal olunan qida məhsullarının təhlükəsizlik baxımından yoxlanılması zamanı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı fəaliyyətin tənzimlənməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

30.3.1. adına, 1.1-ci bəndə və 2-ci hissənin adına "qida" sözündən sonra "və yem" sözləri, "məhsullarının" sözündən sonra ", habelə qida məhsulları ilə təmasda olan material və məmulatlarının" sözləri əlavə edilsin;

30.3.2. 2.1-ci bənddə (hər iki halda) "qida məhsullarının" sözləri "qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlarının" sözləri ilə, "qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlər (bundan sonra - subyektlər), o cümlədən Agentlik tərəfindən qida təhlükəsizliyi qeydiyyatına alınmış və reyestrə daxil edilmiş subyektlər, habelə qida təhlükəsizliyi qeydiyyatına alınmamış subyektlər" sözləri "Qida Təhlükəsizliyi Reyestrinə (bundan sonra - Reyestr) daxil edilmiş qida zənciri subyektləri (bundan sonra – subyektlər)" sözləri ilə əvəz edilsin;

30.3.3. 2.2-ci bənddə "qida məhsullarının idxalatçıları, o cümlədən Agentlik tərəfindən qeydiyyata alınan subyektlərin idxal etdikləri qida məhsullarının" sözləri "qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların" sözləri ilə, "qida məhsulları, qida məhsullarının" sözləri "qida və yem məhsulları, habelə onların" sözləri ilə əvəz edilsin;

30.3.4. aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

"2.4-1. Agentlik "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 20.9-cu maddəsini nəzərə almaqla qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların gömrük sərhədindən keçirilməsini təmin etmək məqsədilə həmin məhsulların idxalına dair elektron bildiriş üzrə məlumatları Komitəyə ötürür.";

30.3.5. 2.5-ci bənddə "Dövlət reyestrində qeydə alınmış və ya reyestrdə olmayan" sözləri "Qida Təhlükəsizliyi Reyestrinə daxil edilmiş" sözləri ilə, 2.5.2-ci yarımbənddə ", gigiyenik və digər sertifikatlar (şəhadətnamələr), sənədlər və ya qarşılıqlı saziş olmayan ölkələrdən gətirilən qida məhsullarının təhlükəsizliyini təsdiq edən və beynəlxalq sazişlər və ya təşkilatlar tərəfindən müəyyən olunmuş nümunəvi formaya əsasən tərtib edilmiş sertifikatlar" sözləri "və digər sertifikatlar (şəhadətnamələr), "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildiriş, Qida Təhlükəsizliyi Reyestrindən çıxarış, sağlamlıq sertifikatı, qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən sənədlər" sözləri ilə əvəz edilsin;

30.3.6. 2.6-cı bənddə "dövlət reyestrində qeydə alınmış subyektlərin və barəsində reyestrdə məlumat olmayan şəxslərin" sözləri "Reyestrə daxil edilmiş subyektlərin" sözləri ilə əvəz edilsin;

30.3.7. 2.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.8. Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlarına idxal sağlamlıq aktının verilməsi ilə bağlı Agentliyin mütəxəssislərinə qida təhlükəsizliyi baxımından nəzarət tədbirlərinin (sənəd nəzarəti, eynilik nəzarəti və fiziki nəzarət) aparılması üçün gömrük orqanları tərəfindən şərait yaradılmalıdır.";

30.3.8. 2.9-cu bənddə "Qida məhsullarına verilən qida təhlükəsizliyi sertifikatlarının" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə əsasən məhsulların istehsal və emal edildiyi qida obyektlərinin təsdiq olunmasına dair Reyestrdən çıxarışların" sözləri ilə, "qida təhlükəsizliyi sertifikatları" sözləri "Reyestrdən çıxarışlar" sözləri ilə əvəz edilsin;

30.3.9. 2.12-ci bəndə, 2.12.1-ci yarımbəndə "qida" sözündən sonra "və yem" sözləri əlavə edilsin;

30.3.10. 2.14-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.14. Gömrük orqanı tərəfindən idxal olunmuş qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara "Yaşıl dəhliz" və digər buraxılış sistemlərini tətbiq etmək məqsədilə məhsulların idxalatçılarının risk qruplaşdırılması aparılarkən Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin həmin idxalatçılara dair təqdim etdiyi risk informasiyası da nəzərə alınır.";

30.3.11. 2.15-ci bəndə (hər üç halda) "qida" sözündən sonra "və yem" sözləri əlavə edilsin;

30.3.12. 2.16-cı bənd ləğv edilsin.

**31.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 mart tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2021, № 3, maddə 299 (Cild I); 2024, № 1, maddə 75, № 10, maddə 1167) ilə təsdiq edilmiş "Ərzaq balansının tərtib olunması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

31.1. aşağıdakı məzmunda 3.3-1-ci bənd əlavə edilsin:

"3.3-1. Ərzaq balansının tərtibi üçün fermerlər və tədarükçülər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalına (tədarükünə) dair məlumatlar ildə bir dəfə, həmin məhsulların yetişdirildiyi istixanalar, saxlanıldığı soyuducu anbarlar və taxıl elevatorları barədə aylıq məlumatlar isə növbəti ayın 10-dək "Elektron Kənd Təsərrüfatı" informasiya sistemi ilə müəyyən edilmiş formada həmin sistemə daxil edilməlidir.";

31.2. 3.4.5-ci yarımbəndə "Azərbaycan Respublikası" sözlərindən əvvəl "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 31.3-cü maddəsinin tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin.

**32.** "Satışı əlavə dəyər vergisindən azad olunan yem və yem əlavələrinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 iyun tarixli 251 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 689 (Cild I); 2024, № 7, maddə 930) aşağıdakı dəyişikliklər edilsin:

32.1. Qərarın adında və 1-ci hissəsində "yem və " sözləri "yem məhsulları və" sözləri ilə əvəz edilsin;

32.2. həmin Qərarla təsdiq edilmiş "Satışı əlavə dəyər vergisindən azad olunan heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin SİYAHISI"nda aşağıdakı dəyişikliklər edilsin:

32.2.1. adında "heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem" sözləri "yem məhsulları" sözləri ilə əvəz edilsin;

32.2.2. I hissədə "Yemlər" sözü "Yem məhsulları" sözləri ilə, 1-ci və 2-ci hissələrdə "yemlər" sözü "yem məhsulları" sözləri ilə əvəz edilsin.

**33.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1252 (Cild I); 2024, № 6 (II kitab), maddə 729) ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların Siyahısı"nın 2-ci hissəsinin 42-ci sətrində "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

**34.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 14 may tarixli 257 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 595) ilə təsdiq edilmiş "Satınalan təşkilatlar tərəfindən ərzaq məhsullarının (dövlət ehtiyatları üçün alınan ərzaq məhsulları istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

34.1. 5.3.5-ci və 6.1.3-cü yarımbəndlərdə "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

34.2. həmin Qaydaya 2 nömrəli əlavə - "Satın alınması nəzərdə tutulan ərzaq məhsulları, həmin məhsulların qiyməti, növü, miqdarı və satınalma şərtləri (o cümlədən satınalma dövriliyi) barədə Elan"ın 3-cü hissəsində "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

**35.** "Yeyinti məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ-hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 16 avqust tarixli 154 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 783 (Cild I); 2024, № 1, maddə 105) ləğv edilsin.

**36.** "Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 iyul tarixli 303 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1637 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Baş nazir Əli Əsədovun “Bakı şəhərinin sosial-iqtisadi inkişafı istiqamətində strateji əhəmiyyətli şəhərsalma təşəbbüslərinin dəstəklənməsi üzrə İşçi qrupun yaradılması haqqında” 15 sentyabr 2025-ci il tarixli sərəncamında Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə paytaxtın simasının əsaslı şəkildə dəyişdiyi, onun beynəlxalq miqyasda daha geniş tanındığı və turistlər üçün cəlbedici məkanlardan birinə çevrildiyi bildirilir.**

Sənəddə, eyni zamanda Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli Qərarı ilə təsdiqlənən “Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı”nda paytaxtın müasir şəhərsalma prinsipləri əsasında daha da inkişaf etdirilməsinin, rahat və inklüziv yaşayış mühitinin yaradılmasının, sosial və mədəni həyatın inkişafına xidmət edən məkanların formalaşdırılmasının nəzərdə tutulduğu vurğulanır.

Baş nazirin imzaladığı sərəncamda daha sonra diqqətə çatdırılır ki, Baş Plana uyğun yenidən qurulması nəzərdə tutulan ərazilərin inkişafı üzrə müəyyənləşdirilən hədəflər yerli və xarici investorların əlavə marağına səbəb olub, bununla bağlı konkret investisiya təkliflərinin irəli sürülməsi təşviq edilib. Eyni zamanda Bakı şəhərində dayanıqlı və inklüziv şəhər inkişafını reallaşdıran müasir şəhərsalma təşəbbüslərinə, o cümlədən çoxmərkəzli şəhər və şəhər içində şəhər konsepsiyalarına əsaslanan layihələrə investisiyaların cəlb edilməsi, bu növ layihələrin həyata keçirilməsi niyyətini bildirən sərmayədarlara layihələrin reallaşdırılmasına aidiyyəti dövlət qurumları tərəfindən dəstək göstərilməsi, eləcə də onun müvafiq institusional çərçivə vasitəsilə əlaqələndirilməsi məqsədilə İşçi Qrupun yaradılması qərara alınıb.

Bu məqamda xatırlatmaq yerinə düşər ki, Bakı şəhərinin 2040-cı ilədək olan dövrünü əhatə edən və dayanıqlı inkişaf, tarixi irsin qorunması və “yaşıl” enerjiyə keçid kimi mühüm prinsipləri özündə birləşdirən, eləcə də paytaxt ərazilərinin nizamlı inkişaf prioritetlərini müəyyənləşdirən Baş Plan uzunmüddətli, strateji və konseptual bir sənəddir.

Baş Planın layihəsi Almaniyanın nüfuzlu “AS+P”, Birləşmiş Krallığın “Ramboll”, “EY Advisory” şirkətləri və Bakı Dövlət Layihə İnstitutunun mütəxəssisləri tərəfindən hazırlanıb. Müstəqillik dövründə paytaxtımızın inkişafına dair bu ilk sənəddə şəhərin 212,3 min hektar ərazisi əhatə olunub və inkişaf hədəfləri 3 milyon 170 min nəfərə yaxın əhalinin tələbatları nəzərə alınmaqla müəyyənləşdirilib.

Qeyd edək ki, Baş Planda Bakının inkişaf konsepsiyası 4 prioritetə – şəhərin dayanıqlı inkişafı, ətraf mühitin regenerasiyası, paytaxtın tarixi – memarlıq siması, tarixi irsin qorunması və bu ərazidə yeni şəhər iqtisadiyyatının yaradılmasına əsaslanır. Sənədin təməl prinsiplərindən biri şəhərin dayanıqlı və tarazlı inkişafının gerçəkləşdirilməsidir. Bu prinsipin həyata keçirilməsi üçün paytaxtın çoxmərkəzli inkişafı əsas prioritetdir. Bundan məqsəd isə əsas mərkəzdəki yükün (sıxlığın) digər regional mərkəzlərə yönləndirilməsi ilə Bakının bütün ərazilərinin dayanıqlı, tarazlı inkişafını təmin etməkdir.

## Günün sualı

# Sabahın Bakısı necə olacaq?



## *Paytaxtın tarixi siması qorunacaq, rahatlığı və gözəlliyi yüksəldiləcək*

Baş Planda ətraf mühitin bərpası ilə əlaqədar layihələrin həyata keçirilməsi ikinci prioritet kimi nəzərdə tutulub. Bu məqsədlə külək və günəş enerjisi üçün infrastrukturun yaradılması, çirklənmiş göl və torpaqların təmizlənməsi, “yaşıl” hibrid dəhlizlərin, yaşıllıqların salınması qərara alınıb. Layihədə, eyni zamanda Böyükşor, Xocasən, Zığ və Bülbülə göllərinin təmizlənməsi və onların ətrafında rekreasiya, mühafizə zonalarının yaradılması planlaşdırılıb. “Yaşıl” hibrid dəhlizlərin isə həm şəhərdaxili, həm də xarici ərazilərdə salınacağı və şəhər mərkəzlərini əlaqələndirəcəyi nəzərdə tutulub. Bu dəhlizlər vasitəsilə velosiped və piyada yolları, istirahət məkanları və digər “yaşıl” infrastruktur elementlərinin birləşdirilməsi qarşıya əsas vəzifələrdən biri kimi qoyulub.

Bakı tarixi şəhər olduğu üçün zəngin memarlıq irsinə malikdir. Buna görə də paytaxtın gələcək inkişafının, tikinti-abadlıq işlərinin şəhərin tarixi irsinə xələl gətirilmədən aparılması Baş Planda üçüncü prioritet olaraq diqqətə çatdırılır və bununla bağlı konkret həll yolları təklif edilir. Nəzərə alınmalıdır ki, ölkədə 6 mindən çox qeydiyyata alınmış tarixi memarlıq abidəsi varsa, onların 1600-dən çoxu Bakı şəhərində yerləşir. Bunlardan UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş “İçərişəhər” Dövlət Tarix Memarlıq Qoruğu da daxil olmaqla 614 abidə məhz Bakının tarixi mərkəzinin payına düşür. Ona görə şəhərin bu hissəsi xüsusi mühafizə olunan bir zona kimi təklif edilir və orada xüsusi rejimin tətbiq olunacağı nəzərdə tutulur.

Yuxarıda xatırlatdığımız kimi, İçərişəhər UNESCO-nun dünya irsi siyahısına daxil olunmaqla, paytaxtın tarixi dəyərinin beynəlxalq səviyyədə tanındığını təsdiqləyir. Lakin sürətli tikinti və urbanizasiya prosesi bu irsin qorunmasını çətinləşdirir. Baş Planın mühüm istiqamətlərindən biri məhz “İçərişəhər”in, eləcə də digər tarixi məkanların mühafizəsidir. Burada söhbət təkcə mövcud abidələrin qorunmasından deyil, həm də şəhər kimliyinin saxlanılmasından gedir.

Yeni plan şəhərin tarixi mərkəzində və qədim məhəllələrində bərpa və mühafizə işlərini gücləndirməyi də nəzərdə tutur. Bu, bir tərəfdən turizm sektoruna əlavə imkanlar açır, digər tərəfdən isə gələcək nəsillərə milli kimliyi əks etdirən unikal urbanistik mühit ötürür. Beləliklə, paytaxtımız həm modern meqapolis, həm də qədim tarixlə yaşayan şəhər olaraq öz unikal simasını qoruyur.

Bakı şəhərinin Baş Planının 4-cü prioriteti isə şəhərin bundan sonrakı iqtisadiyyatının hansı sektorlar əsasında inkişaf etdiriləcəyi məsələsini əhatə edir. Aydındır ki, ağır sənaye, xüsusən neft və kimya sənayesi paytaxtdan kənarda inkişaf etdirilməlidir. Ona görə də bunun üçün müasir tendensiyalar təhlil edilərək potensial ərazilər müəyyənləşdirilib. Yeri gəlmişkən, artıq bir çox sənaye müəssisələri dəniz limanı daxil olmaqla Ələt Azad İqtisadi Zonasına köçürülüb və inkişaf etdirilir. Şəhərin həmin hissəsinin, ilk növbədə, logistik mərkəz kimi inkişaf etdiriləcəyi planlaşdırılıb.

Göründüyü kimi, Bakının Baş Planının əsasında dayanıqlı inkişaf konsepsiyası dayanır. Sürətli urbanizasiya nəticəsində şəhər getdikcə artan əhali və nəqliyyat sıxlığı, eləcə də ekoloji yüklənmə ilə üzləşir. Bu baxımdan, planın əsas hədəflərindən biri funksional zonalaşmanı təmin etməkdir. Yəni yaşayış, sənaye, logistika, sosial xidmət və istirahət məkanlarının bir-birini tamamlayan şəkildə inkişafı diqqətdə saxlanılmalıdır. Dünya təcrübəsinə əsasən, belə bir yanaşma həm insanların gündəlik həyatını asanlaşdırır, həm də şəhərin planlı şəkildə genişlənməsini reallaşdırır.

Ekoloji dayanıqlıq Baş Planın mərkəzi sütunlarından biridir. Belə ki, şəhərdə avtomobil sıxlığının azalması üçün alternativ nəqliyyat vasitələrinin – metro, avtobus şəbəkəsi, elektrik nəqliyyatı və velosiped yollarının genişləndirilməsi nəzərdə tutulur. Eyni zamanda yeni parklar, yaşıllıq zolaqları və ekoloji qoruqların yaradılması da paytaxtın hava keyfiyyətini yaxşılaşdırmağa xidmət edir.

Onu da deyək ki, Azərbaycanın son illərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, eləcə də Naxçıvan bölgəsində “yaşıl enerji zonaları” yaratmaq təşəbbüsü Bakıya da birbaşa təsir edir. Baş Planda paytaxtda alternativ enerji mənbələrindən – günəş və külək enerjisindən istifadənin genişləndiriləcəyi nəzərdə tutulur. Belə bir şəraitdə həm elektrik enerjisi istehsalında şaxələndirmə təmin edilir, həm də karbon emissiyaları azalır.

Ümumiyyətlə, paytaxtın kommunal xidmətlərinin, nəqliyyat şəbəkəsinin və sosial infrastrukturun genişləndirilməsi yalnız əhalinin rahatlığını deyil, həm də iqtisadi dinamizmi artırır. Bununla yanaşı, Baş Plan şəhərin dayanıqlı enerji mənbələrinə keçidini də nəzərdə tutur. Bu, Azərbaycanın ümumi “yaşıl enerji” strategiyası ilə üst-üstə düşür və paytaxtın ekoloji yükünü əhəmiyyətli dərəcədə azaltmaq potensialına malikdir.

Baş Plan yalnız şəhərsalma layihəsi deyil, həm də sosial-iqtisadi inkişafın strateji yol xəritəsidir. Yeni iş yerlərinin yaradılması, xidmət sektorunun genişləndirilməsi və turizmin inkişafı ilə yanaşı, Bakı regional innovasiya və texnologiya mərkəzinə çevrilmə hədəfini daşıyır. Şəhərin müasir təhsil, səhiyyə və mədəniyyət infrastrukturu genişləndikcə, burada həyat keyfiyyəti yüksələcək, paytaxt beynəlxalq investorlar üçün daha da cəlbedici olacaq.

Eyni zamanda plan çərçivəsində şəhər əhalisinin sosial ehtiyaclarının təmin olunması xüsusi önəm daşıyır. Yaşayış massivlərinin genişləndirilməsi, yeni məktəb və xəstəxanaların tikintisi, sosial xidmətlərin əlçatanlığının artırılması insanların gündəlik həyatında əhəmiyyətli rol oynayacaq.

Bakı şəhərinin 2040-cı ilədək Baş Planı Azərbaycanın müasir inkişaf konsepsiyasının tərkib hissəsi kimi strateji əhəmiyyətə malikdir. Bu sənəd şəhərin planlı genişlənməsini gerçəkləşdirməklə yanaşı, ekoloji tarazlığı qorumağı, tarixi irsi gələcək nəsillərə ötürməyi və dayanıqlı sosial-iqtisadi inkişafı hədəfləyir.




Baş Plan, eyni zamanda, paytaxt Bakının gələcəkdə Cənubi Qafqazın, eləcə də Xəzəryanı regionun ən inkişaf etmiş və “yaşıl” texnologiyalara əsaslanan meqapolislərindən birinə çevrilməsini mühüm vəzifə kimi qoyur. Bütün bunlar isə gələcəkdə Bakının təkcə iqtisadi güc mərkəzi deyil, həm də tarixi və müasirliyin harmonik vəhdətini təcəssüm etdirən unikal şəhər nümunəsi olacağı əminliyi yaradır.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Son illərdə paytaxtımızın şəhərsalma prinsipləri əsasında inkişafına xüsusi diqqət yetirilir. Bununla bağlı normativ-hüquqi baza təkmilləşdirilir, dövlət idarəetməsi müasir çağırışlara uyğunlaşdırılır, şəhərsalma və tikinti sahəsində normativ-metodoloji təminat yaradılır və normayaratma fəaliyyəti gücləndirilir. Bütün bunlarla bərabər, Bakıda bina və qurğuların memarlıq planlaşdırma həllərinin şəhərsalma və tikinti normalarına uyğun işlənməsinə nəzarət artırılır.

Qeyd edim ki, Bakının yeni Baş Planının qəbul edilməsi isə hazırda indi sadaladığım məsələlərin həllinə təkan verir. Buna baxmayaraq, sürətli urbanizasiya nəticəsində şəhər getdikcə artan əhali və nəqliyyat sıxlığından, eləcə də ekoloji yüklənmə ilə üzləşdiyindən çox əziyyət çəkir. Ona görə də Bakıda yaşayış, sənaye, logistika, sosial xidmət və istirahət məkanlarının bir-birini tamamlayan şəkildə inkişafı qarşıda önəmli vəzifə kimi durur. Belə bir yanaşmanın gerçəkləşdirilməsi isə yaxın gələcəkdə insanların gündəlik həyatını asanlaşdırmaqla bərabər, paytaxtın planlı şəkildə genişlənməsi reallığına böyük əminlik yaradır.

Burada bir məqamı xüsusi vurğulayım ki, belə bir məsələ – urbanizasiya prosesi yalnız paytaxtımızda deyil, həm də qlobal miqyasda ciddi narahatlıq doğurur. Çünki dünya əhalisinin yarıdan çoxu şəhərlərdə yaşayır və bu göstərici artmaqda davam edir. Bu da, öz növbəsində, “yaşıl” sahələrin və biomüxtəlifliyin azalmasına gətirib çıxarır. Belə ki, urbanizasiyanın genişlənməsi ilə infrastruktura olan tələbat artır, nəticədə istixana qazlarının 70 faizdən çox hissəsi məhz şəhərlərdə atmosferi ağırlaşdırır. Yaxud, tikinti sektoru ətraf mühitə birbaşa təsir edən sahədir və karbon emissiyalarının 37 faizdən çoxu bu sektorun payına düşür. Bu səbəbdən də sürətli iqlim dəyişikliyi şəhərimizin müasirləşdirilməsində və idarə edilməsində əsaslı dəyişikliklər tələb edir.

Azərbaycanda da dayanıqlı şəhərlərin qurulması, enerjiyə qənaət edən binaların inşası, bərpaolunan enerji mənbələrinin tətbiqi qarşıda duran əsas prioritetlərdəndir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi əsas istiqamətlərdən biridir.

# Mərkəzi Bankda mətbuat konfransı

**Azərbaycan Mərkəzi Bankında (AMB) dünən keçirilən mətbuat konfransında cari əməliyyatlar balansı, pul baratları, birbaşa xarici investisiyalar, strateji valyuta ehtiyatlarının vəziyyəti və s. bağlı məlumatlar açıqlanıb.**

AMB-nin Baş direktoru Vüqar Əhmədov bildirib ki, 2025-ci ilin ilk yarısı üzrə cari əməliyyatlar balansının profisiti Mərkəzi Bankın proqnozlarını doğruldur. Onun sözlərinə görə, hesabat dövründə cari əməliyyatlar hesabının profisitinin Ümumi Daxili Məhsula (ÜDM) nisbəti 6,4 faiz təşkil edib ki, bu da müsbət dinamikanı göstərir.

“İyul ayında verilmiş proqnozlara əsasən, 2025–2026-cı illərdə cari əməliyyatlar balansının profisiti 3–4 milyard ABŞ dolları ətrafında olacaq. Növbəti iclaslarda əlavə dəqiqləşdirmələr edilə bilər, lakin ciddi korreksiya gözlənilmir”, – deyə Vüqar Əhmədov vurğulayıb.

AMB-nin Statistika Departamentinin direktoru Samir Nəsirov qeyd edib ki, cari ilin ilk yarısında pul baratları formasında ölkəyə daxil olan vəsaitlərin həcmi 533,9 milyon ABŞ dolları olub. Bunun 214 milyon dolları Rusiyadan, 87,8 milyon dolları Türkiyədən, 52,1 milyon dolları ABŞ-dan, 18,8 milyon dolları Böyük Britaniyadan, 18,6 milyon dolları isə Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) daxil olub.

Eyni zamanda Azərbaycandan xarici ölkələrə göndərilən pul baratlarının ümumi həcmi 1 milyard 349 milyon dollar təşkil edib. Ən çox vəsait Türkiyəyə (68 milyon dollar), ABŞ-a (40 milyon dollar), Rusiyaya (22,1 milyon dollar), Gürcüstana (13,9 milyon dollar) və Böyük Britaniyaya (12,3 milyon dollar) yönəldilib.




Mətbuat konfransında, həmçinin birbaşa xarici investisiyalarla bağlı göstəricilər açıqlanıb. 2025-ci ilin yanvar–iyun aylarında Azərbaycan iqtisadiyyatına daxil olan birbaşa xarici investisiyaların həcmi, təxminən, 3,2 milyard ABŞ dolları olub. İlk yarımildə ölkəyə ən çox investisiya yatıran ölkələr Böyük Britaniya (806 milyon dollar), Türkiyə (629 milyon dollar), Kipr (353 milyon dollar), İsveçrə (226 milyon dollar) və İran (176 milyon dollar) olub.

Azərbaycanın xarici ölkə iqtisadiyyatlarına yatırımları isə 3,4 milyard dollar təşkil edib. Ən böyük investisiya qoyuluşları İsrail (542 milyon dollar), Türkiyə (177 milyon dollar), BƏƏ (156 milyon dollar), Gürcüstan (77 milyon dollar) və ABŞ-a (77 milyon dollar) yönəldilib.

Departament rəhbəri, həmçinin qeyd edib ki, 2025-ci ilin ilk altı ayında ölkənin strateji valyuta ehtiyatları 6,7 milyard dollar artaraq 77,7 milyard dollara çatıb. Hesabat dövründə neftin orta qiyməti 70,7 dollar, qazın satış qiyməti isə min kubmetrə görə üzrə 301 dollar təşkil edib.

***XQ***

# Xəzərdən Aralıq dənizinə neft körpüsü

## *23 il əvvəl Səngəçalda qoyulan təməl Azərbaycan neftinə etibarlı marşrut açdı*

**Xəzər regionundan dünyaya qapı açan Bakı – Tbilisi – Ceyhan (BTC) əsas ixrac boru kəməri uzun illərdir ki, Azərbaycanla yanaşı, bir sıra ölkələrində enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verir. Azərbaycanın neft strategiyasının təntənəsi olan bu nəhəng ixrac marşrutunun təməli 23 il əvvəl, 2002-ci il sentyabrın 18-də qoyulub. Həmin gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Türkiyə Prezidenti Əhməd Necdət Sezər və Gürcüstan Prezidenti Eduard Şevardnadzenin iştirakı ilə Səngəçal terminalında təntənəli mərasim keçirilib.**

Təməlqoyma mərasimi zamanı torpağa basdırılan "Zaman kapsulu"nda gələcək nəsillərə ünvanlanmış müraciətdə qeyd olunurdu: "…Ölkələrimizin milli mənafelərindən çıxış edərək, böyük qürur duyğusu ilə bütün dünyaya bəyan edirik ki, XXI əsrin ilk illərində regionda ən nəhəng layihə olan, Xəzər və Aralıq dənizlərini birləşdirən neft boru kəmərinin çəkilməsi dövlətlərimizin, hökumətlərimizin birgə uğurlu səyləri nəticəsində artıq reallığa çevrilir. Əminik ki, Bakı – Tbilisi – Ceyhan Boru Kəməri layihəsinin gerçəkləşməsi ülvi amallara xidmət edərək regionun simasını dəyişdirəcək, siyasi iqlim sabitləşəcək, iqtisadi inkişafa ciddi təkan verəcək, xalqlarımızın rifahı yüksələcəkdir".

Ölkəmizi Cənubi Qafqaz regionunun liderinə çevirən bu nəhəng enerji dəhlizi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"nin mühüm istiqamətlərindən birini də Xəzərin Azərbaycan sektorunda xarici şirkətlərlə birlikdə hasil olunan neftin nəqlini və dünya bazarına ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrtukturunun yaradılması təşkil edirdi. Ümummilli liderimiz bu vacib məsələdə qətiyyət nümayiş etdirərək Azərbaycan neftini Aralıq dənizi vasitəsilə dünya bazarına çıxaracaq Bakı – Tbilisi – Ceyhan boru kəməri ideyasını irəli sürdü. Həmin ideyanı qəbul etmək istəməyən bəzi qüvvələrin cidd-cəhdlərinə baxmayaraq, Heydər Əliyevin səyi və gərgin keçən danışıqlar prosesinin məntiqi nəticəsi olaraq bu layihə həyata vəsiqə aldı. Bunun davamı olaraq ATƏT-in 1999-cu il noyabr ayının 18-də İstanbulda keçirilən sammiti zamanı BTC-nin çəkilişi ilə bağlı bəyannamə imzalandı.




Ulu öndər Heydər Əliyev imzalanma mərasimindəki çıxışında səsləndirdiyi "Mən Bakı – Tbilisi – Ceyhan kəmərinin böyük gələcəyinə inanıram. İnanıranm ki, bu neft borusunun tikilməsi və ondan gələcəkdə istifadə edilməsi ölkələrimiz arasında dostluq, əməkdaşlıq, qardaşlıq əlaqələrini daha da yüksəklərə qaldıracaq" fikri isə layihəyə verilmiş ən yüksək qiymət idi. Beləliklə, "Üç dənizin əfsanəsi" adlandırılan və minilliyin ən böyük neft ixracı marşrutlarından sayılan BTC layihəsinin reallığa çevrilməsi üçün hüquqi baza yaradıldı. Bundan sonra isə layihənin bəzi detallarının dəqiqləşdirilməsi, lazımi maliyyə mənbələrinin müəyyənləşdirilməsi ilə bağlı danışıqlara başlanıldı.

Kəmərin inşası üçün tanınmış podratçı şirkətlə müqavilə imzalandıqdan sonra 2003-cü ilin fevral ayında tikinti işlərinə başlanıldı. Azərbaycan, Gürcüstan və Türkiyə ərazisində misli görünməmiş tikinti-quraşdırma işlərinin eyni anda aparılması layihənin icrasını xeyli sürətləndirdi. Nəhayət, 2004-cü ilin oktyabr ayında kəmərin Azərbaycan və Gürcüstan hissələri birləşdirildi.

Ulu öndər Azərbaycan neftinin BTC kəməri ilə dünya bazarlarına çıxarılmasını görə bilməsə də, müəllifi olduğu bu nəhəng enerji layihəsi onun siyasi kursunun layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində reallığa çevrildi. Təsadüfi deyil ki, İlham Əliyev Azərbaycanın Baş naziri kimi fəaliyyətinin ilk günlərində, 2003-cü il avqustun 11-də BTC-nin Azərbaycan hissəsində, Bakı yaxınlığındakı Umbakı ərazisində aparılan tikinti işləri ilə tanış olaraq tövsiyə və tapşırıqlarını verib.

2004-cü ilin oktyabrında Azərbaycanın Ağstafa rayonunun Böyük Kəsik kəndində, Gürcüstanın Qardabani rayonu ilə sərhəddə BTC kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin birləşdirilməsi mərasimi keçirilib. "Qızıl qaynaq" adlanan bu mərasimdə hər iki ölkənin dövlət başçıları kəmərin Azərbaycan və Gürcüstan hissələrini rəmzi olaraq qaynaqlayaraq birləşdiriblər.

2005-ci il mayın 10-da ulu öndər Heydər Əliyevin doğum gününə hədiyyə olaraq Səngəçal terminalındakı BTC baş nasos stansiyasının neftlə doldurulmasına start verilib. Ayın 25-də isə terminalda Azərbaycan, Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə keçirilən mərasimdə neftin boru kəmərinə vurulmasına başlanılıb. Həmin gün burada quraşdırılmış xüsusi qurğudakı sürgü açıldıqdan sonra kəmərlə ilkin neft axmağa başlayıb. Oktyabrın 25-də isə kəmərin Gürcüstan hissəsinin istifadəyə verilməsi münasibətilə bu ölkənin Qardabani rayonunda yerləşən 1 nömrəli nasos stansiyasının ərazisində təntənəli mərasim keçirilib.

BTC kəməri ilə nəql edilən xam neft 2006-ci il mayın 28-də Türkiyənin Ceyhan terminalına çatıb. XXI əsrin ən böyük enerji layihələrindən sayılan BTC-nin təntənəli açılış mərasimi isə iyulun 13-də Türkiyənin Ceyhan şəhərində keçirilib. 1768 kilometr uzunluğunda olan BTC boru kəməri istismara veriləndən 2025-ci ilin 2-ci rübünün sonunadək, ümumilikdə, 605 milyon ton (4,6 milyard bareldən çox) xam neft nəql edib. Həmin neft həcmləri Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan limanında 6007 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### *Ekspert rəyi*



**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

Bakı – Tbilisi – Ceyhan neft kəməri beynəlxalq aləmlə, daha dəqiq desək, xarici dünya ilə birbaşa təmasımızın təməlini qoydu. Çünki Ceyhan limanından çıxan Azərbaycan nefti heç bir dövlətin infrastrukturundan və ya hansısa qarşıdurma vəziyyətində olduğu ölkələrdən asılı olmadan, birbaşa dünya bazarına çıxış əldə etdi. Azərbaycanın strateji obyekt kimi dəyərləndirdiyi BTC qapalı Xəzər hövzəsi ilə bütün dünya bazarlarına asan çıxışı olan Aralıq dənizi arasında ilk birbaşa əlaqədir.

Əslində, Bakı–Tbilisi–Ceyhan marşrutu 5 alternativ layihə arasından Azərbaycanın strateji seçimi oldu. Bu, Heydər Əliyevin siyasi iradəsi, bütün maneələri dəf edərək qərarını həyata keçirməsi nəticəsində mümkün oldu. 1999-cu ildə müqavilə imzalanaraq rəsmi şəkildə bu marşrutun seçildiyi təsdiqləndi.

Lakin kəmərin tam istismara verilməsinə qədər Azərbaycan ağır sınaqlardan keçdi. Layihənin ekoloji sənədlərinin hazırlanması, maliyyə institutları ilə uzunmüddətli danışıqlar ölkəmizə ciddi çətinliklər yaşatdı. Həmin layihəni maliyyələşdirmək üçün bizə son dərəcə ağır kredit şərtləri irəli sürülmüşdü. Yalnız 2003-cü ildə maliyyə məsələləri həll olundu, çətinliklər dəf edildi. Artıq beynəlxalq maliyyə institutları razılıq verdilər: layihənin dəyərinin 30 faizi şirkətlərin öz investisiyaları, 70 faizi isə xarici borc hesabına qarşılandı.

Bu miqyasda layihələri reallaşdırmağa qadir olduğunu nümayiş etdirən Azərbaycan dünyaya göstərdi ki, istənilən maneəyə baxmayaraq, öz hədəflərinə nail ola bilir. Bu kəmər nəinki Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına imkan yaratdı, sonrakı illərdə həmçinin İpək yolunun və enerji ilə zəngin türkdilli dövlətlərin də ixrac magistral kəməri kimi gündəmə gəldi. Türkmənistan və Qazaxıstanda hasil edilən neftin bir hissəsi dünya bazarına məhz BTC vasitəsilə çıxarılır. Regionda enerji ixracının başlıca arteriyası hesab olunan bu boru kəməri Xəzər dənizinin zəngin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasında mühüm rol oynayır.

Eyni zamanda boru kəmərinin Bosfor və Dardanel boğazlarından yan keçməsi tranzit ölkələr üçün mühüm gəlirlərin əldə olunmasına imkan yaradaraq neft daşımalarının artımının və əlaqədar ekoloji risklərin azalmasına kömək edir. Bununla yanaşı, Azərbaycan, Gürcüstan, Türkiyə və Qərb ölkələri arasında siyasi və iqtisadi əlaqələrin güclənməsinə dəstəyini davam etdirir.



# Dövlət satınalmaları sahibkarlar üçün təminatlı bazardır

## *Özəl bölmə bu imkandan necə faydalanır?*

**Regionlarda istehsal və təchizat fəaliyyəti ilə məşğul olan sahibkarların qarşısında önəmli hədəflərdən biri məhsul və xidmətlərə bazar əldə etməkdir. Dövlət satınalmaları bazarına yol açan yeni hüquqi çərçivə belə əlçatanlıq imkanı yaradır. Bəs bu imkanlardan kütləvi və səmərəli istifadə üçün hansı şərtlər yerinə yetirilməlidir?**

2024-cü il 1 yanvar tarixindən qüvvəyə minən "Dövlət satınalmaları haqqında" Qanunun məqsədi satınalmaların şəffaf, ədalətli və rəqabətə açıq şəkildə aparılmasının təmin edilməsidir. Qanunun hazırlanması və qəbul prosesi nəticəsində mikro, kiçik və orta sahibkarlığın (MKOSS) dövlət sifarişlərinə çıxış imkanları hüquqi əsasla genişləndirildi. Bu dəyişiklik dövlət vəsaitlərinin səmərəli istifadəsi prinsiplərinə yönəlik addım hesab olunur.

Hüquq və prosedurların yenilənməsi ilə yanaşı, praktiki islahatlara tələbat da artıb. Elektron platformaların ilkin tətbiqi satınalma prosesini rəqəmsallaşdıraraq şəffaflığı yüksəltməyi hədəfləyir, amma reallıqda bu platformaların məzmunu və istifadə qaydaları ilə bağlı sahibkarların maarifləndirilməsinə ehtiyac qalır. Həmin platformalar üzərindən əməliyyat aparmaq texniki bacarıq, vaxt və inzibati resurs tələb edir. Bölgələrdə fəaliyyət göstərən çoxsaylı kiçik müəssisə üçün bu tələb maneə rolunu oynaya bilər.

Hesablama Palatasının monitorinq materialları satınalma proseslərinin planlaşdırma, keçirilmə və müqavilə icrası mərhələlərində çatışmazlıqların mövcudluğunu göstərir. Audit hesabatlarında müəyyən edilən əsas problemlər sırasına qiymət fərqləri, tender sənədlərinin uyğunluğu məsələləri və müqavilə icrasında nöqsanlar daxildir. Bu tapıntılar qanunun tətbiqinin yalnız formal səviyyədə qalmaması üçün hansı əlavə nəzarət və təkmilləşdirmə mexanizmlərinin tələb olunduğu sualını gündəmə gətirir.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin rolu bazarda rəqabətin qorunması və haqsız rəqabət hallarının qarşısını almaqdan ibarətdir. Agentliyin fəaliyyət istiqamətləri arasında satınalma proseslərində antimonopol nəzarətin təşkili də yer alır; bunun nəticəsi olaraq həm bazar iştirakçılarının hüquqları, həm də qlobal standartlara uyğun rəqabət şəraiti möhkəmləndirilə bilər. Təcrübə göstərir ki, bu institutlarla dialoq gücləndirilsə, region sahibkarlarının rəqabət qabiliyyəti real nəticələrə çevrilə bilər.

Bütün bu addımların uğurlu tətbiqi üçün əsas resurslardan biri daimi təlim infrastrukturudur. Regionlarda müntəzəm seminar və praktik məşğələlərin təşkili, yerlərdə ekspert qruplarının formalaşdırılması və onlayn dəstək-kanallarının yaradılması sahibkarların bacarıqlarını artırar. Həmçinin audit nəticələrinin açıq müzakirələr vasitəsilə təhlili yerində islahatların prioritetləşdirilməsinə kömək edər. Hesablama Palatasının və əlaqədar qurumların tövsiyələri bu prosesin strukturunu formalaşdırmaq üçün əhəmiyyətli bazadır.

Nəticə olaraq, hüquqi platformanın mövcudluğu ilkin uğurdur. Lakin bu uğurun davamlı nəticəyə çevrilməsi üçün praktiki alətlər, təlim imkanları və institusional dəstək tələb olunur. Dövlət satınalmalarına çıxış imkanları region sahibkarları üçün gəlirin artırılması və yerli istehsalın möhkəmlənməsi baxımından strateji əhəmiyyət daşıyır. Qarşıda duran əsas sual bu imkanı kütləviləşdirmək üçün hansı prioritet addımların dərhal atılacağıdır — təlim proqramları hansı vaxt cədvəli üzrə təşkil olunacaq, pilot mexanizmlər hansı nazirlik və agentliklərlə koordinasiya edilərək icra ediləcək və audit nəticələri əsasında hansı konkret islahatlar həyata keçiriləcək?

***Nurlan ABDALOV***
***XQ***

### *Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisadçı**

2024-cü ildə Prezident İlham Əliyev tərəfindən "Dövlət satınalmaları haqqında" yeni Qanun qəbul edildi. Buna əsasən satınalmalar elektron platforma üzərindən həyata keçirilməyə başlandı, sənədləşmə və prosedurlar tamamilə rəqəmsal müstəviyə keçirildi.

Qanunun məqsədi onun işləkliyini təmin etmək, bu sahədə şəffaflığı artırmaq və neqativ halları aradan qaldırmaq idi. Eyni zamanda, bu qanun sahibkarların dövlət büdcəsi hesabına aparılan satınalmalara çıxış imkanlarını genişləndirmək üçün mühüm və mütərəqqi bir addım oldu. Bu təşəbbüs yerli istehsalçıların və təchizatçıların faydalanması, dövlət investisiyalarının sahibkarlığa yönəldilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Yeni hüquqi platforma qeyri-neft sektorunun inkişafına da əlavə təkan verə bilər. Lakin aparılan təhlillər göstərir ki, qanunun yeniliyi səbəbindən sahibkarlar hələlik bu imkanlardan tam şəkildə yararlana bilmirlər. Çünki bölgələrdə fəaliyyət göstərən bir çox sahibkar sənədləşmə prosesində çətinliklərlə üzləşir, müəyyən bilik və təcrübə çatışmazlığı mövcuddur. Ən ciddi problemlərdən biri isə kadr potensialının yetərsizliyidir ki, bu da sahibkarların proseslərə qoşulmasını əngəlləyir. Məhz bu səbəbdən, İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyi olaraq Azərbaycan Respublukasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi və KOBİA-nın təşkilatı dəstəyi ilə bu istiqamətdə silsilə təlimlər aparırıq. Təlimlər Gəncə, Yevlax, Xaçmazda, Lənkaranda, Şəkidə və Bakıda nəzərdə tutulub. Görüşlərdə sahibkarları maraqlandıran məsələlərlə, qarşılaşdıqları çətinliklərlə bağlı əhatəli cavablar təqdim edilir.

Belə hallarda sahibkarların bu istiqamətdə bilik və bacarıqlarının artırılmasına xüsusi diqqət yetirilməlidir. Yerli səviyyədə maarifləndirici tədbirlər, təlim proqramları və praktik seminarların keçirilməsi vacibdir. Düzdür, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) bu sahədə müəyyən işlər görür, amma mövcud dəstək kifayət qədər deyil.

Sahibkarlara daha geniş dəstək göstərilməsi həm Bakıda, həm də bölgələrdə mikro, kiçik və orta biznes subyektlərinin inkişafına müsbət təsir edə bilər. Xüsusən də, bu kateqoriyadan olan sahibkarların böyük hissəsi yeni platforma barədə yetərincə məlumatlı deyil və hələ də köhnə qaydaların tətbiq edildiyini düşünür. Halbuki yeni elektron sistem şəffaf, çevik və müasir mexanizm kimi nəzərdə tutulub.

Bu platformadan sahibkarların daha fəal istifadəsi ölkədə qeyri-neft sektorunun inkişafına, biznes mühitinin yaxşılaşmasına və ümumilikdə sahibkarlığın möhkəmlənməsinə ciddi töhfə verə bilər.

# "İctimaiyyətlə əlaqələrin əsasları"

**Bu yaxınlarda oxuculara təqdim olunmuş "İctimaiyyətlə əlaqələrin əsasları" adlı tədris vəsaiti sahənin nəzəri və praktik tərəflərini əhatə edən fundamental mənbədir. Müxtəlif qurumlarda çalışan 10-dan artıq müəllifin birgə əməyinin nəticəsi olan kitabda ictimaiyyətlə əlaqələrin tarixi inkişaf mərhələləri, nəzəri yanaşmalar və prinsiplər ətraflı şəkildə təqdim edilib.**




Kitabda dövlət və özəl sektorda auditoriyalarla münasibətlərin təşkili, strateji yanaşmaların işlənməsi, planların və proqramların hazırlanması, böhranlı situasiyalarda idarəetmə yolları xüsusi diqqətlə işlənib. Bununla yanaşı, müasir dövrün tələbləri əsasında sosial medianın imkanları, mətbuatla əməkdaşlıq istiqamətləri, yeni kommunikasiya tendensiyaları, rəqəmsal texnologiyalar və süni intellektin tətbiqi geniş şərh olunub.

Müasir kommunikasiya alətlərinə dair fəsillərdə sosial media platformalarının rolu, rəqəmsal texnologiyaların tətbiqi və süni intellektin kommunikasiya proseslərinə təsiri geniş əksini tapıb. Bu məzmun tələbələrin çağırışlara uyğun peşəkar bacarıqlar qazanmasına və sahə mütəxəssislərinin iş praktikasının zənginləşməsinə yardımçı olacaq.

Ümumilikdə, doqquz fəsildən ibarət vəsait nəzəri yanaşmalarla bərabər, praktik nümunələri də özündə birləşdirir. Ali məktəblərdə jurnalistika, kommunikasiya və idarəetmə ixtisaslarında təhsil alan tələbələr üçün nəzərdə tutulmuş kitab həm də ictimaiyyətlə əlaqələr sahəsində fəaliyyət göstərən mütəxəssislərin gündəlik işində faydalı ola biləcək mənbə xarakteri daşıyır.

Yeni dərs vəsaiti ölkədə bu istiqamətdə aparılan elmi-tədris işlərinin genişlənməsinə, gələcək peşəkarların hazırlığına və praktik biliklərin zənginləşdirilməsinə mühüm töhfə verəcək.

Qeyd edək ki, "İctimaiyyətlə əlaqələrin əsasları" adlı dərs vəsaiti həm də elektron formada oxuculara təqdim edilib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə Bakı Dövlət Universitetinin birgə təşəbbüsü çərçivəsində hazırlanmış bu kitab Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr edilib.

***XQ***

# 18 Sentyabr Üzeyir Musiqi Günüdür

*"...Xalqımızda milli dirçəliş, milli oyanış, milli özünüdərk hisslərinin yaranmasında, formalaşmasında, inkişaf etməsində Üzeyir Hacıbəyovun əsərləri və onun bilavasitə fəaliyyəti böyük rol oynamışdır. Azərbaycanlılar – gənclər, vətəndaşlarımız məhz Üzeyir Hacıbəyovun əsərlərindən ruhlanaraq Vətənimizi daha da çox sevmişlər; onun musiqisini dinləyərək, onun əsərlərindən irəli gələn fikirlərin təsiri altına düşərək hiss etmişlər ki, Vətən, ölkə, millət hər bir insan üçün nə qədər əzizdir, doğmadır..."*

***Heydər ƏLİYEV,***
***Azərbaycan xalqının ümummilli lideri***

## Akademik Üzeyir Hacıbəyli

**Bu il dahi bəstəkarımız Üzeyir Hacıbəylinin 140 illiyi ilə bərabər, Azərbaycan Milli Elmlər Akademiyasının da 80 illik yubileyini qeyd edirik. Hər iki yubileylə bağlı Prezident İlham Əliyev sərəncamlar imzalayıb. Üzeyir bəy bu elm məbədini yaradanlardan biri olub və 1945-ci ildə – akademiya təsis ediləndə həqiqi üzv seçilib. Uzun müddət görkəmli mədəniyyət xadiminin ev-muzeyinin direktoru olmuş jurnalist-musiqişünas Səadət Qarabağlı ilə söhbətimiz Üzeyir bəyin akademik fəaliyyəti barədədir.**



– Əvvəla qeyd edim ki, 1945-ci ilin 27 martında Azərbaycan Elmlər Akademiyasına 15 nəfər ilk həqiqi üzv seçilib, – deyə o bildirdi. – Bunlar Üzeyir bəy Hacıbəyli, Şamil Əzizbəyov, Əli Əlizadə, Səməd Vurğun, Aleksandr Qrossqeym, Heydər Hüseynov, Sadıq Dadaşov, İosif Yesman, Mirzə İbrahimov, Yusif Məmmədəliyev, Mirəsədulla Mirqasımov, Mustafa Topçubaşov, Mirəli Qaşqay, Mikayıl Hüseynov və İvan Şirokoqorov idi. Digərləri kimi, Azərbaycan mədəniyyətinin əsas və sarsılmaz sütunu olan dahi bəstəkar, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq, dirijor, filosof, tərcüməçi, ictimai xadim Üzeyir bəy Hacıbəyli də bu ada tamamilə layiq bir şəxsiyyət olmuşdur.

Ölkəmizin fundamental elmi-tədqiqat və araşdırma mərkəzi sayılan, ən böyük elm ocağı olan AMEA keçmiş SSRİ Xalq Komissarları Sovetinin 23 yanvar 1945-ci il tarixli fərmanına əsasən, həmin il Azərbaycanın hüdudlarından uzaqlarda da böyük nüfuza malik olan məşhur sənətkar akademiyanın fəaliyyətini genişləndirmək məqsədilə ciddi səy göstərirdi. SSRİ Elmlər Akademiyasının aparıcı alimləri ilə tez-tez görüşür, onlarla əlaqə saxlayaraq maraqlı fikir mübadiləsi aparırdı.

AMEA-nın indiki Memarlıq və İncəsənət İnstitutu bilavasitə Ü.Hacıbəylinin təşəbbüsü ilə təşkil olunmuşdur. Bu, elmi araşdırma mərkəzi o zaman sadəcə İncəsənət İnstitutu adlanırdı. İnstituta rəhbərlik də elə böyük bəstəkarın özünə həvalə edilmiş, həmin ildən ömrünün sonuna kimi Üzeyir bəy bu elm ocağının direktoru olmuşdur. 1945-ci ilin sentyabrında Azərbaycan professional musiqi sənətinin banisi Üzeyir bəy Hacıbəylinin anadan olmasının 60, yaradıcılıq fəaliyyətinin 40 illiyinin geniş qeyd edildiyi günlərdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanına əsasən, instituta dahi sənətkarın adı verilmişdir. Yəni özünün sağlığında dünyaşöhrətli bəstəkar çox böyük hörmət və ehtirama layiq görülmüşdür. Təəssüf ki, vəfatından sonra bu elm ocağının adında dəyişiklik edilmiş, akademik Ü.Hacıbəylinin adı oradan götürülmüşdür. Araşdırma mərkəzi sadəcə Memarlıq və İncəsənət İnstitutu adlanmışdır.

Üzeyir bəy Hacıbəyli yorulmaq bilmədən bəstəkarlıq fəaliyyəti ilə yanaşı, elm sahəsində də araşdırmalarını mütəmadi olaraq davam etdirirdi. Musiqişünaslıq sahəsindəki ciddi tədqiqatları nəticəsində "Azərbaycan xalq musiqisinin əsasları" elmi əsəri yaranmışdır. Əsərdə Üzeyir bəy milli musiqi mədəniyyətimizə. estetika elminin tarixinə rövnəq bəxş etmişdir. Tədqiqat əsərini musiqişünas-alim əvvəlcə "Azərbaycan türk xalq musiqisinin əsasları" adı altında işləməyə başlamışdır.

1919-cu ildən araşdırmalara başlayan Üzeyir bəy Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 28 may 1919-cu il tarixli "İstiqlal" qəzetində "Azərbaycan türklərinin musiqisi haqqında" geniş məqaləsini dərc etdirmiş, sonrakı illərdə əsəri daha da təkmilləşdirmişdir. 1934-cü ildə tədqiqatçı alim "Kommunist" qəzetində nəşr etdirdiyi "Mən nə yaradıram" məqaləsində belə yazırdı: "Azərbaycan türk xalq musiqisinin əsasları adında yaratmaqda və üzərində işləməkdə olduğum əsər ən mühüm məsələlərdən biridir. Əsər üzərində mən on ildən artıqdır ki, işləyirəm. Bu müddət içərisində həmin əsərimi əməlli tərcümə və sınanma nəticəsi olaraq bir neçə dəfə dəyişib yeniləşdirmiş və bir çox yerlərini təshih etmişəm. Əsər özü nisbətən kiçik bir şey olsa da, mündəricəsində bəhs edilən məsələlər ümumi musiqi xadimləri üçün əhəmiyyətlidir və "Şərq musiqisi problemlərindən hesab edildiyinə görə elmi və əməli əsaslara müvafiq gəlməsini tələb edir. Bu əsər türk və rus dillərində nəşr ediləcəkdir".

25 ildən artıq üzərində işlənmiş və çox böyük zəhmət bahasına ərsəyə gəlmiş əsər 1945-ci ildə "Azərbaycan xalq musiqisinin əsasları" adı altında əvvəlcə rus, sonra isə Azərbaycan dillərində Azərbaycan Elmlər Akademiyası tərəfindən nəşr olunmuşdur. Kitab çap olunduqdan dərhal sonra Rusiyanın məşhur bəstəkar və musiqişünasları, alimləri tərəfindən hədsiz maraqla qarşılanmışdır. O dövrün SSRİ Xalq artisti bəstəkar R.Qliyer dəyərli kitabın müəllifinə 1945-ci ildə göndərdiyi məktubda yazırdı: "Əziz və hörmətli Üzeyir bəy! "Azərbaycan xalq musiqisinin əsasları" əsəriniz Azərbaycan musiqi sənətinin, deməli, bütün sovet və dünya musiqi sənətinin inkişaf etdirilməsində müstəsna əhəmiyyətə malik olacaqdır. Bu, gözəl kitabın meydana gəlməsi münasibəti ilə Sizi və gənc Azərbaycan bəstəkarlarını səmimi təbrik edirəm. Sizə qəlbən sadiq olan Qliyer".

Tanınmış rus musiqişünası, Şərq musiqisi üzrə görkəmli tədqiqatçı, professor V. Belyayev isə elə həmin ildə Üzeyir bəyə yazırdı: "Çox hörmətli Üzeyir! "Azərbaycan xalq musiqisinin əsasları" kitabınızı aldım. Elə həmin gün, habelə ertəsi gün əsərinizi böyük diqqətlə nəzərdən keçirdim. Kitabla tanış olmağım mənə hədsiz zövq verdi, çox məmnun qaldım. Əsər öz adına tamamilə uyğundur. "Azərbaycan xalq musiqisinin əsasları"nda Azərbaycan musiqi yaradıcılığının kompozisiya əsaslarının həqiqi izahı verilir. Zənnimcə, əsərinizin əsas məqsədi və ən mühüm hissəsi Azərbaycan musiqisi üçün seçdiyiniz ən tipik Azərbaycan ladlarında musiqi bəstələmək qaydalarının şərhindən ibarətdir. Sizin ifadə sisteminiz təlimatı pedaqoji nöqteyi-nəzərdən olduqca səmərəli sistemdir və əsərlərinizi asanlıqla başa düşməyə imkan verir. Şübhəsiz ki, bu əsər oxucuları Azərbaycan xalq musiqisi yaradıcılığı ilə tanış etmək işində böyük rol oynayacaqdır. Dərin hörmətlə,V. Belyayev. 1945-ci il".

Kitab haqqında xalqımızın fəxri, kristalloqraf, geologiya-mineralogiya elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Xudu Məmmədov isə demişdir ki, Üzeyir bəy Hacıbəylinin "Azərbaycan xalq musiqisinin əsasları" kitabı böyük bir dəryadır. Bu qiymətli əsər təkcə Azərbaycan xalq musiqisinin deyil, eyni zamanda bütün elmlərimizin əsasıdır.

İlk nəşrinin 80 ili tamam olan bu kitab səmətşünaslıq və estetika elmlərinin ən böyük müvəffəqiyyətlərindən biridir. 1945-ci ildən bu günə qədər bütün bəstəkarların və musiqişünasların masaüstü kitabı olaraq mühüm əhəmiyyət kəsb edir. Görkəmli bəstəkarımız Tofiq Quliyev 1991-ci ildə Ü.Hacıbəylinin ev-muzeyində olarkən bu əsər haqqında belə demişdir: "Üzeyir bəyin "Azərbaycan xalq musiqisinin əsasları" adlı dərin məzmunlu kitabı bu gün bizim çox dəyərli dərsliyimizdir. Mənim 74 yaşım var. Bu kitabsız mən yaşaya bilmirəm. Həmişə iş zamanı ona əl atıram, ondan öyrənirəm". – Elə buna görə də Tofiq Quliyevin mahnıları xalqın ən sevimli mahnılarıdır. İşıq üzü görməsindən 80 il ötməsinə rəğmən, hələ də bu əsərə ehtiyac duyulur. Ondan sevə-sevə, tükənməz maraqla öyrənirlər və bundan sonra da öyrənəcəklər. Bu, Üzeyir bəy dühasının sirridir.

Ölkəmizdə musiqi məktəbləri, musiqi texnikumu, Azərbaycan Dövlət Konservatoriyası xalq çalğı alətləri notlu orkestri, Dövlət xoru, simli kvartet, simfonik orkestr, mahnı və rəqs ansamblı, sazçı qızlar dəstəsi, bəstəkarlıq məktəbi və Azərbaycan Bəstəkarlar İttifaqı, hətta Dövlət Sirki böyük sənətkar tərəfindən təşkil olunmuşdur. Asəf Zeynallı, Ərtoğrol Cavid, Fikrət Əmirov, Qara Qarayev, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Niyazi, Süleyman Ələsgərov, Əşrəf Abbasov, Hacı Xanməmmədov, Cahangir Cahangirov, Səid Rüstəmov, Ədilə Hüseynzadə, Şəfiqə Axundova, Ağabacı Rzayeva, Hökumə Nəcəfova, Məmməd Cavadov, Əminə Eldarova, başqa bəstəkar və musiqişünaslar qayğıkeş müəllim olan Üzeyir Hacıbəylinin tələbələri idilər. Ondan musiqinin bütün incəliklərinə yiyələnmişdilər. Hamısı da sevimli müəllimlərinə dərin hörmət və ehtiram bəsləyirdilər.

Akademik Ü.Hacıbəyli dərslərini həm konservatoriyada, həm də Azərbaycan EA-nın binasında tədris edirdi. Bəstəkar Hökumə Nəcəfova danışırdı ki, Üzeyir müəllim ömrünün axır illərində dərslərini Kommunist (indiki İstiqlaliyyət – S.Q.) küçəsindəki Elmlər Akademiyasının binasında keçirdi. Musiqi şöbəsi 2-ci mərtəbədə, pilləkəndən çıxanda sol tərəfdəki otaqlarda yerləşirdi. Ora müəllimin evinə, "Monolit"ə yaxın idi. Dərsə piyada gəlib-gedirdi.

AMEA-da fəaliyyət göstərən Memarlıq və İncəsənət İnstitutundakı mütəxəsislər uzun illərdir ki, dahi sənətkarın yaradıcılıq irsini öyrənir, tədqiqat işləri, elmi araşdırmalar aparır, kitablar, monoqrafiyalar çap etdirirlər. Üzeyir bəy Hacıbəyli dərin biliyə malik alim, akademik idi. Onda ilahidən bir qüdrət, fitri istedad vardı. O, yalnız musiqi ilə yox, bütün elmlərlə maraqlanırdı. Bəstəkarın maraq dünyası və bilik dairəsi çox geniş idi. Bu, Üzeyir bəyin şəxsi kitabxanasındakı kitablarla bir daha sübut olunur. Kitabxanada musiqi elmi ilə yanaşı, klassik ədəbiyyat, tarix, siyasi və qədim fəlsəfə, coğrafiya, riyaziyyat, hətta kimya elmlərinə aid çoxlu kitablar, elmi əsərlər mövcuddur.

Hələ XX əsrin əvvəllərində Ü.Hacıbəyli mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin "Türk-rus, rus-türk lüğəti"ni (1907), eləcə də "Hesab məsələləri" (1908) dərsliyini nəşr etdirmişdir. Bu kitablar o dövrdə ilklərdən sayılırdı və hədsiz maraqla qarşılanmışdı. "Hesab məsələləri" məktəblərdə tədris olunurdu. "Türk-rus, rus-türk lüğəti"nə də ehtiyac çox idi. Üzeyir bəy Hacıbəyli 1910-cu ildə özünün nəşr etdiyi "Həqiqət" qəzetində yazırdı: "Bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə bütün xalqa və hətta ümuminsaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cür adamlar nəinki sağlığında, bəlkə öləndən sonra da camaata mənfəət verirlər".

Qeyri-adi zəka sahibi olan mütəfəkkirin hələ keçən əsrin əvvəllərində söylədiyi bu fikirləri tamamilə onun özünə şamil edilməlidir. Çünki XXI əsrdə də xalqımız dahilər dahisi Üzeyir bəy Hacıbəylinin əkdiyi ağacların bəhrəsini görür. Bu müqəddəs insanın, əvəzolunmaz şəxsiyyətin canından çox sevdiyi qədirbilən xalqımız, Azərbaycanımızı dünyaya tanıdan, musiqi, söz, elm xiridarı olan ulu dühamızın xatirəsini daim əziz tutaraq, onun uca sənəti və nəhəng şəxsiyyəti qarşısında ehtiramla baş əyir.

***Söhbəti hazırladı:***
***Əli NƏCƏFXANLI***
***XQ***

## Böyük mütəfəkkirin müdrik fikirləri



**Dahi Üzeyir bəy maarifçilik görüşlərində millətin tərəqqisini məhz maarif, təhsil, elm və mədəniyyətin təşəkkülündə görür, ana dilini öyrənməyin vacibliyinə diqqət çəkirdi. O, hələ XX əsrin əvvəllərində (1905–1912-ci illər) müxtəlif mətbuat orqanlarında çap olunmuş məqalələrində maarif ocaqlarında ana dilində dərs kitablarının yaradılması zərurətini qeyd edir, Şərq və Qərb mədəniyyətlərinin sintezinin xalqın musiqi mədəniyyəti və təhsilinin inkişafında rolunu əsas götürür, ümumbəşəri dəyərlərdən milli təkamül və inkişafda istifadəni vacib sayırdı. Görkəmli mütəfəkkirin həmin məqalələrindən iqtibas edilmiş müdrik fikirlərindən bir qismini təqdim edirik:**

*– "Məktəb açıb bütün elmləri öz ana dilimizdə tədris və təlim etmək indi bizim əməllərimizin ən ümdəsidir. Bu arzunun hasilə gəlməsi üçün biz var qüvvətimizlə çalışmalıyız, zira mədəniyyət (maarif və mədəniyyətin yayılması) üçün yeganə vasitəmiz bir bu təriqdir (yoldur)...".*

*– "Bir yerdə ki elm və maarif olmadı, orada zülm və istibdad hökm-fərma olar...".*

*– "Bizim türk lisanımız (Azərbaycan türkcəsi) Avropa üləma (alim) və filosoflarının rəyinə nəzərən, ən kamil bir dildir ki, onun vasitəsilə insan ən ali fikirlərini və ən dəqiq hisslərini bəyanə qadirdir. Böylə bir zəngin lisanın sahibi olub da, ondan istifadə etməməyin özü böyük bir bədbəxtlikdir...".*

*– "Dilimizi öyrənməliyiz, öz rifah və səadətimiz üçün öyrənməliyiz, öz mədəniyyət və mərifətimiz üçün öyrənməliyiz ki, öz ehtiyacatımızın bəyanına qadir olaq... Öyrənməliyiz ki, Avropanın bütün aləmə car edən ülum (elm) və finünun (fənlərin) hər bir qismi meydanında dahilər çıxardıb, istiqbalımızı (gələcəyimizi) hər cəhətdən təminə çalışaq...".*

*– "Hər bir millətin ki, bəqasına ( varlığına) baş səbəb onun dilidir və dilinin tərəqqisidir. Bir millətin ki, dili batdı, onda o millətin özü də batar".*

*– "İnsan öz dilini bilməyəndə din də gedir, dil də gedir, millət də gedir".*

*– "Müəllimlik vəzifəsi çox çətin və ən məsuliyyətli bir vəzifədir. Hər adamı müəllim bilib uşağı ona tapşırmaq böyük xətadır".*

*– "...Təlimdən başqa, uşağın tərbiyəsi də müəllimin öhdəsindədir...".*

*– "Aşkardır ki, millətimizin gələcəyini təmin edən bizim övlad və əfradimiz (törəmələrimiz) olacaqdır. Ona binaən indidən lazımdır ki, onların tərbiyələri o nəhv (o cür) ilə icra olunsun ki, axırda millət və milliyyət hissi-müqəddəslər ilə məktəbdən çıxıb millətə xidmət etməyi özlərinə borc bilsinlər...".*

*– "...Cəmaətimizin başına gələn bəla və müsibətlərin hamısı cəhalət girdabından ibarətdir. Bu bəla və müsibətlərin törəməsi isə elmsizliyin ucundandır".*

*– "... Kənd camaatı görsə ki, içərilərində olan müəllimlər dərd göstərən və dərman bilənlərdir, şübhəsizdir ki, o müəllimlərə məhəbbət və etibar ilə baxıb kamali-mərifətlə övladlarını onların təhti-tərbiyə və təliminə verərlər..."*

*– "...Lənət olsun o günə ki, maarif və mədəniyyət qapıları bizim üzümüzə bağlanıb, bizi cəhalət və vəhşaniyyət vadisində sərgərdan qoydu..."*

*– "Kitabsızlıq (dərs kitabları) dərdi istər məktəb, mədrəsə şagirdlərimiz üçün istər camaatımız üçün doğrudan da böyük bir dərddir".*

*– "Şərq musiqisindən ibarət olan musiqimizin tərəqqisi yolunda elmi, fənni, nəzəri və əməli surətdə çalışmaq məsələsinin təqib etdiyi böyük məqsəd budur ki, musiqimizin elmi əsaslarını ayırıb tapıb, bu əsaslar üzərində musiqimizin tərəqqisinə çalışmaq və onu həqiqətən nəfis bir sənəti-aliyyə məqamına yetirib, bu yolda ümumi (xalq) üçün yeni bir mənbəyi-zövq və mənşəyi-feyz açmaqla Azərbaycan türkləri tərəfindən mədəniyyət və insaniyyətə xidmətlər göstərmək və s...".*

***XQ***

## Romada Üzeyir Hacıbəylinin şərəfinə yubiley konserti



**Bəşəri musiqilər zamanın, məkanın sərhədlərini aşaraq dünyaya yayılır. Romada, musiqi sənətinin beşiyi sayılan Santa Çeçiliya Dövlət Konservatoriyasında Azərbaycan musiqi mədəniyyətinin banisi, dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunan konsert İtaliyada Azərbaycan mədəniyyəti üçün yeni səhifə açdı.**

Azərbaycanın Mədəniyyət Nazirliyi, ölkəmizin İtaliyadakı səfirliyi və Santa Çeçiliya Konservatoriyasının birgə təşkilatçılığı ilə keçirilən yubiley konserti İtaliyanın mədəniyyət və akademik dairələrinin, diplomatik korpusun və soydaşlarımızın böyük marağına səbəb olub. Mədəniyyət Mərkəzinin direktor müavini Gülnar Tağızadə konsertin Mədəniyyət Nazirliyinin təşkil etdiyi XVII Beynəlxalq Musiqi Festivalı çərçivəsində keçirildiyini vurğulayıb.

Çıxış edənlər Üzeyir bəyin Azərbaycan musiqisinin inkişafına verdiyi misilsiz töhfələr söz açıblar. Səfir Rəşad Aslanov 18 sentyabr tarixinin Prezident İlham Əliyevin sərəncamı ilə 2009-cu ildən etibarən Üzeyir Musiqi Günü kimi qeyd olunmasının əhəmiyyətini xüsusilə qeyd edib. O, dahi bəstəkarın Şərqdə ilk operanın müəllifi kimi mədəniyyətimizin təməlini qoyduğunu, Azərbaycanın Dövlət Himnini bəstələdiyini və Milli Konservatoriyanın yaradılmasında böyük xidmətləri olduğunu deyib.

Gecənin unudulmaz anları musiqi və rəqs nömrələri ilə davam edib. Proqram çərçivəsində Milanda yaşayan opera müğənnisi Çinarə Şirinova fortepianonun müşayiəti ilə Üzeyir Hacıbəylinin ölməz əsərlərini ifa edib. "Ritm" rəqs qrupunun rəqsləri konsert proqramını daha da zənginləşdirib. Nümayiş etdirilən milli rəqslər, o cümlədən "Uzundərə" və "Nağara Şou", Azərbaycan mədəniyyətinin rəngarəngliyini və zənginliyini əks etdirib.

Gecənin sonunda İtaliyanın mədəniyyət nümayəndələri Azərbaycan ifaçılarının istedadını və milli musiqimizin bənzərsizliyini yüksək qiymətləndirib, belə tədbirlərin iki ölkə arasındakı mədəni körpüləri daha da möhkəmləndirdiyini qeyd ediblər. Gurultulu alqışlar isə Azərbaycan musiqisinə olan böyük sevgi və hörmətin bariz nümunəsidir.

***Arzu ƏLİYEVA***
***XQ***

# Qarabağ və Şərqi Zəngəzurda hamıya iş tapılacaq

## *Bu məqsədlə çoxsaylı layihələr gerçəkləşdirilir*

**Dövlət Məşğulluq Agentliyi publik hüquqi şəxs kimi öz işini ölkədə əmək münasibətlərinin inkişafı və əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində qurub. Burada agentliyin əsas missiyası iş tapmaqda çətinlik çəkən işsiz və işaxtaran şəxslərin, xüsusilə də sosial cəhətdən həssas qrupların müvafiq məşğulluq tədbirləri, o cümlədən peşə bacarıqlarının inkişaf etdirilməsi vasitəsilə onların məşğulluğa çıxışını asanlaşdırmağa dəstək verməklə, gələcəkdə əmək bazarına daxil olacaq şəxslər üçün peşəyönümü məsləhət xidmətlərini təşkil etməklə, habelə əmək bazarı üzrə siyasət qərarlarının qəbulu üçün müvafiq informasiya bazasını təmin etməklə ölkədə əmək bazarının effektivliyinə və inklüzivliyinə töhfə verməkdir.**



Həmsöhbətimiz Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədr müavini Hasil Abbasovla agentliyin həyata keçirdiyi layihələrdən və gələcək planlarından danışdıq.

**– Azərbaycanda məşğulluq səviyyəsini artırmaq üçün Dövlət Məşğulluq Agentliyi hansı proqramları həyata keçirir?**

– Agentlik fəaliyyət göstərdiyi 34 il ərzində missiyasına uyğun şəkildə çoxsaylı layihələr reallaşdırıb, ölkənin əmək bazarının təkmilləşdirilməsi istiqamətində böyük işlər ortaya qoyub və bu missiyanı indi də uğurla davam etdirir. Qurum ölkədə əhalinin məşğulluq səviyyəsinin artırılması, həmçinin işsiz və işaxtaran şəxslərin məşğulluğunun təmin edilməsi məqsədilə çoxşaxəli fəaliyyət həyata keçirir. Bura işsiz və işaxtaran şəxslərin münasib işlə təmin edilməsi; onlara peşə maraqlarının formalaşdırılması və peşə seçiminə istiqamətləndirilməsinə dəstək məqsədilə peşəyönümü məsləhət xidmətlərinin göstərilməsi; peşə hazırlığının təşkili; sahibkarlığın təşviq olunması və kiçik ailə təsərrüfatlarının yaradılması məqsədilə şəxslərin özünüməşğulluğunun təmin edilməsi daxildir.

Təkcə cari ilin 8 ayının göstəricilərinə nəzər salmaq kifayətdir ki, görülmüş işlərin miqyasını təsəvvür etmək mümkün olsun. Belə ki, bu müddət ərzində 1138 nəfər kvota yerləri üzrə olmaqla, ümumilikdə, 109 minədək şəxs işlə təmin edilib. O cümlədən 14 min 600 nəfər özünüməşğulluq proqramına, 1,1 min nəfər əməkhaqqının birgə maliyyələşdirilməsi proqramına, 11 min nəfər peşə hazırlığına, 164 min 200 nəfər peşəyönümü məsləhət xidmətlərinə cəlb olunub. Özünüməşğulluq proqramı ilə bağlı ümumi statistikaya gəlincə isə indiyədək bu proqram çərçivəsində 100 minədək şəxs öz bilik və bacarıqlarına uyğun sahələr üzrə müvafiq aktivlərlə təmin edilib.

**– Agentlik yalnız məşğulluq proqramını həyata keçirir?**

– Dövlət Məşğulluq Agentliyinin prioritet istiqamətləri və gördüyü işlər bu proqramla bitmir. Agentlik gənclərin və qadınların məşğulluğunun təmin olunmasına xüsusi önəm verməklə yanaşı, sahibkarlıq fəaliyyətinin genişlənməsi istiqamətində də xüsusi proqramlar həyata keçirir. Məsələn, sosial iş yerlərində işçilərin əməkhaqlarının bir hissəsinin agentlik tərəfindən maliyyələşdirilməsini nəzərdə tutan "Birgə maliyyələşmə" proqramı, həmçinin "Məqsədli proqramlar" və "Kvotadan əlavə iş yerləri üzrə maliyyələşmə" kimi proqramlar həyata keçirilir ki, bunlar da sahibkarlığın inkişafına dəstək məqsədi daşıyır. Bu, həm də işəgötürənlərin həvəsləndirilməsi üçün vacibdir.

Bundan başqa, agentlik əmək bazarının müasir tendensiyalara adekvat cavab verə bilməsi üçün peşə hazırlığına da xüsusi əhəmiyyət verir. Çünki peşə hazırlığı müasir tələblərə cavab verən, səmərəli və davamlı məşğulluğun təmin edilməsində vacib rol oynayan əsas amillərdən biridir. Belə ki, müasir əmək bazarında əsas problemlərdən biri şəxslərin peşə və kvalifikasiyasının mövcud vakansiyalarla uyğun gəlməməsidir. Bu uyğunsuzluq, bir çox hallarda işçi qüvvəsinin düzgün formalaşmamasından və əmək bazarının dəyişkənliyindən qaynaqlanır. Peşə hazırlığı işçi qüvvəsinin bacarıqlarını və biliklərini əmək bazarının tələb və ehtiyaclarına uyğunlaşdırmaqla həm fərdlərin, həm də ümumi iqtisadiyyatın inkişafına töhfə verir. Bacarıqlı və hazırlıqlı işçi qüvvəsi iqtisadiyyatı gücləndirir, innovasiyaların tətbiqini asanlaşdırır və ölkəmizin rəqabət qabiliyyətini artırır. Eyni zamanda qurum əmək bazarında yaranan yeni peşə və bacarıq tələblərinin monitorinqi məqsədilə əmək bazarının strateji təhlil və proqnozlaşdırma sistemini daim təkmilləşdirir.

Agentlikdə müxtəlif sektorlarda baş verən texnoloji dəyişikliklər, "yaşıl" iqtisadiyyatın inkişafı, rəqəmsallaşma və süni intellektin tətbiqi ilə bağlı əmək bazarının ehtiyacları mütəmadi olaraq analiz edilir və bunun əsasında proqnozlar hazırlanır. Buna paralel olaraq, peşə hazırlığı və peşəyönümü xidmətlər müasir əmək bazarının tələblərinə uyğunlaşdırılır. Burada həyata keçirilən peşə təlimləri proqramlarına yeni ixtisaslar daxil edilir, mövcud tədris proqramları yenilənir. Bundan əlavə, agentlikdə fəaliyyət göstərən karyera məsləhətçiləri işaxtaranlara əmək bazarının cari tələbləri barədə məlumat verir, onların fərdi bacarıq və maraqlarına uyğun peşə istiqamətlərini seçməkdə dəstək göstərir.

**– Möhtəşəm Zəfər məşğulluq missiyasına necə təsir etdi?**

– Vətən müharibəsində qazandığımız tarixi Zəfər Azərbaycan dövlətinin qarşısında tamamilə yeni strateji vəzifələr qoydu. Otuz ilə yaxın işğal altında qalmış torpaqlarımızın azad olunması yalnız ərazi bütövlüyünün bərpası deyil, həm də bu bölgələrin sosial-iqtisadi inkişafı üçün geniş imkanların açılması demək idi. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və məskunlaşma işlərinin uğuru, əhalinin dayanıqlı şəkildə orada yaşaması və işləməsi ilə bağlıdır, desək, yanılmarıq.

Bu baxımdan, əminliklə deyə bilərik ki, məşğulluq siyasəti Böyük Qayıdışın ən mühüm dayaqlarından biridir. Çünki müharibədə qazanılan böyük Qələbə məşğulluq missiyasını genişləndirdi. Beləliklə, Qarabağ və Şərqi Zəngəzurun azad edilməsindən sonra agentliyin missiyasına yeni bir vektor əlavə olundu: azad olunmuş ərazilərə qayıdan əhalinin məşğulluğunu təmin etmək, onların iqtisadi müstəqilliyini dəstəkləmək və bölgədə dayanıqlı əmək bazarı formalaşdırmaq.

**– Böyük Qayıdış proqramı geniş quruculuq meydanı açıb.**

– 2022-ci ildə təsdiqlənmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" bu istiqamətdə yol xəritəsini müəyyənləşdirdi. Proqramın əsas məqsədlərindən biri kimi dayanıqlı məskunlaşmanı təmin etmək, o cümlədən əhalinin daimi məskunlaşmasını stimullaşdırmaq üçün onların sosial müdafiəsini gücləndirmək və məşğulluq imkanlarını artırmaq kimi məsələlər nəzərdə tutulub. Bu prosesin icrasında aparıcı qurumlardan biri olan agentlik, ümumilikdə, "Məşğulluqdan məskunlaşmaya" yanaşmasını əsas götürərək məskunlaşma prosesinə paralel şəkildə məşğulluq tədbirlərini həyata keçirir. Bu yanaşma insanlara yalnız mənzillə təmin olunmaq deyil, həm də öz dolanışıqlarını qurmaq imkanı yaradır.

**– Agentlik azad edilmiş ərazilərdə hansı önəmli layihələri icra edir?**

– Azad edilmiş ərazilərdə qurum bir neçə istiqamət üzrə tədbirlər reallaşdırır. Bunlardan birincisi özünüməşğulluq proqramıdır. Bu proqram çərçivəsində Qarabağ və Şərqi Zəngəzur sakinləri arasında sahibkarlıq bacarıqlarının inkişafı üçün aktiv proqramlar həyata keçirilir. İştirakçılar mal-material dəstəyi alaraq kiçik təsərrüfatlar, xidmət və istehsal sahələri qururlar. Bu təşəbbüs bölgədə mikrosahibkarlığın formalaşmasına təkan verir. Digər fəaliyyət istiqamətlərinə isə haqqı ödənilən ictimai işlərə və peşə hazırlığına cəlb olunma daxildir ki, bu yollarla əhalinin məşğulluğunun təminatı yönündə ciddi addımlar atılır və bütün bunların nəticəsi kimi yerli sakinlər ayrı-ayrı vakansiyalar üzrə işlə təmin olunurlar.

**– Faktlar, rəqəmlər nə deyir?**

– 2025-ci il sentyabrın 12-nə olan rəsmi məlumatlara əsasən, işğaldan azad edilmiş ərazilərdə məskunlaşan iqtisadi fəal əhalidən 5 min 860 nəfərin məşğulluğu təmin edilib. Onların 4 min 7 nəfəri müxtəlif sahələrdə işlə təmin olunub, 451 nəfər özünüməşğulluq proqramına cəlb edilib. Fərdi qaydada özünüməşğul olanların sayı isə 1060 nəfər olub ki, onların da əsas fəaliyyət sahələri xırda ticarət, kənd təsərrüfatı, yük və sərnişindaşıma xidmətləridir. Bundan başqa, 281 nəfər peşə hazırlığı kurslarına qatılıb, daha 566 nəfərin məşğulluğa cəlb olunmasına dair proses davam etdirilir. Rəqəmlər göstərir ki, məskunlaşma artdıqca iş yerlərinə tələbat da yüksəlir və Dövlət Məşğul Agentliyi bu tələbi qarşılayacaq mexanizmləri ardıcıl inkişaf etdirir.



**– Qarabağda fəaliyyətiniz necə davam edəcək?**

– Qarşıda gediləsi uzun yol var… Qarabağ və Şərqi Zəngəzurda dayanıqlı məşğulluq mühitinin formalaşdırılması dövlətin uzunmüddətli sosial-iqtisadi strategiyasının mühüm tərkib hissəsidir. Görünən də odur ki, Dövlət Məşğulluq Agentliyi bu prosesdə əsas rol oynayan qurumlardan biri kimi qalacaq, bölgə əhalisinin rifahının yüksəldilməsinə və işğaldan azad edilmiş torpaqlarda müasir əmək bazarının formalaşmasına töhfə verməyə davam edəcək. Çünki məşğulluq siyasəti regionun yalnız iqtisadi deyil, həm də sosial həyatına təsir göstərir.

İnsanların öz əmək fəaliyyəti ilə məşğul olması sosial inteqrasiyanı gücləndirir, ailələrin gəlirini artırır, bölgədə sahibkarlıq mədəniyyətini formalaşdırır. Eyni zamanda məşğulluq infrastrukturun genişlənməsini, xidmət sektorunun inkişafını, yeni biznes ideyalarının ortaya çıxmasını stimullaşdırır. Bütün bu fəaliyyətlər Böyük Qayıdışın uğurla həyata keçirilməsinə, azad torpaqlarda həyatın dirçəlişinə və gələcək nəsillər üçün möhkəm iqtisadi bünövrənin qurulmasına öz müsbət təsirini göstərəcək.

*Müsahibəni qələmə aldı:*
***Zərifə HÜSEYNOVA***
***XQ***

*Beynəlxalq həyat*

# ABŞ-da siyasi zorakılıqlar ciddi narahatlıq doğurur

## *Prokurorlar Çarli Kirkin qətlində şübhəli bilinən şəxsə ölüm cəzası tələb edəcəklər*



**ABŞ-da növbəti səsli-küylü qətl törədildi – bir neçə gün əvvəl mühafizəkar siyasi fəal, 30 yaşlı bloger Çarli Kirk öldürüldü. Siyasi müşahidəçilər hadisəni ABŞ cəmiyyəti üçün bir qədər ənənəvi olan siyasi qətl hesab edirlər. Onların fikrincə, ölkədə siyasi motivli qətllərin sayı keçən əsrin 60-cı illərindən bəri ən yüksək həddə çatıb. 1960-1970-ci illərdə bu ölkədə Martin Lüter Kinq və Kennedi qardaşlarının qətli hələ unudulmayıb. Bu dalğaya 2024-cü ildə ABŞ Prezidenti Donald Trampa edilən iki sui-qəsd cəhdini, sentyabrın 10-da Çarli Kirkin qətlini və digər siyasi xadimlərə qarşı hücumları da əlavə edə bilərik.**

Analitiklər hesab edirlər ki, ABŞ-da siyasi zorakılığın artması ölkədə siyasi qütbləşmənin dərinləşdiyini, demokratik institutların özlərinin və onlara inamın zəiflədiyini göstərir.

Hazırda ölkənin hüquq-mühafizə orqanları Kirkin ölümünü araşdırmaqla ciddi məşğuldur. Artıq qətldə şübhəli bilinən 22 yaşlı Tayler Robinson da saxlanılıb. Prokurorlar bildirirlər ki, Robinson şəxsi mesajlarında cinayəti etiraf edib. O, hazırda şahidə müdaxilə də daxil olmaqla yeddi ağır cinayətdə ittiham olunur. Utah prokurorları cinayət işi ilə bağlı yeni təfərrüatları açıqlayaraq bu şəxs üçün ölüm cəzası tələb edəcəklərini bildiriblər. ABŞ Prezidenti Donald Tramp da qatilə ölüm hökmünün tətbiq olunmasına çağırıb.

Hazırlamış sənədlərdə deyilir ki, Tayler Robinson Kirki öldürməyi planlaşdırdığını və bunu icra etdikdən sonra atışmanı etiraf etdiyini bildirən qeydlər buraxıb: "Mən onun nifrətindən yoruldum". Bunu səlahiyyətlilərin şübhəlinin ortağı kimi də qəbul etdikləri Kirkin otaq yoldaşı deyib.

Prokurorların sözlərinə görə, Robinson hücuma bir həftədən çox hazırlaşıb. Sonrakı "SMS" mesajlarında o, geri qayıtmadığına və qətldən dərhal sonra babasına məxsus kollara atdığı tüfəngi götürdüyünə görə peşman olduğunu bildirib. Silahın tətiyində tapılan DNT də Robinsona aiddir. Bu da prokurorların qənaətidir.

Yuta dairəsinin prokuroru Ceffri Qrey Robinsonu yeddi ağır cinayətdə ittiham edir, bura ağırlaşdırılmış qətl, sübutları məhv etməklə ədalətə mane olmaq, şahidə rüşvət vermək, günahını sübut edəcək mesajları silmək və s. daxildir.

Qrey mətbuat konfransında ölüm cəzası qərarına gəldiklərini belə əsaslandırıb: "Yalnız mövcud dəlillər, cinayətin şərtləri və təbiəti".

Artıq Robinsonun ilk məhkəmə prosesi də keçirilib. O, iki gün əvvəl həbsxanadan videobağlantı vasitəsilə dindirilib. Sentyabrın 29-na təyin edilmiş növbəti məhkəmə gününə qədər onun vəkillə təmin olunacağı bildirilib.

Xatırladaq ki, Çarli Kirk sentyabrın 10-da Utah Valley Universitetində tələbələrlə ictimai debat zamanı güllələnərək öldürülüb. O, MAGA hərəkatının gənclər qanadını təmsil edən Turning Point USA təşkilatının həmtəsisçisi olub. Özünün etirafına görə, əsasən kollec şəhərciklərində gender və immiqrasiya kimi mövzularda liberallara qarşı "mədəni müharibə" aparıb. Artıq ABŞ-da Kirkin öldürülməsindən sonra siyasi zorakılıqlarla bağlı narahatlıqlar artmaqdadır.

***P.ƏMİRCANOV***
***XQ***


**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Bakı Dövlət Universiteti**

***aşağıdakı fakültə və kafedralarda boş olan və seçki müddəti başa çatacaq vəzifələri tutmaq üçün***

MÜSABİQƏ ELAN EDİR

**Kafedra müdiri vəzifəsini tutmaq üçün:**

| Kafedra | Vəzifə | Yerlər |
|---|---|---|
| Süni intellekt etikası kafedrası | Kafedra müdiri | 1 |
| Əqli mülkiyyət hüququ kafedrası | Kafedra müdiri | 1 |

**Professor-müəllim vəzifəsini tutmaq üçün:**

| Kafedra | Vəzifə | Yerlər |
|---|---|---|
| Ümumi dilçilik kafedrası | Müəllim | 1 |
| Seysmologiya və yer təkinin fizikası kafedrası | Müəllim | 0,5 |
| Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası | Müəllim | 1 |
| Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası | Müəllim | 1 |
| Süni intellekt etikası kafedrası | Professor | 1 |
| | Dosent | 1 |
| | Baş müəllim | 1 |
| | Müəllim | 1 |
| Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrası | Müəllim | 0,5 |
| Riyazi fizika tənlikləri kafedrası | Dosent | 2x1 |
| Optimallaşdırma və idarəetmə kafedrası | Dosent | 2x1 |

**Qeyd:** Müsabiqədə iştirak etmək üçün sənədlər seçkinin elan olunduğu gündən Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq olunmuş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na əsasən 1 ay müddətində, 1996-cı il 7 avqust tarixli 401 nömrəli qərarı ilə təsdiqlənmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq 30 gün müddətində qəbul edilir.

Ünvan: **AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 33.**

# Fantastik kambek



## “Qarabağ”ın sensasiyalı geridönüşü, həqiqətən, möhtəşəm idi

**Çərşənbə axşamı “Goal” portalında UEFA Çempionlar liqasının favoritləri sırasında Kataloniyanın “Barselona” klubunun adını görmək mənim üçün xoş oldu, çünki gənc yaşlarımdan bu futbol sehrbazlarının azarkeşiyəm. Amma görəndə ki, Çempionlar liqasının əsas mərhələsindəki 36 klub arasında doğma “Qarabağ” klubunun adı son pillədə yer alıb, doğrusu, bu, olduqca heysiyyətimə toxundu. Nə qədər olmasa, “Qarabağ” klubu milli komandamızdan fərqli olaraq Avropa meydanlarında artıq sözünü demiş, özünü tanıtmış bir klubdur, belə yanaşma heç ürəyimcə deyildi.**

Bu ərəfədə də liqanın ilk oyunlarının startı verilirdi və “Qarabağ”ın qismətinə ilk matçında futbolun kifayət qədər populyar olduğu Portuqaliyanın “Benfika” klubu ilə mübarizəyə başlamaq düşmüşdü. Üstəlik, elə o portalda bu cütlüyün şəksiz qalibi kimi məhz “Benfika” klubu göstərilirdi. Bukmeykerlər portuqaliyalıların “köhlən atlar”ımızı çox asanlıqla məğlub edəcəklərini proqnozlaşdırmaqda bəlkə də haqlı idilər. Çünki Avropanın adlı-sanlı klubu sayılan “Benfika” kvalifikasiya turnirində əvvəlcə Fransanın “Nitsa” klubunun müqavimətini qıraraq ümumi hesabda ona 4:0 qalib gəlib, sonra isə Joze Mauriniyonun çalışdırdığı Türkiyənin “Fənərbaxça” klubunu mübarizədən kənarlaşdıraraq Çempionlar liqasının əsas mərhələsinə adlayıb.

Digər tərəfdən, “qartallar”ın heyətində tanınmış, məşhur futbolçular var və onlar doğma meydanda son oyunlarında nəinki uduzublar, qapılarından heç bir top belə buraxmayıblar. Ona görə də “Benfika”nın “Qarabağı” üstələyəcəyi ilə bağlı proqnozlar reallığa söykənirdi deyə, razılaşdımsa da, bir az məyus oldum. Lakin ən güclü futbol mütəxəssislərinin dediyi aşağıdakı ifadə məni bir qədər ümidləndirirdi: “Bu futboldur, burada hər şey mümkündür”.

Qurban Qurbanovun yetirmələrinin Portuqaliya klubuna asanlıqla məğlub olmayacağına və Bruna Laqenin yetirmələrinə başağrısı olacağına əsla şübhəm yox idi. Lakin “Benfika” ilə oyun, həqiqətən, çətin olacaqdı, çünki “qartallar” doğma meydanda çox güclü oyun nümayiş etdirirlər. Digər tərəfdən də ilk dövrədə motivasiya bütün komandalar üçün hədsiz dərəcədə yüksək olur. Hətta heç-heçənin belə “Qarabağ” üçün böyük sürpriz və bayram olacağını düşünürdüm.

Ağdam təmsilçilərinin azarkeşlərini ümidləndirən bir məqam da nəzərimdən qaçmamışdı. Belə ki, həm “Benfika”, həm də “Qarabağ” Çempionlar liqasının ümumi mərhələsinə vəsiqə qazanmaq üçün bu yay seçmə mərhələni keçməli olublar. “Benfika” iki, “Qarabağ” üç turdan qalib ayrılıb. Amma bu oyun bir başqa oyun olacaqdı.

Matç çox sürətli başladı. “Qarabağ” ilk dəqiqələrdən çəkinmədən rəqibin cərimə meydançasının önündən pessinqə başladı. Qarşılaşmanın 3-cü dəqiqəsində ağdamlıların qapısından 32 metr aralıda müdafiəçimiz rəqibin ukraynalı legioneri və matçın ən fəal oyunçularından biri Sudakovun ayaqlarına ağrılı zərbə endirdi. Qapıya birbaşa zərbə üçün ən əlverişli nöqtə deyildi. Amma Rios cəhd etdi və onun güclü zərbəsindən sonra top ağdamlı futbolçulardan birinə dəyib sol cinahdan meydanı tərk etdi.

Birinci hissənin ilk dəqiqələrindən “Benfika” hücumlarını qurarkən maksimum aqressivlik göstərir, sadəcə, ”Qarabağ”ın müdafiəsində zəif nöqtələri tapmağa çalışırdı. 5-ci dəqiqədə “Qarabağ” sağ cinahda ilk əks-hücuma cəhd etdi və kolumbiyalı Duran cərimə meydançasına keçmək istəsə də, bu cəhdin qarşısı alındı. Növbə lissabonlulara çatdı və onlar 6-cı dəqiqədə sol cinahdan künc zərbəsi qazandılar. Sudakov soldan qapı önünə əla ötürmə etdi və Barreneçea başla topu tora göndərdi. Bir gözü Riosda olan Kadi onu saxlaya bilmədi və “qartallar” erkən qolla hesabı açdılar – 1:0. Bu məqamda Qurban Qurbanovun yetirmələri müdafiədə zəif təsir bağışladılar.




“Qarabağ”ın erkən qol buraxması narahatlıq yaradırdı, amma belə bir vəziyyətdə Qurban Qurbanovun həmişə ehtiyat üçün “B” planı olur deyə, özümə təsəlli verdim. Təslim olmaq və oyunçuların burunlarını sallaması hələ çox tez idi.

Bundan sonra meydan sahibləri özlərinə aid hissədə çox rahat şəkildə ötürmələr etməyə başladılar. “Qarabağ” isə pressinqinə bir qədər ara verib müdafiədə səflərini bərkitməyə başladı. Lissabonlular qoldan sonra daha rahat oynamağa və bir-birinin ardınca kəskin hücumlar təşkil etməyə üstünlük verdilər. 12-ci dəqiqədə yenə həmin Sudakov rəqibin cərimə meydançasına incə şaquli ötürmə etdi, lakin ağdamlı müdafiəçilər onun qarşısını kəsə bildilər. 13-cü dəqiqədə Barreneçea yenidən səhnəyə çıxdı. Bu oğlanı həqiqətən “qartallar”ın heyətində qarşılaşmanın ən yaxşı oyunçusu adlandırmaq olardı. Berreneçea ağdamlıların cərimə meydançasının kənarından güclü zərbə vuraraq dubl etməyə yaxın oldu, lakin “Qarabağ”ın cəsur müdafiəçisi Kevin Medina zərbənin qarşısını alıb onun qapımıza yolunu bağladı. Nəhayət, matçın 17-ci dəqiqəsində meydan sahiblərinin yunan legioneri Vangelis Pavlidis əla oyunu ilə özünü göstərdi. Ukraynalı Sudakov ağdamlıların cərimə meydançasındakı Pavlidisə dəqiq şaquli ötürmə etdi. Medina zərbəni dəf edərkən top Mustafazadəyə dəyib qapıçımız ilə üz-üzə dayanan Pavlidisin qarşısına düşdü. Bu qoleador nadir hallarda belə anları boşa çıxarır. Bu dəfə də belə oldu. Qol – 2:0. İnanırdım ki, mənim kimi minlərlə Azərbaycan azarkeşi də bu qoldan sonra “Qarabağ” üçün bu oyunun taleyinin bitdiyini düşünürdü. Amma belə olmadı.

Deyəsən, Qurban Qurbanovun və onun əzmkar yetirmələrinin bu qarşılaşmada yaranan vəziyyətə öz fikirləri və yanaşmaları var idi. Meydanda hər yerdə peyda olan Kadi və mənim böyük hörmət bəslədiyin Yankoviç yavaş-yavaş özlərinə gəlir və meydanın mərkəzində dirijorluq funksiyalarını bərpa edirdilər. Digər oyunçularımız da “Benfika”nın müdafiəsi ilə bağlı bəzi şübhələrini sınamağa başlamışdılar. Məhz matçın 30-cu dəqiqəsində lissabonluların argentinalı dünya çempionu Otomendinin rəhbərlik etdiyi müdafiəsi çat verdi. Kapitanımız Zubir Kamilo Durana ötürmə etdi. Bu epizoda qədər heç nə ilə yadda qalmayan Leandro Androade ötürməni qəbul edib, güclü zərbə ilə topu sağ küncə vurdu. “Qooool”. Əmin idim ki, bu təkcə mənim yox, həmin gecə Azərbaycanda və ondan kənarda televiziya ekranları qarşısında oturub bu matçı həyəcanla izləyən minlərlə azərbaycanlının hayqırtısı idi. Düşündüm ki, bundan sonra “Qarabağ” məğlub olsa belə, bu mənə o qədər təsir etməz, nə qədər olmasa, bu qol ona yuxarıdan aşağa baxanlara çox əla cavab idi. Amma “Qarabağ” məğlub olana oxşamırdı.

Birinci hissənin qalan vaxtında “köhlən atlar” qoldan sonra bir-birinin ardınca “qartallar”ın qapısına kəskin hücumlar təşkil etdilər. Komanda sanki oyunun ilk 20 dəqiqəsində 0:2 hesabı ilə uduzan komanda deyildi. 34-cü dəqiqədə Kadi qapı önünə əla ötürmə etdi və Kamilo Duran başı ilə az qala komandasının ikinci qolunu Trubinin qoruduğu çərçivədən keçirəcəkdi.

35-ci dəqiqədə Kadi rəqibini cərimə meydançası xəttində məharətlə keçərək sol ayağı ilə Azərbaycan millisinin son qarşılaşmasında Emin Mahmudovun 11 metrlik zərbəsindən sonra qapısında qol görmüş Trubinin qoruduğu qapının sağ küncünə zərbə endirdi. Qapı dirəyi “Benfika”nın tərəfində oldu. Amma meydan sahiblərinin qapısına hücum davam edirdi. İndi Yankoviç müdafiəçilərin arasından 11 metrdən qapıya güclü zərbə vurmağı bacardı, lakin Trubin möcüzəvi şəkildə reaksiya verdi və topu yan tərəfə qaytardı.

“Qartallar”ın baş məşqçisi Bruna Laqe özünü itirmişdi və nə baş verdiyini anlamaqda çətinlik çəkirdi. İlk hissənin sonu, demək olar ki, Azərbaycan klubunun aramsız əks-hücumları ilə yadda qaldı. Meydan sahibləri də kəskin hücumlar təşkil etməkdə idilər, lakin ağdamlılar indi daha ayıq oynayırdılar. Xüsusilə Kevin Medina, Antonio Silva, Elvin Cəfərquliyev və Bəhlul Mustafazadə “Benfika”nın qarşısında keçilməz bir səddə çevrilmişdilər.

İkinci hissədə “Qarabağ” klubu sanki meydana qələbə üçün çıxmışdı. Komandada mübarizə əzmi o qədər güclü idi ki, indi onlar nə desən, etməyə hazır idilər ki, təki qələbə qazansınlar.

İkinci hissənin başlamasından heç 3 dəqiqə keçməmiş “Benfika” qapısında qol gördü. 48-ci dəqiqədə Yankoviç meydanın özlərinə aid hissəsindən rəqibin cərimə meydançasının sol kənarına Kamila Durana gözəl ötürmə etdi. Duran isə sözün əsl mənasında, bir o qədər gözəl şəkildə qapının uzaq küncünə möhtəşəm zərbə endirdi. Top dirəyə dəyib tora düşdü. Yenə hayqırdım və küçədən də qulağıma “qol” sədası gəldi. “Qarabağ” hesabı bərabərləşdirdi.

Oyunun başa çatmasına kifayət qədər vaxt qalsa da, əmin idim ki, “köhlən atlar” bu hesabı əldən verməyəcəklər. “Benfika” cidd-cəhdlərlə hücumlar təşkil etsə də, “Qarabağ” artıq özünü inamlı hiss edir və müdafiədə itkilərə yol vermirdi. Hətta oyunun 66-cı dəqiqəsində qarabağlılar Bəhlul Mustafazadənin başla vurduğu 3-cü qolla irəli çıxdılar, lakin qol hesaba alınmadı. Müdafiəçimiz qolu oyundankənar vəziyyətdən vurmuşdu.

Gərgin anlar yaşayan “Benfika”nın baş məşqçisi ard-arda bir neçə əvəzetmə etsə də, bunun bir faydası olmadı. Amma Qurban Qurbanovun 78-ci dəqiqədə etdiyi ikili strateji əvəzetmə özünü çox gözlətmədi. Meydana çıxan Toral Bayramov və Aleksey Kaşçuk oyuna əla qoşuldular. Heç 10 dəqiqə keçməmiş “Qarabağ” lissabonlulara – həm meydandakı futbolçulara, həm də tribunadakı tamaşaçılara şok yaşatdı. Bu dəfə Azərbaycan klubunun ukraynalı legioneri Aleksey Kaşçuk diqqət mərkəzinə düşdü. Kaşçuk rəqibin cərimə meydançasının sağ kənarına daxil olub, Zubirə qısa ötürmə etdi. Kapitandan təkrar ötürmə alan Kaşçuk dönüb düz qapının yaxın alt küncünə zərbə endirdi. Trubin həmyerlisinin bu zərbəsinə, sadəcə, reaksiya verə bilmədi. Qool! 2:3. Qarabağın möhtəşəm kambeki, həqiqətən, fantastika idi. Rəqib meydançasında, futbol ölkəsində belə möhtəşəm geridönüş edən “Qarabağ” klubuna yalnız əhsən demək düşürdü. İki top fərqi ilə udan “Benfika”nı doğma Estadio da Luzdakı məğlubiyyətlə cəzalandırmaq üçün güc tapan əzmkar "Qarabağ"ın səfərdə sensasiyalı qələbəsini, yəqin ki, lissabonlular uzun müddət unuda bilməyəcəklər. Biz də komandamızın fantastikaya bənzər mötəşəm qələbəsini.

Kaş bir gün Azərbaycan himninin sədaları altında meydana girən milli komandamızın da belə əzmkar, fədakar və fantastik qələbəsinə sevinək. Əhsən “Qarabağ”, sən azarkeş sevgisinə və dəstəyinə layiqsən!

*İlqar RÜSTƏMOV*
*XQ*


Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 199 (30893) 18 sentyabr 2025-ci il, cümə axşamı


## İDMAN

### Türküstanda bürünc medal



**Qazaxıstanda təşkil edilən akademik avarçəkmə üzrə Türküstan Kuboku beynəlxalq turnirinə yekun vurulub.**

Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasından verilən məlumata görə, Türküstan şəhərində keçirilən reqatada Nurlan Paşayev uğurlu nəticə əldə edib.

Finalda finiş xəttini üçüncü keçən gənc idmançı bürünc medala sahib olub.

### Bakıda “Olimpiya günü” keçiriləcək




**Bakıda Beynəlxalq Olimpiya Komitəsinin (BOK) təsis olunmasının 131-ci ildönümünə həsr olunmuş “Olimpiya günü” keçiriləcək.**

Bu barədə Azərbaycan Milli Olimpiya Komitəsindən (MOK) məlumat verilib.

Tədbir MOK-un təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Bakı Şəhər İcra Hakimiyyətinin, TƏBİB-in, Bakı Şəhər Baş Polis İdarəsinin, Azərbaycan Kəndirlə Mübarizə və Atletika federasiyalarının dəstəyi ilə gerçəkləşəcək.

Qeyd edək ki, “Olimpiya günü” tədbiri oktyabrın 18-də baş tutacaq.

### Azərbaycan Kubokunun püşkü atılıb



**Azərbaycan Kubokunun 2025/2026 mövsümünün püşkatma mərasimi keçirilib.**

Tədbirdə təsnifat mərhələlərində qarşılaşacaq cütlüklər müəyyənləşib.

Qeyd edək ki, Azərbaycan Kubokunda 34 komanda iştirak edəcək. 1/4 finala qədər qalib bir oyunun nəticəsinə əsasən müəyyənləşəcək. Daha sonra ev-səfər prinsipi tətbiq olunacaq.

Azərbaycan Kubokunun final matçı mayın 13-də Bakıda “Neftçi Arena”da təşkil olunacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

***“Azərbaycan Kapoeyra Federasiyası” İctimai Birliyinin 2007-ci il 26 dekabr tarixində Ədliyyə Nazirliyində Dövlət qeydiyyatına alınmış (qeydiyyat nömrəsi 1107-Q20-2486) “Azərbaycan Kapoeyra Federasiyası” İctimai Birliyinin Nizamnaməsi itdiyi üçün etibarsız sayılır.***

## Payızın addım səsləri eşidilir

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-19, gündüz 21-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gündüz əksər rayonlarda yağıntıda qısa müddətə fasilə olacaq. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-19, gündüz 19-24, dağlarda gecə 2-6, gündüz 7-11 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin əməkdaşı Söhrab Nurməmmədova qardaşı

**FƏXRƏDDİN NURMƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3488
SİFARİŞ 1743
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00